# KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

№ 1 ' 2002

BAKI - 2002

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ
KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏSİ

# KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Elmi-nəzəri və təcrübi jurnal

**№ 1 ' 2002**

1997-ci ilin
oktyabrından çıxır

**№ 1 (10)**

**BAKI – 2002**

KBT 78
K 73

***Təsisçi və
baş redaktor:
dosent
Xəlil İSMAYILOV***

***Məsul redaktor:
baş müəllim
Knyaz ASLAN***

**REDAKSİYA HEYƏTİ:**

Professor Abuzər XƏLƏFOV
Professor Zöhrab ƏLİYEV
Professor Bayram ALLAHVERDİYEV
Dosent Tacəddin QULİYEV
Dosent Əşrəf XƏLƏFOV
Dosent Rasim KAZIMOV
Dosent Nadir İSMAYILOV

*K 73 Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. - B.: Bakı Universiteti Nəşriyyatı, 2002. - №1. – 120 s.*

*Redaksiyanın ünvanı: 370148. Bakı şəhəri, Zahid Xəlilov küçəsi, 23,
2 №-li tədris korpusu, IV mərtəbə, kitabxanaçılıq-informasiya fakültəsi,
"Kitabxanaşünaslıq və biblioqrafiya" jurnalının redaksiyası.
Telefonlar: 39-05-47; 39-03-66.*

***© "Kitabxanaşünaslıq və biblioqrafiya", 2002***

**BU NÖMRƏDƏ**

**KİTABXANAŞÜNASLIQ**

Xəlil İsmayılov. M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının elmi-tədqiqat fəaliyyəti (1970-1990)

Zöhrab Baxşəliyev. Azərbaycanda kitabxana işi təşkilinin hüquqi bazası

Sahib Rzayev. Kiçik məktəbyaşlı uşaqların mütaliə xüsusiyyətləri

Mayıl Həsənov. Kitabxana fondunun öyrənilməsi sistemi

Mehmanəli Məmmədov, Elçin Əhmədov. Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində kitabxanaların rolu

Yusif Qazıyev. Kütləvi tədbirlərin təşkilində məktəb kitabxanasının fəaliyyəti

Murtuz Bağırov. Kitabxana statistikasında oxucuların sosial qrupunun müəyyənləşdirilməsinin əhəmiyyəti

Knyaz Aslan. Bədii ədəbiyyatın təbliği üsullarının təkmilləşdirilməsi yolları

Gülyanaq Verdiyeva. Azərbaycan Milli EA Mərkəzi Elmi Kitabxanasının Şərq ədəbiyyatı fondunun yaranması tarixindən

Yeganə Məmmədova. Azərbaycan Milli EA Mərkəzi Elmi Kitabxanasında əməyin elmi təşkili və normalaşdırılmasının bəzi məsələləri

**BİBLİOQRAFİYAŞÜNASLIQ**

Zöhrah Əliyev. 1920-1930-cu illərdə Azərbaycanda xüsusi biblioqrafiya

Əşrəf Xələfov. Müstəqil Azərbaycan dövlətində biblioqrafıya

Sima İsmaylova. Ədəbi biblioqrafik mənbələr ədəbiyyatşınaslığın

biblioqrafik informasiya təminatında mühüm vasitə kimi

Səadət Eldarova. Azərbaycan nefti üzrə mühüm biblioqrafık ehtiyat mənbəyi

Səadət Mütəllimova . Beynəlxalq bibloqrafik əməkdaşlığın yaranması tarixindən

**TƏBRİK EDİRİK**

Zöhrab Baxşəliyev, Nadir İsmayılov . Kitaba bağlanan ömür (Tanınmış kitabxanaşünas-alim Rasim Kazımov - 70)

*Xəlil İSMAYILOV*
*pedaqoji elmlər namizədi,*
*dosent*

# M.F.AXUNDOV ADINA AZƏRBAYCAN DÖVLƏT KİTABXANASININ ELMİ-TƏDQİQAT FƏALİYYƏTİ (1970-1990-cı illər)

Kitabxanaşünaslığın mühüm tərkib hissəsini təşkil edən elmi-tədqiqat işləri çox mürəkkəb, dinamik, yüksək peşəkarlıq və xüsusi istedad tələb edən, elmin və mədəniyyətin inkişafında mühüm yer tutan fəaliyyət sahəsidir. Kitabxanalarda elmi-tədqiqat işləri öz mahiyyətinə görə bir sıra kitabxana proseslərində meydana çıxan çətinliklərin aradan qaldırılmasına, geniş kitabxana ictimaiyyətinin elmi və mədəni tərəqqisinə kömək etmək baxımından xüsusi əhəmiyyətə malikdir. Kitabxanaların keçdiyi tarixi yolun, xüsusən onların köhnə metodologiya və ideoloji prinsiplər əsasında işlənmiş ayrı-ayrı problemlərin yenidən obyektiv, tənqidi təhlil əsasında araşdırılması günün vacib məsələlərindəndir.

Son illərdə kitabxana işi sahəsində yeni konsepsiya və qanunların qəbulu, kitabxanaçılar cəmiyyətinin və assosiasiyaların yaradılması geniş kitabxana ictimaiyyəti qarşısında yeni vəzifələr qoyur. Bu vəzifələrinin həllində respublika kitabxanalarında aparılan elmi-tədqiqat işlərin mühüm rolu vardır.

Azərbaycanda kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq elmləri üzrə elmi-tədqiqat işləri hələ 30-cu illərdən başlamışdır. Bu da 1923-cü ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin təşkili ilə əlaqədar olmuşdur. Belə ki, cəmiyyətin 4 noyabr 1923-cü il tarixli iclasında professor A.V.Baqrinin «Biblioqrafiya komissiyası haqqında» məruzəsi dinlənilmiş və qərara alınmışdır ki, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin yanında biblioqrafiya bürosu yaradılsın.

Lakin respublikamızda kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq elmləri sahəsində tədqiqat işlərinin planauyğun inkişafı 40-50-ci illərdən başlamışdır. Bu da bilavasitə kitabxanaşünaslıq şöbəsinin açılışı ilə bağlı olmuşdur.

Respublikamızda kitabxanaşünaslığa dair ilk elmi-tədqiqat işləri əməkdar elm xadimi, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor Abuzər Xələfovun adı ilə bağlıdır. Professor A.Xələfovun elmi-tədqiqat işləri kitabxanaşünaslığın nəzəri və təcrübi işlərində mühüm rol oynamışdır və hazırda geniş oxucu kütləsi üçün böyük əhəmiyyət kəsb edir.

60-cı illərdə professor Abuzər Xələfovla yanaşı, ayrı-ayrı sahəvi kitabxanalar da elmi-tədqiqat işlərinə xüsusi diqqət yetirməyə başlamışlar. Bu kitabxanalar öz elmi-tədqiqat işlərini bilavasitə professor A.Xələfovun elmi-tədqiqat fəaliyyəti ilə əlaqəli qurmuş və nəticədə 70-80-ci illərdə həmin sahədə böyük müvəffəqiyyətlər qazanmışlar. Bu kitabxanalardan biri də M.F.Axundov adına Dövlət Kitabxanası olmuşdur.

M.F.Axundov adına Dövlət Kitabxanasında elmi-tədqiqat işlərinin təşkili Azərbaycan Mədəniyyət Nazirliyinin 1972-ci ildə «Azərbaycan SSR-də kitabxanaşünaslıq və biblioqrafiya üzrə elmi-*tədqiqat işinin təşkilinin yaxşılaşdırılması tədbirləri haqqında»* qərarı ilə bağlı olmuşdur. Qərara əsasən Dövlət Kitabxanası respublika elmi-tədqiqat işləri üzrə əlaqələndirmə mərkəzi seçilmiş və onun fəaliyyətinə diqqət artırılmışdır. Bu fəaliyyətin davamı olaraq 1975-ci ildə Dövlət Kitabxanasında elmi-tədqiqat şöbəsi yaradılmışdır. Düzdür 70-ci illərə kimi Dövlət kitabxanasında kompleks elmi-tədqiqat işləri aparılmasa da, ayrı-ayrı fərdlər elmi-tədqiqat işləri aparmış və müəyyən uğurlar qazanmışdılar. 70-ci illərdən başlayaraq Dövlət Kitabxanasında elmi-tədqiqat işləri məqsədəuyğun və planlı şəkildə aparılmışdır.

Tədqiq olunan 1970-1990-cı illərdə Dövlət Kitabxanasında 48 mövzuda elmi-tədqiqat işləri aparılmış və onların 44-ü başa çatdırılmışdır. Onlardan «Azərbaycan kəndində kitab və mütaliə problemləri», «Oxucu mütaliəsinə rəhbərlikdə biblioqrafik göstəricilərin rolu», «Kütləvi kitabxanalarda oxucu sorğuları və mütaliə dinamikası», «Respublika kitabxanalarında informasiya xidmətinin təşkili», «Rədd cavabların tədqiqi və onların aradan qaldlırılması» və b. göstərmək olar. Bütün tədqiqat işləri anket metodları, müsahibə,



statistik göstəricilərin təhlili və b. formalarda işlənilib. Hər bir elmi-tədqiqat işi təxminən 4 il müddətində həyata keçirilib.

Aparılan tədqiqatların proqramına əsasən aşağıdakı kompleks problem məsələlər daxil edilmişdir: əhalinin çap məhsuluna olan tələbatını necə ödəməli; kütləvi kitabxanalarda müxtəlif oxucu qruplarına münasibət; kütləvi kitabxanalarda oxucu sorğuları; müxtəlif sosial qrupların asudə vaxtında mütaliənin yeri; ədəbiyyat haqqında informasiya kanalı və s. Nəticədə kitabxanada müxtəlif sosial-milli qrupların kitabxanaya və ayrı-ayrı xidmət şöbələrinə münasibəti öyrənilmiş və çox əhəmiyyətli iş təcrübəsi əldə edilmişdir.

Dövlət Kitabxanasının həyata keçirdiyi ilk ən böyük elmi-tədqiqat işi «Azərbaycan kəndində kitab və mütaliə» probleminə həsr olunmuşdur. Bu tədqiqat işi 1975-1980-ci illərdə həyata keçirilmişdir. Bu tədqiqat işinə Dövlət Kitabxanası işçiləri ilə yanaşı, BDU-nun kitabxanaçılıq fakültəsinin 50 tələbəsi cəlb edilmiş, respublikamızın 11 rayonunda 2200 ailədə və ümumi fərdlər arasında anket sorğusu aparılmışdır. Tədqiqatın nəticəsi Azərbaycan Mədəniyyət Nazirliyinin kollegiyasında və Dövlət Kitabxanasının elmi şurasında müzakirə edilmiş və 10 çap vərəqi həcmində elmi hesabat dərc edilmişdir.

70-ci illərin ikinci yarısında Dövlət Kitabxanasının apardığı elmi-tədqiqat işləri kitabxanaşünaslığın müxtəlif sahələrini əhatə etmişdir. Burada «Kütləvi kitabxanalarda oxucu sorğusu və mütaliə dinamikası (1973-1985)» adlı elmi-tədqiqat işini xüsusilə qeyd etmək olar. Tədqiqatın əsas məqsədi mütaliə haqqında daimi informasiyaya nail olmaq məqsədini güdmüşdür.

Bu illərdə Dövlət Kitabxanasında aparılmış elmi-tədqiqat işlərindən «Oxucu mütaliəsinə rəhbərlikdə biblioqrafik göstəricilərin rolu», «Azərbaycan neftçilərinin sosial-psixoloji mütaliə aspekti», «Azərbaycan EA Mərkəzi Kitabxana Sistemində fondun formalaşmasının mün-təzəmliliyi» və başqaları da müvəffəqiyyətlə başa çatmışdır. Bu *tədqiqat işləri Mədəniyyət Nazirliyinin kitabxanaçılıq* komissiyası ilə müntəzəm müzakirə edilmişdir. Bu müzakirələr müxtəlif idarə və müəssisə kitabxanalarının qarşılıqlı əlaqəsinə kömək etmiş və elmi-tədqiqat işləri üçün geniş şərait yaratmışdır. Nəticədə 80-ci illərin əvvəllərində kitabxanalarda elmi-tədqiqat işlərinin və tədqiqatçılarının sayı artmış, mövzu tematikası genişlənmiş, aparılan tədqiqatların keyfiyyəti yüksəlmişdir.

«Azərbaycan Dövlət Kitabxanasında oxucuların tipologiyası və onlara kitabxana xidmətinin təkmilləşdirilməsi» mövzusunda

aparılmış elmi-tədqiqat işi 1978-1981-ci illərdə həyata keçirilmişdir. Tədqiqatın məqsədi Dövlət Kitabxanasında kitabxana-biblioqrafiya və informasiya xidməti sistemini öyrənmək və oxucu sorğularının operativ yerinə yetirilməsinə nail olmaq idi. Tədqiqat işi iki mərhələdə aparılmışdır. Birinci mərhələnin yekunundan məlum olur ki, Dövlət Kitabxanasının fondu yaxşı vəziyyətdədir və xidmət işinin keyfiyyəti xeyli yüksəlmişdir.

«Kitabın nəşriyyatdan oxucuya kimi keçdiyi yol» adlı tədqiqat işi Azərnəşrin köməkliyi ilə aparılmışdır. Tədqiqat zamanı Kitabxana-kollektorunda, Azərkitabın mağazalarında və Dövlət Kitabxanasının komplektləşdirmə və kitabişləmə şöbəsində kitabın keçdiyi yol yoxlanılmış və alınan göstəricilər mərhələlər üzrə müzakirə edilmişdir. Nəticədə kitabın keçdiyi yol 4-5 aydan 15-20 günə endirilmişdir.

«MKS-lərdə fondun komplektləşdirilməsi və istifadəsi» adlı elmi-tədqiqat işi isə Azərbaycan Mədəniyyət Nazirliyinin «Kütləvi kitabxanalarda kitab fondunun qorunması, istifadəsi və komplektləşdirilməsi» haqqında 4 noyabr 1985-ci il qərarına uyğun olaraq aparılmışdır. Bununla yanaşı, Dövlət Kitabxanası 1986-cı ildə «1986-1990 və 2000-ci illərdə kitabxana işinin əsas inkişaf istiqamətləri» adlı tədbirlər planı hazırlamışdır. Lakin 80-ci illərin axırlarında ölkəmizdə baş verən sosial-siyasi dəyişikliklər bütün sahələrdə olduğu kimi, Dövlət Kitabxanasında da elmi-tədqiqat işlərinə marağı xeyli azaltmışdır. Ancaq bu heç də o demək deyil ki, kitabxanada elmi-tədqiqat işləri tamamilə dayandırılmışdır. 1989-cu ildə Dövlət Kitabxanasının elmi-tədqiqat işi şöbəsində sosioloji xidmət bölməsi yaradılmışdır. Bölmənin əsas məqsədi oxucu mütaliəsinin tədqiqi əsasında sosioloji xidmətin məsələləri, sosioloji xidmət və onun təşkili, inkişaf perspektivləri ilə bağlı problemlər, tədqiqat işlərinin strukturu olan sosioloji xidmətin əsas funksiyalarını şərh etməkdən ibarətdir. Bölmənin yaradılması ilə əlaqədar Dövlət Kitabxanasında «Kitabxanalarda ünsiyyət», «Biz və ədəbiyyat», «Biz sovet şairlərinin əsərlərini necə oxuyuruq» mövzularında elmi-tədqiqat işləri aparılmışdır.

1990-cı ildə Dövlət Kitabxanası respublika elmi-tədqiqat işləri üzrə əlaqələndirmə planını elmi-tədqiqat işi şöbəsinin iş planı ilə əvəz etmişdir. Buna əsas səbəb respublika elmi kitabxanalarının əksəriyyətində elmi-tədqiqat işlərinin aparılmaması olmuşdur. M.F.Axundov adına Dövlət Kitabxanası işə ancaq hər hansı bir



məsələni tövsiyə etmək hüququndadır. Hazırda kitabxana ancaq elmi-tədqiqat işlərinə maraq göstərən kitabxanalara köməklik göstərir.

Son illərdə Dövlət Kitabxanası «Bakı şəhərində kitabxana sistemi» adlı elmi-tədqiqat işi üzərində çalışır. Tədqiqatın əsas məqsədini Bakı şəhərində kitabxana sistemi haqqında tam məlumatın toplanması və elmi məlumatların, tövsiyələrin işlənməsi təşkil edir.

Tədqiqatın işlənməsi üçün aşağıdakı obyektlər seçilmişdir: universal elmi kitabxanalar; müəssisələrin, idarələrin, milli mədəniyyət mərkəzlərinin, yeni siyasi partiyaların, redaksiyaların, məscidlərin, xəstəxanaların, məktəblərin, sanatoriyaların nəzdində olan kitabxanalar.

Tədqiqatın metodikasına aşağıdakı məsələlər daxildir: kitabxana-məlumat vəsaitlərinin quruluşu və təşkilinin öyrənilməsi; müxtəlif tipli kitabxanalar və sənəd fondları üçün vahid pasport nümunələrinin hazırlanması.

Qərara alınmışdır ki, bu tədqiqat işi Bakı şəhər kitabxana sistemlərində müqavilə yolu ilə həyata keçirilsin. Hazırda aşağıdakı təşkilatlarla müqavilə bağlanmışdır: Prezident Aparatı, Milli Məclis, Nazirlər Kabineti, Ali Məhkəmə, Respublika Prokurorluğu, dini idarələr, müxtəlif siyasi partiyalar, ictimai təşkilatlar və s. Lakin hələlik bu idarə və təşkilatların kitabxanaları haqqında məlumat əldə olunmadığına görə tədqiqat işi Bakı şəhərində yerləşən 22 kitabxanada aparılmışdır.

Tədqiqat işi nəticəsində məlum olmuşdur ki, 90-cı illərin əvvəllərində aşağıdakı müəssisə və təşkilatlarda kitabxanalar meydana gəlmişdir: milli mədəniyyət mərkəzlərində, məbədlərdə, yeni siyasi partiyalarda.

Bakı şəhərində kitabxanaların hüquq və nüfuz dairəsinin təsiri baxımından milli kitabsaxlayıcıya aşağıdakılar daxil edilmişdir: məhəlli kitabxanalar, kiçik kitabxanalar və qeyri kitabxana fondları. Hər bir qrupun təşkilində universal və xüsusi kitabxanalar mövcuddur.

Universal xarakterli milli kitabsaxlayıcıya M.F.Axundov adına Dövlət Kitabxanası, EA-nın Əsaslı Kitabxanası, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası, Bakı Şəhər Mərkəzi Kitabxanası daxildir.

Məhəlli universal kitabsaxlayıcı qrupuna Bakı şəhər əhalisinə xidmət edən kütləvi kitabxanalar daxildir. Bu kitabxanalar arasında Mərkəzi Şəhər Uşaq Kitabxanası və Mərkəzi Şəhər Kitabxanası əhəmiyyətli yerlərdən birini tuturdu. Bu kitabxanalar malik olduğu

fondlara görə şəhər kitabxanalarının ümumi fondunun 7%-ni təşkil etsələr də, bütün oxucu təbəqələrinin 25%-ə xidmət edirdilər.

Tədqiqatın nəticələrindən məlum olur ki, əhalinin kitabxanalardan istifadə etmək imkanı 60%-dir. Ancaq nəzərə almaq lazımdır ki, həmin kitabxanalarda hamının istifadə edə biləcəyi ədəbiyyat azalmışdır. Çünki 1990-1991-ci illərdə bir sıra saray və mədəniyyət evlərinin iri kitabxanaları bağlanmışdır. Bura daxildir: həmkarlar komitələrinin nəzdində olan kiçik müəssisələrin kitabxanaları; tikinti trestlərinin, idarələrinin, kiçik fabrik və zavodların kitabxanaları; vilayət həmkarlar komitələrinin kitabxanaları, mədəniyyət evlərinin və mədəniyyət saraylarının nəzdində olan kitabxanalar; siyasi-maarif evlərinin və kabinetlərinin kitabxanaları.

Tədqiqatlar göstərir ki, 1920-ci ilə qədərki dövrlə müqayisədə kitabxana fondlarında olan qiymətli əsərlərin bir çoxu məhv edilmiş, başqa qismi isə böyük kitabxanalar arasında bölüşdürülmüş və ya 20-30-cu illərdə yaradılmış kitabxanaların əsasını təşkil etmişdir. Bütün bunları nəzərə alaraq son illərdə Dövlət kitabxanasında aparılan elmi-tədqiqat işlərində kitabxanalrın işinə yenidən baxılmış və konkret tövsiyələr hazırlanmışdır.

## *ƏDƏBİYYAT*


*1. Bakı şəhərində kitabxana sistemi/M.F.Axundov adına Dövlət Kitabxanası.-B., 1994.-S.5.*

*2. Xələfov Ə. Mütaliə mədəniyyəti haqqında.-B.: Maarif, 1965.-30 s.*

*3. Итоги исследования. Книга в жизни Азербайджанского села.-Б., 1982.-271 с.*

*4. Qafurova L.Y. M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının inkişaf tarixindən //M.F.Axundov adına Dövlət Kitabxanasının elmi əsərləri.-Bur.5.-B., 1990.-S.15.*

*5. M.F.Axundov adına Dövlət Kitabxanasının hesabatı.-1975.-S.112.*

*6. Rayskaya N. Elmi-tədqiqat işləri bu gün və sabah// M.F.Axundov adına Dövlət Kitabxanasının elmi əsərləri.-Bur.6.-B.,1993.-S.84-89.*




**Х.И.ИСМАИЛОВ**

### *Научно-исследовательная деятельность Азербайджанской Государственной Библиотеки им. М.Ф.Ахундова (1970-1990 годы)*

**Резюме**


В статье отмечается, что организация научно-исследовательской работы государственной библиотеки им. М.Ф.Ахундова связано с постановлением Министерства культуры Азербайджана 1972 года «О мерах улучшения развития научно-исследовательской работы по библиотековедению и библиографии Азербайджанской ССР». На основании постановления научно-исследовательская работа Государственной библиотеки была избрана координационным центром, а также было уделено внимание ее деятельности. 1975 году в государственной библиотеке был создан научно-исследовательский отдел. До 70-х годов Государственной библиотекой был проведен комплекс научно-исследовательских работ.

За 1970-1990 гг. Государственной библиотекой намечалось разработать 48 научно-исследовательских тем, из них было выполнено 44. Среди них можно отметить: «Проблемы книги и чтения сельского населения Азербайджана», «Роль библиографических указателей по руководству чтением читателей», «Динамика чтения и читательского запроса в публичных библиотеках», «Организация информационного обслуживания в республиканских библиотеках», «Исследование отказов и пути их устранения» и др. В статье также указывается, что в научно-исследовательской работе Государственной библиотеки рассмотрена работа библиотек и подготовлены конкретные предложения.

*Zöhrab BAXŞƏLİYEV*
*tarix elmləri namizədi,*
*dosent*

# AZƏRBAYCANDA KİTABXANA İŞİ TƏŞKİLİNİN HÜQUQİ BAZASI

Azərbaycan Respublikası XX əsrin sonunda öz müstəqilliyini bərpa etdikdən sonra cəmiyyət həyatının bütün sahələrində baş verən köklü dəyişikliklər zəminində ilk dövrlərdə xeyli problemlər və çətinliklərlə qarşılaşmışdır. Şübhəsiz, baş verən dəyişikliklər prosesi mütərəqqi və demokratikliyindən asılı olmayaraq bu yolu keçmiş dünya ölkələrinin çoxuna xarakterik olan ümumi problemlərdir. Belə ki, hər bir cəmiyyətin uzun illər bərqərar olmuş siyasi, sosial, iqtisadi strukturu və münasibətləri dəyişərkən bu cür problemlər daim meydana çıxmışdır.

Lakin hər bir ölkənin siyasi, iqtisadi, mədəni inkişaf səviyyəsindən və digər amillərdən asılı olaraq, bir idarəetmə sistemindən digərinə keçid dövrü müxtəlif və cəmiyyət üzvləri üçün nisbətən ağır və yüngül ola bilər. Şübhəsiz, burada bir sıra amillərlə yanaşı, eyni zamanda cəmiyyətin bütün fəaliyyət sahələrini tənzimləyən və istiqamətləndirən müvafiq qanunların qəbulu və ona əməl olunması mühüm rol oynayır. Məhz bunları nəzərə alaraq Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra, ilk öncə ölkənin ali dövlət qanununu – Azərbaycan Respublikasının Konstitusiyasını referendum yolu ilə qəbul etmişdir. Məlumdur ki, konstitusiya dövlətin ali hüquqi qüvvəyə malik əsas qanunudur və ölkənin siyasi, hüquqi və iqtisadi sisteminin əsaslarını müəyyənləşdirir (6). İlk milli və demokratik Konstitusiya cəmiyyət həyatının bütün sahələrinin, xalqa xidmət edən bütün sosial institutların demokratik prinsiplər əsasında fəaliyyət göstərməsi üçün hüquqi baza yaratmışdır.

Demokratik cəmiyyət quruculuğunun əsas inkişaf istiqamətlərini müəyyən edən ali dövlət qanununun prinsip və müddəalarına uyğun olaraq, 1995-2000-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən cəmiyyət həyatının müxtəlif sahələrini əhatə edən 900-



dən çox qanun və normativ akt qəbul edilmişdir. Qanunverici orqan tərəfindən qəbul edilmiş rəsmi sənədlər arasında Azərbaycanda kitabxana işi təşkilinin hüquqi bazasının formalaşmasına xidmət edən xeyli miqdarda dövlət əhəmiyyətli hüquqi sənədlər də vardır.

Bunların ən mühümü ali dövlət qanunu olan Azərbaycan Respublikasının Konstitusiyasında mədəniyyətin, elmin, təhsilin inkişafına, xalqın maddi və mənəvi irsinin qorunmasına dövlət tərəfindən təminat verilməsidir. Bu sənəddə mədəniyyətin mühüm göstəricisi, elmin və təhsilin bilik bazası olan kitabxanaların da inkişafına və qorunmasına dövlət tərəfindən təminat verilir. Konstitusiyanın 16-cı maddəsinin ikinci bəndində deyilir: "Azərbaycan Dövləti mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruyur" (1). Dövlətin bu ali qanununda vətəndaşların mədəni təsisatlardan, maddi və mənəvi sərvətlərdən sərbəst istifadə etmək, onların informasiya əldə etmək hüquq və vəzifələri də öz əksini tapmışdır.

Azərbaycanda əhaliyə kitabxana xidmətinin təşkilini və onların istənilən informasiyanın ala bilməsi hüququnu təmin edən 50-ci maddədə deyilir: "Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır (1, s.17). Təbii olaraq Azərbaycan Respublikasının ilk milli konstitusiyasında kitabxana işinin və əhaliyə informasiya xidmətinin demokratik prinsiplərlə təşkili və təminatı məsələləri ümumi şəkildə əks olun-muşdur. Lakin ölkənin bu ali dövlət qanunun müddəa və prinsiplərinə əsaslanan, müvafiq fəaliyyət sahələri üzrə qəbul edilmiş sonrakı digər qanunlarda kitabxanalar və kitabxana işinin cəmiyyətdə yeri və rolu, məqsəd və vəzifələri dəqiq və aydın şəkildə təsbit olunmuşdur.

Belə ki, 1998-ci ilin aprelində qəbul olunmuş "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda kitabxanalar dövlət mədəniyyət təsisatlarının tərkib hissəsi kimi birinci yerdə, Azərbaycan Respublikası dövlət mədəniyyət sistemi siyahısında ikinci yerdə verilmişdir. Əhalinin mədəniyyət xidmətlərilə minimum təmin olunması adlanan 16-cı maddədə deyilir: "Müvafiq icra hakimiyyəti orqanı əhalinin mədəniyyət xidmətlərilə minimum təmin olunması üçün dövlət mədəniyyət təsisatları (kitabxana, muzey, kinoteatr, teatr, sərgi və konsert salonları, musiqi və incəsənət məktəbləri) normalarını müəyyən edir". (7, s.2). Dövlət Mədəniyyət sisteminə dövlətin mülkiyyətində olan aşağıdakı təsisatlar daxildir:

1.Teatr-konsert müəssisələri...

2.*Kitabxana müəssisələri:*

- Milli kitabxanalar;
- Kütləvi, gənclər, uşaq, korlar, şəhər, rayon, kənd, qəsəbə kitabxanaları və onların filialları, mərkəzləşdirilmiş kitabxana sistemləri;
- Sahəvi kitabxanalar, elmi kitabxanalar və s.

"Mədəniyyət haqqında" Qanunda kitabxanaların mədəniyyət təsisatlarının və sisteminin tərkib hissəsi kimi verilməsi təbii və qanunauyğundur. Məhz kitabxanaların tarixən formalaşmış sosial funksiyalarının əsasını onun mədəniyyət funksiyası təşkil edir. Ona görə görkəmli mədəniyyət, elm və dövlət xadimləri daim kitabxanaları ümumi mədəniyyətin əsas göstəricisi hesab etmişlər. Baxmayaraq ki, kitabxanalar hazırda təkcə mədəniyyətin göstəricisi deyil, görkəmli rus akademiki D.S.Lixaçov demişkən, onlarda olan informasiya ehtiyatları eyni zamanda iqtisadiyyatın və siyasətin əsasıdır (10).

Artıq XX əsrin dördüncü rübündə, xüsusilə iqtisadi cəhətdən inkişaf etmiş qərb ölkələrində kitabxana işi sahəsində müasir texnika və texnologiyanın geniş tətbiqi kitabxanaların sosial statusunu daha da genişləndirmişdir və onu ölkənin ümumi inkişaf səviyyəsini müəyyən edən əsas elementlərdən birinə çevirməkdədir. Bununla əlaqədar bir elmi *məqalədə deyildiyi kimi:* "Kitabxanaların müasir proqram-aparatlar sistemi və vasitələrlə təchiz olunması onu ölkənin və cəmiyyətin elmi-texniki və sosial inkişafının ən vacib elementlərindən birinə çevirir" (14). Bütün bu faktlar kitabxanaların cəmiyyətdəki sosial funksiyalarının daha da genişləndiyini göstərir və burada onun informasiya funksiyası prioritetlik təşkil edir. Məhz belə bir müsbət meylin nəticəsidir ki, Azərbaycan Respublikasının "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" 1998-ci ildə qəbul olunmuş qanununda kitabxanalar informasiya ehtiyatlarının əsas bazası kimi birinci yerdə göstərilmişdir.

Qanunun 1-ci fəslinin əsas anlayışlar adlanan 2-ci maddəsində deyilir: "İnformasiya ehtiyatları - informasiya sistemlərində (kitabxanalarda, arxivlərdə, fondlarda, məlumat banklarında və s.) olan sənədlər və sənəd massivləri, habelə ayrıca mövcud olan sənədlər və onların massivləri" hesab edilir (3). Bu qanundan göründüyü kimi, kitabxanalar ölkə informasiya ehtiyatlarını təşkil edən müxtəlif informasiya idarə və müəssisələri içərisində birinci yerdə durur. Respublika qanunvericilik orqanı tərəfindən eyni ildə qəbul olunmuş iki müxtəlif qanunda kitabxanaların bir yerdə mədəniyyət təsisatlarının, digər qanunda *informasiya ehtiyatlarının* əsasını təşkil edən idarələr



*kimi birinci yerdə qeyd olunması faktı kitabxanaların müasir sosial* funksiyalarının qanunla təsbiti onun obyektivliyini və qanunauyğunluğunu əks etdirir. Məhz kitabxanaların bu iki əsas funksiyaları hər bir ölkənin ictimai, siyasi quruluşundan və onun mahiyyətindən asılı olmayaraq kitabxana işi haqqında qəbul edilmiş qanunlarında mədəniyyət və informasiya funksiyaları dominantlıq təşkil edir. Bunlar sovet hakimiyyətinin son illərində qəbul edilmiş kitabxana işinə dair əsasnamədə (12) gənc müstəqil dövlətlərin, o cümlədən Rusiya Federasiyasının (11) və Azərbaycan Respublikasının kitabxana işi haqqında (5) qanunlarında da dəyişməz qalmışdır. Bütün bu faktlar bir daha cəmiyyətin sosial tərəqqisində kitabxanaların rolunun daim artdığını göstərir və ona görə də onun, cəmiyyətin inkişaf istiqamətinə və tələbatına uyğun qurulması üçün hər bir ölkədə, o cümlədən Azərbaycanda kitabxana işini tənzimləyən qanunlar qəbul edilir.

Dünyada kitabxana işi qanunvericiliyinin yaranması və formalaşmasının çox qədim, zəngin tarixi ənənələri vardır. Məsələn, kitabxana işinə dair dövlət qanunu Böyük Britaniyada hələ 1850-ci ildə, Yaponiyada 1899-cu ildə, İsveçdə 1905-ci ildə, ABŞ-da 1945-ci ildə, Hindistanda 1948-ci ildə qəbul edilmişdir. XX əsrin 50-70-ci illərində *dünyanın əksər ölkələrində kitabxanaçılıq qanunları qüvvəyə minmişdir* (4). Dünyanın inkişaf etmiş bir çox ölkələrində kitabxana işinin hələ XIX əsrin ortalarından başlayaraq müvafiq qanunlar əsasında fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycanda "Kitabxana işi haqqında" Qanun 1998-ci ilin sonunda qəbul edilmişdir.

XX əsrin 20-90-cı illərində Azərbaycanın daxil olduğu Sovetlər Birliyi dövründə kitabxana işi nisbətən sürətli və eyni zamanda ekstensiv inkişaf etmişdi. Lakin kitabxana işi qanunvericiliyi lazımi səviyyədə inkişaf etməmişdi. Sovetlər dövründə kitabxana işinə dair bir neçə partiya qərarı, qanunverici orqan tərəfindən isə cəmi iki dəfə - 1934-cü ildə SSRİ Mərkəzi İcraiyyə Komitəsinin SSRİ-də kitabxana işi haqqında qərarı (9) və 50 il sonra - 1984-cü ildə SSRİ Ali Sovetinin "Kitabxana işi haqqında əsasnamə"si qəbul edilmişdir (12).

Təbii ki, o dövrün dövlət qanunlarına uyğun olaraq qəbul olunmuş qərar və qanunlar müttəfiq respublikaların, o cümlədən Azərbaycan Respublikasının yerli partiya və dövlət orqanları tərəfindən eyni adda və eyni məzmunda formal şəkildə qəbul edilirdi.

Ona görə də Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdiyi dövrə qədər (18 oktyabr 1991-ci il) bütün sahələrdə olduğu *kimi, kitabxana işi sahəsində də lazımi qanunları müstəqil şəkildə*

qəbul edə bilməmişdir. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunana qədər respublikada kitabxana işinin təşkili və fəaliyyəti sovet hakimiyyəti illərində qəbul olunmuş qərar və qanunlara əsaslanmışdır.

Artıq Azərbaycan Respublikası suveren dövlət kimi azad və demokratik inkişaf yolu seçdikdən sonra bütün sahələrdə olduğu kimi kitabxana işi sahəsində də sovet qanunları əsasında inkişaf edə bilməzdi. Ona görə də bir çox müttəfiq respublikalarla müqayisədə xeyli gec olsa da, 12 mart 1999-cu ildə "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının ilk milli qanunu qüvvəyə mindi (5).

Bu qanuna qədər və ondan sonrakı dövrlərdə kitabxana işinə və kitabxanalara aidiyyəti olan bir sıra qanunlar respublikanın qanunverici orqanı tərəfindən qəbul edilsə də, qanunlarda "Təhsil haqqında", (1992), "Mədəniyyət haqqında", (1998), "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" (1998), "Kütləvi informasiya vasitələri haqqında" (2000) və s.) kitabxana işinin və kitabxana fəaliyyətinin çox məhdud məsələləri əks olunmuş, əsasən onların cəmiyyətdə yeri, rolu, vəzifələri qanunla təsdiqlənirdi. "Kitabxana işi haqqında" Qanun isə Azərbaycanda kitabxana işinin əsas hüquqi bazasını təşkil edən mühüm dövlət sənədidir. Onun müəyyən etdiyi bütün prinsiplər və qaydalar Azərbaycanda kitabxana işinin, mədəniyyətin, informasiya infrastrukturunun və təhsilin tərkib hissəsi kimi inkişafına hüquqi baza yaradır. Bu qanunda kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsipləri, kitabxana işinin və kitabxana sisteminin ümumi əsasları, kitabxanalardan istifadə sahəsində vətəndaşların hüquq və vəzifələri, kitabxana işi sahəsində beynəlxalq əməkdaşlıq prinsipləri və s. müəyyən edilir.

Dünya ölkələrinin, xüsusilə sovet məkanında yaranmış müstəqil dövlətlərin qəbul etdikləri müvafiq qanunlarla müqayisədə Azərbaycanda qəbul olunmuş qanun bir sıra qüsurlara malik olmasına baxmayaraq, onun qəbul olunması faktının özü müsbət hal kimi qiymətləndirilməlidir.

Qanunda kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsipləri ölkədə kitabxana işinin demokratikləşdirilməsinə, kitabxanaların və orada mühafizə edilən intellektual mülkiyyətin və sərvətin toxunulmazlığına, kitabxanaların inkişaf perspektivlərinə əsaslı təminat yaradır.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanununda ölkənin sosial sferasının mühüm bir sahəsi kimi kitabxana işinin və



kitabxana fəaliyyətinin bütün sahələri əsasən əhatə edilmişdir. Bu da sivil ölkələrdə olduğu kimi, Azərbaycanda kitabxana işinin geniş və demokratik hüquqi bazaya malik, sosial institut kimi inkişafına təminat yaradır.

Kitabxana işi haqqında qanun 6 fəsil və 34 maddədən ibarətdir.

Hər bir fəsil kitabxana işinin və kitabxana fəaliyyətinin ən mühüm sahələrini müvafiq maddələrlə əks etdirir.

Bu qanun bir sıra orijinal cəhətləri və yenilikləri ilə fərqlənir və bəzi məqamlarda dünya kitabxana işi qanunvericiliyini qabaqlamışdır. Belə ki, onlardan fərqli olaraq, bu qanunda kitabxanalar ilk növbədə elmi idarələr kimi qiymətləndirilmişdir.

Qanunun "Əsas anlayışlar" adlanan 1-ci maddəsində deyilir: "Kitabxana – elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur" (5).

Demək olar ki, dünya kitabxana işi qanunvericiliyində ilk dəfə olaraq (hələ ki, bizə başqası məlum deyilidir) kitabxanaların elmi funksiyası Azərbaycan Respublikasının "Kitabxana işi haqqında" Qanununda öz əksini tapmışdır. İlk baxışda bu yenilik xeyirxah olub, əslində kitabxanaların nüfuzunun bir az da yüksəlməsinə xidmət edir. Lakin digər fəaliyyət sahələrinə, idarə və müəssisələrə birbaşa aidiyyatı olan funksiyaların kitabxanalara da şamil edilməsi faktının cəmiyyətdə kitabxanaların nüfuzunun qaldırılmasına xidmət edəcəyi fikirləri ilə tam razılaşmaq çətindir.

Kitabxanaların elmi funksiyasına ilk dəfə bilavasitə "Kitabxana işi haqqında" qanunu MM-də hazırlayan işçi qrupunun rəhbəri, BDU-nun kitabxanaşünaslıq kafedrasının müdiri, professor A.A.Xələfovun kitabxanaların sosial funksiyalarına həsr olunmuş geniş həcmli elmi məqaləsində toxunulmuş və məsələnin elmi-təcrübi cəhətdən əsaslandırılmasına təşəbbüs göstərilmişdir (8). Məsələyə müəyyən qədər aydınlıq gətirilsə də, onu tam elmi şəkildə həll olunmuş bir məsələ kimi qəbul etmək tezdir. Belə ki, bu sahədə digər görkəmli elm adamlarının və mütəxəssislərin əsaslandırılmış elmi fikirlərinə və izahlarına, baxışlarına və təkliflərinə ehtiyac vardır.

Qeyd etmək lazımdır ki, kitabxanaların sosial funksiyaları ilə bağlı müxtəlif fikirlər və baxışlar ixtisas ədəbiyyatında, dövri nəşrlərdə daim mövcud olmuşdur və bunu hazırda da həll olunmuş problem

hesab etmək olmaz (15). Ona görə də dünyanın müxtəlif ölkələrində kitabxana işinə dair qəbul olunmuş qanunlarda kitabxanaların sosial funksiyalarının müəyyən fərqləri olsa da, elmi funksiyaya təsadüf edilmir. Lakin kitabxana işinə dair qanunların ümumi uyğun gələn cəhətləri daha çoxdur ki, bu da onun daha obyektiv və ümumi qanunauyğunluğunu təsdiqləyir.

Məsələn, Azərbaycanda kitabxana işi haqqında qanunda kitabxanaların beş əsas sosial funksiyası qeyd edilmişdir ki, ondan üçü - informasiya, mədəniyyət, təhsil funksiyaları dünyanın bir çox ölkələrinin kitabxana işi haqqında qanunlarında əks olunmuşdur.

Kitabxana işi və kitabxana qanunçuluğunun nisbətən inkişaf etdiyi şimal qonşumuz Rusiya Federasiyasının "Kitabxana işi haqqında" Qanununda 1994-cü il kitabxanaların üç əsas funksiyası (informasiya, mədəniyyət və təhsil) qanunla təsbit olunmuş və 1999-cu ildə qanunda əlavə və dəyişikliklər edilərkən ona (досуговые функция) asudə vaxtın təşkili funksiyası da əlavə edilmişdir (13). Beləliklə, RF-in qanununda kitabxanaların dörd funksiyası göstərilmişdir.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda kitabxanaların elmi funksiyasının təsbit olunması heç də kitabxanaların işinə və fəaliyyətinə maneçilik yaratmır. Lakin həmin qanunun 2-ci fəslinin 11-ci maddəsi haqqında bu fikirləri söyləmək mümkün deyildir. Belə ki, bu maddəyə görə Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün kitabxanalar tipindən və tabeçiliyindən asılı olmayaraq özəlləşdirilə və icarəyə verilə bilər. Hər hansı digər bir ölkənin belə bir maddəsi olan kitabxana işi haqqında qanunu mütəxəssislərə məlum deyildir. Belə bir maddənin mühüm bir dövlət qanununda əks olunması təkcə qanunu nüfuzdan salmır, eyni zamanda qanunun ayrı-ayrı maddələri ilə və bu qanuna qədər qəbul olunmuş digər qanunlarla da ciddi ziddiyyət təşkil edir. Belə ki, kitabxanaların özəlləşdirilməsi və icarəyə verilməsi haqqında olan 11-ci maddə Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət proqramının 1 saylı əlavəsinin (Özəlləşdirilməsi qadağan olunan müəssisə və obyektlər) 3-cü bəndini, "Mədəniyyət haqqında" qanunun 31-ci maddəsini "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunun 6-cı və 9-cu maddələrini (3) pozmuşdur.

Əlbəttə, qanunda belə antikonstitusion maddənin verilməsi geniş kitabxana ictimaiyyətini narahat etmişdir. Onun düzəldilməsi haqqında MM-də bir qrup millət vəkili tərəfindən məsələ qaldırılmış və respublika prokurorluğuna müraciət edilmişdir. Bütün bu və digər etirazlar nəticəsiz qalsa da, həmin maddənin reallaşdırılmasına cəhdlər də hələ ki, səmərəsiz olmuşdur. Şübhə yoxdur ki, cəmiyyətdə gedən demokratikləşdirmə prosesi dərinləşib, inkişaf etdikcə və milli maddi, mədəni sərvətə dövlətin qayğısı artdıqca cəmiyyətdə kitabxana işi layiqli qiymətini alacaq və qanunda olan 11-ci maddə kimi nöqsanlar da qanunverici orqanın özü tərəfindən düzəldiləcəkdir.



"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu təkcə özünün bəzi qüsurları ilə deyil, müsbət tərəfləri və keyfiyyətləri ilə də fərqlənir. Çox müsbət hal kimi qeyd edilməlidir ki, sovet məkanında qəbul edilmiş müvafiq qanunlar arasında yalnız ilk dəfə Azərbaycanda Milli Kitabxana ilə yanaşı respublika əhəmiyyətli elmi-sahəvi kitabxanaların və icra hakimiyyəti orqanları kitabxanalarının məcburi nüsxələrlə təmin olunması hüquqi qanunla təsbit olunmuşdur. Bu, qanunun "Kitabxanaların pulsuz məcburi nüsxələrlə təchizatı" adlanan 15-ci maddəsidir. Bu maddədə deyilir: "Milli kitabxana, qanunvericilik və müvafiq icra hakimiyyəti orqanlarının kitabxanaları, respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar və Bakı Dövlət Universitetinin kitabxanası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş qaydada ölkədə nəşr edilən çap məcburi nüsxələrini almaq hüququna malikdir" (5).

Qanunun bu maddəsi təkcə ölkənin milli kitabxanasına deyil, respublikanın parlament kitabxanasına, Prezident Aparatı idarəsinin, Nazirlər Kabinetinin kitabxanalarına, respublika əhəmiyyətli elmi-sahəvi mərkəzi kitabxanalara (Respublika Elmi-Texniki Kitabxanası, Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası, Respublika Elmi- Tibb Kitabxanası, Respublika Elmi-Pedaqoji Kitabxanası və b.) pulsuz məcburi nüsxələr almaq hüququ verir. Bu da həmin kitabxanaların fondunun vətən ədəbiyyatı ilə dolğun komplektləşdirilməsinin sabit təchizat mənbəyidir. Qanunun bu maddəsi respublikada, tipindən və növündən asılı olmayaraq fəaliyyət göstərən bütün sahəvi mərkəzi kitabxanaları fondunun təkcə dolğunluğuna və zənginləşməsinə xidmət etmir, eyni zamanda bu kitabxanaların xidmət etdiyi müxtəlif qrup, oxucuların informasiya təminatını gücləndirir. Bu da kitabxanaların ən mühüm sosial funksiyalarından biri olan informasiya funksiyasının tam və dolğun ödənilməsi üçün əsaslı təminat yaradır. Digər tərəfdən, bu kitabxanaların fondlarının komplektləşdirilməsi üçün dövlət tərəfindən ayrılan vəsaitin kifayət qədər olmadığı bir dövrdə, kitabxana fondlarının yeni ədəbiyyatla müntəzəm şəkildə komplekt-

ləşdirilməsinin etibarlı təchizat mənbəyidir. Ümumən qeyd edilməlidir ki, "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu və digər əlaqədar qanunlar ölkədə kitabxana işi təşkilinin əsas hüquqi bazasını formalaşdırmışdır. Lakin onun təkmilləşdirilməsi və daha da inkişaf etdirilməsi zəruridir. Faktlar və təcrübə göstərir ki, təkcə qanunların qəbulu hələ bütün məsələləri həll etmir.

"Kitabxana işi haqqında" Azərbycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası prezidentinin 12 mart 1999-cu il tarixli fərmanı verilmişdir. Bu fərmana görə respublika Nazirlər Kabinetinə tapşırılmışdır ki, iki ay müddətində bu qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qüvvədə olan qanunvericilik aktlarının bu qanuna uyğunlaşdırılması barədə təkliflərin, onun tətbiqi ilə bağlı müvafiq normativ-hüquqi aktların hazırlanması, təsdiqi və b. məsələlər həll edilsin və Azərbaycan Respublikasının prezidentinə təqdim edilsin (5). Artıq bu fərmandan iki il yarımdan çox vaxt keçir, lakin orada tələb olunanların həyata keçirilməsi barədə görülən işlər haqqında nəinki geniş kitabxana ictimaiyyətinin, heç mütəxəssislərin də məlumatı yoxdur. Belə ki, bunun əsas səbəbi "Kitabxana işi haqqında" Qanunun tətbiqi ilə bağlı müvafiq normativ-hüquqi aktların işlənib hazırlanmasını və təsdiqini təmin etməli olan Azərbaycan Respublikasının Nazirlər Kabineti, Mədəniyyət Nazirliyi və digər kitabxana şəbəkələri olan dövlət icra orqanları və onların müvafiq bölmələri respublika prezidentinin fərmanını yerinə yetirməmişlər. Məhz ona görə də Azərbaycanda "Kitabxana işi haqqında" Qanunun qəbul olunmasından iki il yarımdan çox vaxt keçsə də onun praktik işdə tətbiqinə başlanılmamışdır. Belə ki, qanunda nəzərdə tutulan kitabxanalara dövlət qayğısı və onların üstün maliyyələşdirilməsi;

- Kitabxana işi inkişafına dair dövlət proqramının hazırlanması və həyata keçirilməsi;
- Dövlət kitabxana binalarının tikilməsi, əsaslı təmiri, kitabxanaların müasir avadanlıqla və texniki vasitələrlə təchiz edilməsi;
- Kitabxana işinə dair elmi-tədqiqatların və metodik tədbirlərin həyata keçirilməsinə köməklik göstərilməsi;
- Kitabxana işinə dair dövlət standartlarının müəyyən olunması;
- Kitabxana fondlarının statistik uçotunun aparılması;
- Kitabxanaların pulsuz məcburi nüsxələrlə təchizatı;
- Kitabxana işçilərinin sosial müdafiəsi və digər qanunla müəyyən olunmuş çox mühüm maddələrin reallaşdırılması üçün adları



qeyd edilən icra hakimiyyəti orqanları bu günə qədər heç bir əməli iş görməmişlər.

Bu istiqamətdə aparılan işlərin durumu və perspektivi barədə kitabxana işçilərinin və mütəxəssislərin səhih məlumatı yoxdur. Ona görə də qeyd edilməlidir ki, kitabxana işi qanunçuluğu Azərbaycanda özünün ilkin inkişaf mərhələsindədir. Onun praktik işdə tam şəkildə tətbiqi və normal fəaliyyəti üçün ilk növbədə işlək mexanizm yaradılmalıdır. Azərbaycan Respublikasında kitabxana işi təşkilinin hüquqi bazasını təmin etməli olan mövcud qanunlar nə vaxta qədər ki, müvafiq normativ aktlarla təmin edilməmişdir və onlar təcrübi işdə reallaşdırılmamışdır, respublikada kitabxana işi təşkilinin hüquqi bazasının tam şəkildə formalaşdığını demək çətindir.

## *ƏDƏBİYYAT*

### *Azərbaycan dilində:*


*1. Azərbaycan Respublikasının Konstitusiyası. – B. 1995.*

*2. Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı// Azərbaycan. - 1995. - 21 noyabr.*

*3. İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu //Azərbaycan Respublikasının qanunvericilik toplusu. – 1998, S.1214-1216.*

*4. Kazımov R. Müasir dövrdə Azərbaycanda kitabxana işinin demokratikləşdirilməsi məsələləri //Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri və təcrübi jurnal Bakı.: BDU, –1997. - №1. - S.74-81.*

*5. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu //Azərbaycan. 1999. - 14 mart.*

*6. Konstitusiya //ASE. S. 5. - B. 1981. S.493.*

*7. Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu //Ədəbiyyat qəzeti. – 1998. - 24 aprel.*

*8. Xələfov A. Müasir kitabxanaların sosial funksiyaları //Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi nəzəri və təcrübi jurnal B.: BDU, 1999. - №2. - S.3-32.*


### ***Rus dilində:***


*9.Абрамов К.И. История библиотечного дела в СССР. М.: Книга, 1980, С. 223-225.*

*10. Лихачев Д.С. Близорукость (интервью) //Литературная газета - №38. – 1989. - 20 сентября.*

*11. «О библиотечном деле»: Федеральный закон Российской Федерации //Науч.и техн. б-ки. 1995. - №6. - С.3-21.*

*12. Положение о библиотечном деле в СССР //Справочник библиотекаря. М.: Книга, 1985. - С.5-14.*

*13. Федеральный закон о внесении изменений и дополнений в Федеральный закон «О библиотечном деле» //Библиотека. – 1999. - №9. - С.6-7.*

*14. Шрайберг Я. Автоматизация как новое научное направление в библиотечно-информационной области. Десять главных принципов автоматизации //Науч.и техн. б-ки. – 2000. - №2. - С.5-11.*

*15. Столяров Ю. Что такое библиотека? (О ее сущности и исходных функциях) //Библиотековедение. - 1999.- №7-12. - С.20-33.*

**З.И.БАХШАЛИЕВ**

## *Правовая база организации библиотечного дела в Азербайджане*

**Резюме**

В статье дается короткая характеристика создавшегося положения вокруг законодательства по библиотечному делу в период после обретения Азербайджанской Республикой своей независимости.

Конституция Азербайджанской Республики, законы: «О культуре», «О библиотечном деле», «Информация информатизации и хранение информации», а также другие законы и их статьи указаны в статье, как основные законы, обеспечивающие правовую базу организации библиотечного дела в республике.

Особо отмечено, что несмотря на то, что закон «О библиотечном деле» имеет особую значимость, по сей день нет нормативных документов для его реализации и т.д.

*Sahib RZAYEV*
*filologiya elmləri namizədi, dosent*

# KİÇİK MƏKTƏBYAŞLI UŞAQLARIN MÜTALİƏ XÜSUSİYYƏTLƏRİ

Uşaq kitabxanalarında məktəbli oxucuların mütaliəsinə pedaqoji cəhətdən düzgün rəhbərlik etmək üçün onların hər bir yaş qrupunun psixoloji və mütaliə xüsusiyyətlərini bilmək vacibdir. Bu sahədə məşğul olan pedaqoqlar, psixoloqlar və kitabxanaşünaslar kiçik, orta və böyük məktəbyaşlı şagirdlərin mütaliə xüsusiyyətlərini ətraflı tədqiq edərək öyrənmişlər.

Uşaq kitabxanalarının oxucuları olan kiçik və orta məktəbyaşlı şagirdlərin özünəməxsus yaş və mütaliə xüsusiyyətləri mövcuddur.

Kiçik məktəbyaşı, şagirdlərin fiziki və əqli inkişafı üçün xarakterik olan müəyyən dövrü əhatə edib, təhsilləri üçün nəzərə alınmalı xüsusiyyətlərlə şərtlənir. Bu dövr uşaqların oxucu kimi inkişafının ən çətin dövrü hesab olunur. Birinci sinif şagirdinin mütaliə prosesində bütün zehni fəaliyyəti mətni mənimsəməkdə ortaya çıxan çətinlikləri aradan qaldırmağa yönəlir. "Dinləyicilikdən" oxucuya çevrilmək mərhələsi məktəblilərin bir sıra müsbət oxuculuq keyfiyyətlərinin sıradan çıxmasına səbəb olur. Bu yaşlı məktəblilər hələ oxu texnikasına və vərdişinə yiyələnmədikləri üçün mütaliə prosesində baş verən çətinliklər onların kitaba olan səmimi münasibətlərini və emosional reaksiyalarını söndürür.

Həmçinin uşaqlardakı bu cəhət oxunan mətnin düzgün qavranılmasına və dərk edilməsinə maneçilik törədir. Ona görə də bu yaşlı məktəblilər hər hansı mətni bir dəfə oxuduqdan sonra onun haqqında aydın təsəvvür əldə edə bilmirlər. Lakin həmin mətni başqasının ifadəsində eşitdikdə, yəni dinləyici rolunda olarkən hər şeyi aydın dərk edirlər. Buradan aydın olur ki, uşaqlarda mətni çətin dərk etmək halı müvəqqəti xarakter daşıyır. Uşaqlar düzgün, şüurlu və sürətli oxu vərdişinə yiyələndikcə bu hal tədricən aradan qaldırılacaqdır.

Mütaliəyə yeni başlayan birinci sinif şagirdləri 2-3-cü sinif şagirdlərindən kifayət qədər fərqlənirlər. Lakin ədəbi əsərə münasibətlərdəki ümumi xüsusiyyətlərinə görə 7 və 8-9 yaşlı uşaqlar bir oxucu kimi məktəbyaşlı oxucuların uşaq oxucular tipi kimi izah olunur. Bu oxucu tipinin əsas xarakterik xüsusiyyətləri 8-9 yaşlı uşaqların mütaliəsinin fonunda daha aydın nəzərə çarpır. Çünki məhz bu dövrdə artıq sərbəst mütaliə etmək texnikasına müəyyən dərəcədə yiyələnmiş olurlar.

Kiçik məktəbyaşlılar adətən bədii kitabların oxucularıdır. Onların oxuculuq xüsusiyyəti məhz bədii əsərlərə münasibətdə və bədii əsərləri özlərinə məxsus şəkildə dərk etmək cəhətlərində aydınlaşır.

Altı-yeddi yaşlı uşaqlar hadisələri təsəvvürlərində canlandıraraq, xoşladıqları qəhrəmanın halına acıyır, onların müvəffəqiyyətlərinə ruhən sevinirlər. Uşaqlardakı bu cür halına acımaq qabiliyyəti sənət əsərlərinin mükəmməl dərk edilməsinin əsas əlamətlərindən hesab olunur. Kiçik məktəbyaşlıların ədəbi qəhrəmanların taleyinə acıması, kitabı dərk etməyin əsas stimulu hesab olunur. Bununla uşaqlarda kitabdakı hadisələrə və qəhrəmanlara şəxsi münasibətlər yaranır ki, bu xüsusiyyət yalnız kitabdakı hadisələri deyil, eyni zamanda hadisələrin məzmununu və məqsədini, həmçinin fəaliyyət prosesində adamların qarşılıqlı münasibətlərini də dərk etməyə kömək edir. Bununla da hala acımaq xüsusiyyəti insan hərəkətlərinə mənəvi qiymət verməkdə uşağa kömək edir. 6-7 yaşlı uşaqlar daxilən emosional cəhətdən obrazı yaşayırlar. Emosional cəhətdən bədii əsərlərdəki hadisələrin təsirindən çıxa bilmirlər. Məhz bu cəhət onların gerçəkliyi kifayət qədər dərk etmələri ilə əlaqədardır.

Yeddi yaşından başlayaraq öyrənmək uşaqların əsas fəaliyyətinə çevrilir. 8-9 yaşlı uşaqlarda məktəbin ikinci-üçüncü-dördüncü sinif şagirdlərində yeni ictimai əlaqələr, insanlara və hadisələrə yeni münasibətlər baş verir, ədəbi əsərə münasibətləri də dəyişir. Görkəmli psixoloq N.S.Leytes bu yaş dövründən bəhs edərək göstərir ki, bu "bilikləri əldə etməyin ilkin dövrüdür". Bu yaşda həqiqəti dərk etmək özünə məxsus şəkildə baş verir. Yəni bu hal biliklər toplamaq, öyrənmək, ətraf mühitdəki hadisələri, faktları yadda saxlamaq şəklində özünü göstərir. Bu yaşlı məktəblilərin idrakı sorğuları geniş olmaqla bərabər eyni zamanda səthidir və dəyişkəndir, qeyri sabitdir. Kiçik məktəbyaşlılar olduqca zehinli, yeniliyi dərk etməyə hazır və yeni qazandıqları bilik və məlumatlardan ləzzət almaq və yüksək dərəcədə sevinmək xüsusiyyətlərinə malikdirlər. Eyni zamanda onlar



qazandıqları bilik və məlumatlardan duyduqları sevinc hissini başqaları ilə bölüşdürməyə meyllidirlər. Uşaq şəxsiyyətinin əxlaqi, əqli və estetik cəhətdən zənginləşməsi ona məlum olan faktlar əsasında şəxsi təcrübəsinin zənginləşdirilməsi kimi baş verir. Kiçik məktəbyaşlı uşaqları öyrənmək sahəsindəki sosioloji tədqiqatlar təsdiq edir ki, 8-9 yaşlı uşaqlar ən çox onlara məlum olan faktlar və hadisələr haqqında konkret biliklər əldə etməyə çalışırlar. Belə ki, uşaqlar onları əhatə edən və tanış əşyaların, predmetlərin, heyvanlar və bitki aləminin yaranması və quruluşu haqqında məlumat əldə etməyə xüsusi maraq göstərirlər. Ona görə də "Bu nədir? Bu kimdir? Niyə belədir?" kimi suallarla böyüklərə tez-tez müraciət edirlər.

Kiçik məktəbyaşlılar yeni nə öyrənirsə, nə bilirsə, onu qəti qəbul edir və ona həqiqət kimi baxırlar.

Maddi varlığı, gerçəkliyi dərk etməyin bütün fəallığı, ətraf mühitlə uşağın əlaqəsi böyüklərin köməyi ilə həyata keçirilir.

Kiçik məktəb yaşlılarda hər bir oxucunun bədii ədəbiyyatı dərk edərkən əsaslandığı emosionallıq, təfəkkür və təxəyyül kimi psixoloji keyfiyyətlər inkişaf edir.

Məşhur psixoloq B.M.Teplov qeyd edir ki, uşaqların estetik idrakı həmişə emosional və səmimi olur. Bədii əsərlərə münasibətdə səmimiliyi, ürəkdən narahat olmaq hissini itirməklə insan həmin əsərlərə estetik münasibətini də itirmiş olur.

Kiçik məktəbyaşlılar sadəlövh realistlərdir. Bu cəhəti tərbiyəçilər də qorumalıdırlar.

Yüksək emosionallıq məktəbəqədər yaşlı uşaqların və kiçik məktəbyaşlıların uşaq şəxsiyyətini hər cəhətdən gözəlləşdirir. Bu yaşlı uşaqlarda mövcud olan təfəkkürün emosionallığı eyni zamanda yaddaşın emosionallığıdır. Bununla bərabər özünü dərketmənin və həqiqətə obyektiv münasibətin yaranmasından irəli gələn yeni həyat şəraitinin təsiri ilə bu yaşlı uşaqların emosionallığında inkişaf baş verir. Onlarda bu emosionallığın təzahürü daha aydın hiss olunur. Onlar emosional hisslərini gizlətməyi bacarmır, bu haqda heç fikirləşmir də. Belə ki, uşaqlar gülməli kitabı oxuyarkən, gülməli tamaşaya və filmə baxarkən bərkdən gülür və yaxud qəmli məzmuna malik kiatbları bəzən axıra qədər oxumaq istəmir, həm də təkrar oxumaq istəmirlər. Əksinə xoş əhval-ruhiyyə doğuran kitabları təkrar-təkrar oxumaqdan ləzzət alırlar. Kiçik məktəbyaşlılarda hər şeyə üstün gələn emosionallıq tədricən azalmağa başlayır. Bu dərketmənin özü çox vacib xüsusiyyətdir. Məhz bu cür dərketmə

məktəblilərin ədəbi əsərə daha düzgün və dərin münasibət bəsləməsinə imkan verir.

Kiçik məktəbyaşlıların təfəkkürü konkretliyi və obrazlılığı ilə fərqlənir. Onlar hər şeyi obrazlı şəkildə təsəvvüründə canlandırmaqla daha yaxşı dərk edir və yadda saxlayırlar. Məhz bu cəhətdən pedaqogikada, kitabxana işində əyanilik mühüm prinsiplərdəndir.

Tədris prosesində və müntəzəm mütaliə nəticəsində uşaqlarda obrazlı təfəkkürlə bərabər anlayışlarla düşünmək qabiliyyəti də inkişaf edir. Onlar oxuduqları kitabda konkret və fasiləsiz fəaliyyətdə olan obrazlara maraq göstərirlər. Onları nə təsvir, nə də mühakimələr deyil, yalnız hadisələr, sərgüzəştlər maraqlandırır. Rus pedaqogikasının atası sayılan K.D.Uşinski qeyd edir ki, "uşaq əsasən formalar, rənglər, səslər və duyğular vasitəsilə fikirləşir".

Görkəmli pedaqoq Vasili Aleksandroviç Suxomlinski Uşinskinin həmin fikrini özünün "Ürəyimi uşaqlara verirəm" (I-IV sinif şagirdləri üçündür) kitabında elmi əsaslarla bir qədər də geniş izah edərək göstərir ki, "uşaq fikirləşir" – bu o deməkdir ki, onun beyin yarımkürələri qabığının neyronlarının müəyyən qrupu ətraf aləmin obrazlarını, şəkillərini, sözlərini, hadisələrini qavrayır. Siqnallar ən incə sinir hüceyrələri vasitəsilə gedir.

Neyronların sinir enerjisinin belə heyrətediləcək sürətlə keçməsi məhz bizim fikir adlandırdığımız hadisədir. Uşaq beyninin hüceyrələri o qədər zərifdir, qavrayış obyektinə o qədər həssas reaksiya verir ki, qavrayış və dərketmə obyekti yalnız görülə bilən, eşidilə bilən obraz olduqda onlar normal işləyə bilər. Təfəkkürün mahiyyəti fikrin səmtini dəyişməsidir. Bu dəyişmə yalnız o zaman mümkündür ki, uşağın qarşısında ya əyani, real obraz olsun, ya da o qədər parlaq yaradılmış sözlü obraz olsun ki, uşaq haqqında danışılanı sanki görmüş, eşitmiş, hiss etmiş olsun. (Nağılı ona görə çox sevirlər).

Kiçik məktəbyaşli şagirdlər üçün anlayışlarla təsəvvür etməyi bacarmağı tələb edən kitabları oxumaq hələ tezdir. Bu yaşlı uşaqların obrazlı təfəkküründə müşahidə obrazları daha üstündür. Ona görə də bu cür obrazları psixoloji və pedaqoji ədəbiyyatda "əyani obrazlar" adlandırırlar. məhz bu xüsusiyyət kiçik yaşlı məktəblilərdə şəkilli kitablara xüsusi maraq doğurur və onlar oxuduqları və dinlədikləri kitablara aid şəkillər çəkməyə həvəs göstərirlər.

Kiçik məktəbyaşlıların əqli fəaliyyətində xəyali obrazlar da böyük yer tutur. Onlarda yaranan yaxşı təsəvvürlə bərabər ətraf mühit haqqında dəqiq və aydın olmayan təsəvvürlər də özünü göstərir. Bu



cür aydın olmayan təsəvvürlər əsasında özlərindən uydurmağa, xəyali obrazlar yaratmağa meyl edirlər. Kiçik oxucuların fantastik əsərlərə maraq göstərmələrinin səbəbləri də bununla izah olunur. Tədris prosesində onlar tədricən əqli təfəkkürə yiyələnirlər. Bununla da oxuduqlarını təhlil etməyə və ümumiləşdirməyə qadir olurlar. Onlarda təsəvvür də güclənir. Bu təsəvvür isə emosional xarakter daşıyır. Onların ümumiləşdirilməsi zahiri əlamətlər, hissi və əyanilik cəhətdən üstünlük təşkil edir. Yəni hadisələrin konkret nəticələri haqqında fikir yürüdürlər.

Kiçik məktəbyaşlıların həyat təcrübəsi məhdud olduğu üçün təsəvvür dairələri də geniş deyildir. Lakin emosionallıq uşağın təsəvvürünə mühüm təsir göstərir və onun təsəvvürünün güclü və yaxud zəif olmasını müəyyənləşdirir. Bir cəhət də vardır ki, emosionallıq, uşaq təsəvvürünün canlılığı bədii obrazı daha düzgün dərk etməyə kömək edir.

Məktəblilər həyat təcrübəsi qazandıqca həqiqi gerçəklik haqqında təsəvvürləri də dəqiqləşir. Məsələn, onlarda nağıllara maraq qalır, lakin nağıl qəhrəmanlarının həqiqi mövcudluğuna artıq şübhə əmələ gəlir.

Kiçik məktəbyaşlıların mühüm psixoloji xüsusiyyətlərindən və kitaba münasibətlərini gözəlləşdirən cəhətlərindən biri də onların qavrayışlarının və təəssüratlarının kəskin olmasıdır. Bu yaşda oxunan təsirli kitabların tərbiyəvi və emosional izi bəzən insanın bütün həyatı boyu yadından çıxmır.

Görkəmli pedaqoq H.G.Krupskaya kiçik məktəbyaşlıların məhz bu cəhətini yəni, uşaqların bu yaşda oxuduqlarının uzun müddət yaddaşlarında həkk olunduğunu, tərbiyələrində mühüm rol oynadığını nəzərə alaraq göstərirdi ki, kiçik məktəbyaşlıların mütaliəsinə düzgün rəhbərlik kitabxana işçilərinin mühüm vəzifəsi olmalıdır.

Kiçik məktəbyaşlıların qavrayışlarının belə aydınlığı onların ayrı-ayrı sözlərə və ifadələrə olan xüsusi münasibətləri ilə əlaqədardır. Onlar sözün ən çox hərfi mənasına diqqət yetirir, ona birbaşa məna verirlər, yalnız müstəqim mənada düşünürlər. Məsələn, "başqasının qəlbini sındırmaq pis xasiyyətdir", "mağaza müdiri müfəttişi görəndə gözü kəlləsinə çıxdı" cümlələrini eşidəndə bunu müstəqim mənada düşünürlər. Görkəmli şair Samvel Yakovleviç Marşak uşaqların bu cəhətinə xüsusi qiymət verir. O, kiçik məktəbyaşlıların sözə, ifadəyə olan həssas münasibətlərini qiymətləndirərək göstərir ki, "hər bir sözün gücünü hiss etmədən Puşkin şerinin bütün gözəlliyini və

mahiyyətini həqiqi mənada dərk etmək mümkün deyildir. Məhz bu cür oxucular üçün kitab yazan müəllif sevinc hissi keçirir".

Dördüncü sinif şagirdləri ədəbi əsərə münasibətdə 6-7 yaşlı uşaqlara nisbətən yeni mövqe tuturlar. Onlar artıq bədii əsərlərdəki hadisələrin və obrazların fövqündə durmaq, hadisələrə və qəhrəmanlara əsərin daxilində deyil, kənardan müşahidə etmək imkanı əldə edirlər. Ona görə də bu yaşlı uşaqlar təsvir olunan hadisələrə daha dərindən qiymət vermək imkanına malik olurlar.

Kiçik məktəbyaşlılar qeyri-ixtiyari diqqətləri ixtiyari diqqətlərinə üstün gəlir. Onlar öz diqqətlərini uzun müddət bir fikir, bir mətnin üzərində cəmləyə bilmirlər. Onların bu xüsusiyyəti də tədris və mütaliə prosesində get-gedə dəyişir, ixtiyari diqqət formalaşır, möhkəmlənir.

Kiçik məktəbyaşlıların oxuduqları kitablarda hərfi yadda saxlamaya daha çox meyl edirlər. Onlar oxuduqları kitablarda əsas fikri tuta bilmədiklərindən və söz ehtiyatları məhdud olduğu üçün kitabın məzmununu kitabda olduğu kimi danışmağa çalışırlar. Nəhayət tədris prosesində və ardıcıl mütaliə nəticəsində tədricən bu cəşətlər qaydaya düşür. Xüsusi ilə 4-cü və 5-ci siniflərdən başlayaraq belə halların əvəzinə uşaqlar hər bir hekayəni və yaxud süjetli şeri öz sözlərilə nəql etmək imkanı əldə edirlər.

Kiçik məktəbyaşlılar oxuduqlarına öz münasibətlərini ifadə edə bilmirlər. Oxuduqlarına münasibətləri yalnız zahiri emosional reaksiyalarında üzə çıxır. Oxuduqları kitabçalardakı gözəllik, çirkinlik, komiklik, faciəvilik, gülməli və qorxulu hallar diqqətlərini cəlb edir və onları həyacanlandırır. Bu cür çoxsahəli həyəcanlara münasibətlərini yalnız "xoşuma gəlir" sözü ilə ifadə edirlər. Başqa oxucu tipindən fərqli olaraq kiçik məktəbyaşlıların "xoşuma gəlir" ifadəsi oxuduqları kitablara olan dərin və güclü emosional münasibətlərini əks etdirir.

Kiçik məktəbyaşlılar hansı bir əsərin janrından və yazıçı manerasından asılı olmayaraq onda müəyyən estetik keyfiyyətlər tapırlar. Bu keyfiyyətlər əsasən gözəllik, qəhrəmanlıq, komiklik və şən əhvalruhiyyədən ibarətdir. Bu cəhətlərə münasibət uşaqlarda daimi xarakter daşıyır və bədii münasibətləri bu keyfiyyətlərdən asılı olur.

Uşaq oxucuları bədii əsərdə ən çox maraqlandıran və həyəcanlandıran cəhət burada tez-tez dəyişən hərəkətlər, hadisələr, bu hadisələrdəki məqsəd aydınlığı və hadisələrin qeyri-adiliyidir. Uşaqlar onlara tanış faktlardan, yaranan qeyri-adi hadisələrdən, gözəlliklərdən daha çox poetik ləzzət alırlar. Daha dəqiq desək uşaqlar tanış hadisələr, faktlar axınında qəribəliklərlə rastlaşanda və qəribə hadisə içərisində tanış faktlar görəndə xüsusi ləzzət alırlar. Kitabxanaçılar və başqa tərbiyəçilər məhz uşaqların bu cəhətlərini daim inkişaf etdirməyə çalışmalıdırlar.

Əlbəttə, bu cəhətlərin əsası təbiətdə yaranır. Uşaq bu keyfiyyətlərə təbiətdə əldə etdiyi tanışlığı əsasında nail olur. Ona görə də uşaqlar təbiətin qoynunda çox olmalı, təbiət hadisələrinə və predmetlərinə aid çox oxumalıdırlar. Konstantin Dmitriyeviç Uşinski uşaq mütaliəsinin iki tərəfi – məntiqi və estetik tərəfindən danışarkən, göstərirdi ki, məntiqi mütaliə üçün ən çox təbiətə aid hekayələr oxudulmalıdır. Çünki ən böyük məntiq təbiətdədir.

Uşağın təbiətdən əldə etdiyi məlumatlar hər hansı əsəri oxuyarkən ondan ləzzət almaqda və mahiyyətini başa düşməkdə ona kömək edir.

Uşaq oxucuların oxuduqları *kitablara qiymət vermək meyarları* da özünəməxsusdur. Onlar həqiqətin, xeyirxahlığın və düzlüyün qələbəsini təsvir edən əsərlərdən xüsusi ləzzət alır və təsirlənirlər. Onlar həmişə əsərin uğurlu sonluğunu yüksək qiymətləndirirlər. "Şəngülüm" hekayəsində keçinin qələbəsi, "Cırtdan" nağılında Cırtdanın divi aldadıb məhv etməsi, Tolstoyun "Yanğın iti" hekayəsində itin uşağı və kuklasını xilas etməsi onlarda nə qədər ruh yüksəkliyi yaradır. Lakin S.Ə.Şirvaninin "Aslan və iki öküz" təmsilində şirin öküzləri aldadıb onları parçalaması onları məyus edir. Çünki fırıldaqçı qələbə çalır.

Uşaq oxucuların oxuduqlarını qiymətləndirmək meyarlarından biri də "gülməlidir" ifadəsidir. Əvvəldə dediyimiz kimi onlar əsərdəki gülməli yerlərə olduqca ürəkdən gülürlər. Həm psixoloqlar, həm də kitabxanaşünaslar qeyd edirlər ki, gülüş uşaqların obyektiv varlığa, hadisələrə formalaşmış estetik münasibətlərinin təzahürüdür. Uşaqların gülüşündə oxuduqlarına emosional reaksiyanın müxtəlif təzahürünü görmək olur. Birinci cəhəti odur ki, uşaqlar oxuduqlarından alınan xoş təəssüratın təsirindən gülür, şənlənir, sevinc əlaməti olaraq dodaqlarında təbəssüm gəzir. Gülüşün ikinci cəhəti isə gülməli hadisələrə, komik vəziyyətlərə münasibətin təsiri ilə meydana çıxır. Uşaq oxucuların komik vəziyyətlərə gülüşü xüsusi ilə fərqlənir və ürəkdən gülürlər. Uşaqlar qəhrəmanların komik vəziyyətlərinə gülərkən komik vəziyyətin əsasən xarici əlamətlərinə isnad edirlər. Eyni zamanda onlar qəhrəmanın, obrazın əxlaqi nöqsanları ilə əlaqədar düşdükləri komik vəziyyətə və zahiri

simalarına daha bərkdən gülürlər. Məsələn, "Canavar və dovşan" macəralarına "Şir və dovşan" və "Tamahkar it"ə həsr edilmiş multiplikasiya filmində canavarın düşdüyü komik vəziyyətə (dovşanın şir qiyafəsində təsvirindən canavarın qorxması) və yaxud divin xəlbirlə su gətirmək cəhdi uşaqlarda yüksək tənqidi gülüş doğurur. Uşaqların bu cür gülüşünü boş, məzmunsuz, kitabın ideyasından təcrid olunmuş gülüş kimi qiymətləndirmək olmaz. Bu gülüşə obrazın hər bir hərəkətini qiymətləndirmək kimi baxmaq lazımdır. Çünki komik vəziyyətlərə yüksək həssas münasibət uşaqda əxlaqi qiymətləndirmə kimi ortaya çıxır. Çünki uşaqların gülüşü ya bəyənmək, ya da mühakimə etmək xarakteri daşıyır.

Bütün bunlarla bərabər uşaq oxucuların gülüşündə əsərin qəhrəmanına bir mehribanlıq, onun müvəffəqiyyətlərinə sevinmək, uğursuzluqlarına qəmlənmək hissi gizlənir ki, bütün bunları uşaqlar sözlə ifadə edə bilmirlər. Bununla belə bunlar estetik cəhətdən olduqca qiymətli cəhətlərdir.

Əsərdəki hadisələrdən bədii ləzzət alması uşağın kitabın ideya-bədii məzmununu dərk etməsi yolunu müəyyənləşdirir. Kiçik yaşlı oxucular bir qayda olaraq qeyri-ixtiyari halda kitabdakı konkret təfsilatları, detalları, mətindəki bəzi süjetləri, qəhrəmanın müxtəlif hərəkətlərini fərdiləşdirirlər. Məhz əsərdəki təfsilatlardan seçilən bu detallar, epizodlardan və hərəkətlərdən başlanan mühakimə əsərin bütövlükdə dərindən mənimsənilməsinə aparır. Uşaqlar qəhrəmanı qiymətləndirərkən ən çox onun hərəkətlərinə və davranışlarına isnad edirlər. Bu zaman uşaqlar fəaliyyətin, hərəkətin zahiri təzahürünə daha çox fikir verirlər, hadisələr və hərəkətlər arasındakı əlaqəyə diqqət yetirə bilmirlər. Bu işdə onlar böyüklərin köməyinə ehtiyac hiss edirlər.

Kiçik məktəbyaşlılar çox vaxt böyüklərdən soruşurlar ki, nə üçün "Günəş gündüzlər", "Ay isə gecələr işıq verir?". "Vəhşi heyvanlar qışda necə yaşayırlar?" və s. bu yaşda olan oxucular belə sualların cavabını kitablarda tapmağın mümkün olması haqqında təsəvvürə malik deyillər. Onlar həm evdə, həm məktəbdə kitabların oxunuşuna qulaq asır, həmin kitabların şəkillərinə baxırlar. Bunların nəticəsində onlarda emosional təsəvvürlər yaranır. Şagird yadında saxlayır ki, kitab oxunan zaman o necə həyacanlanırdı, pərt olurdu, gülürdü və s. məhz ona görə də özü sərbəst oxumaq üçün kitabxanaçıdan "maraqlı", "gülməli", "möcüzəli", yaxud "qorxulu" kitablar xahiş edir.

Kiçik məktəbyaşlılarda ümumi xarakterli olsa da, mövzu sorğuları olur. Məsələn, "Heyvanlar haqqında", "Uşaqlar haqqında", "Maşınlar haqqında" və s.

Kiçik məktəbyaşlılar sərbəst kitab seçərkən kitabların xarici görünüşünə böyük maraq göstərirlər. Geniş formatlı, rəngli kitablar onların diqqətini daha çox cəlb edir. onlar kitab seçərkən ailələrinin, sinif yoldaşlarının məsləhətinə qulaq asırlar. Onlar bu işdə kitabxanaçının tövsiyəsinə məmnuniyyətlə qulaq asırlar.

I-IV sinfin şagirdləri maraqla oxuduqları bir kitabı yenidən oxumağa çalışırlar. Çünki təkrar oxumaq, eyni zamanda oxuduqlarını daha sərbəst oxumaq onlara ləzzət verir. Onlar kitabın məzmunu ilə əlaqədar bir daha gülmək, yaxud qəhrəmanın taleyi üçün həyacanlanmaq istəyirlər. Bu cəhətdən məktəblilər adətən sonu qəhrəman üçün uğurlu qurtaran kitabları təkrarən oxumaq istəyirlər. Sevdikləri qəhrəmanların taleyinin uğursuzluğu onları bərk həyacanlandırır, narazı salır. Belə kitabları heç vaxt təkrar oxumaq istəmirlər. Kiçik məktəbyaşlılar alleqorik əsərləri, eyni zamanda əsərlərdəki eyhamları və məcazları hiss edə bilmirlər.

Birinci – ikinci sinif şagirdlərinin keçmiş həyat haqqında aydın təsəvvürləri olmur. Bu cəhətdən izahatlar da az kömək edir. Bu işdə yalnız kitabda verilmiş yaxşı şəkillər mühüm rol oynayır.

Bu yaşda olan məktəblilər oxuduqlarına münasibətlərini bildirərkən, kitab "xoşuma gəldi", yaxud "xoşuma gəlmədi" deyirlər. Qəhrəmana, obrazlara münasibətdə isə "pisdir", yaxud "yaxşıdır" deyə qiymətləndirirlər. Məsələn, Müşfiqin "Şəngül, Şüngül, Məngül" mənzum nağılını oxuyarkən "Qurd pisdir", "Keçi yaxşıdır" – deyirlər...

Üçüncü – dördüncü sinif şagirdləri bir çox cəhətdən özündən kiçik həmqruplarından fərqlənirlər ki, mütaliəyə rəhbərlik işində həmin cəhətlər nəzərə alınmalıdır. Artıq bu yaşda şagirdlər oxuduqları haqqında fikirləşməyə başlayırlar. Onlarda dinləməyə nisbətən özləri oxumağa maraq üstünlük təşkil edir, eyni zamanda nağıllarla bərabər, artıq hekayə oxumağa da həvəs göstərirlər. Bu şagirdləri kitabdakı qəhrəmanların taleyi daha çox maraqlandırır. Onlar həmin qəhrəmanların əsas hərəkətləri ilə maraqlanır, onların psixoloji xarakteri haqqında düşünmürlər. Əsərdəki obrazları qiymətləndirmək cəhətdən üçüncü-dördüncü sinif şagirdləri kiçik yoldaşlarından fərqlənirlər. Onlar, "yaxşıdır" əvəzinə, "cəsurdur", "qorxmazdır", "xeyirxahdır", "düzgünlüyü sevir", "pisdir", əvəzinə "hiyləgərdir", "yalançıdır",

"tamahkardır", "qorxaqdır" və s. kimi obrazın xarakterinə münasib sözlər işlədirlər.

Onların əsərin qəhrəmanlarına verdikləri qiymət və münasibət həmin əsərə münasibətləri ilə eynilik təşkil edir.

Kiçik yaşlı oxucunun kitabxanada tərbiyə olunması onun kitabxanaya qədəm basdığı ilk gündən başlanır. Oxumağı təzəcə öyrənmiş birinci sinif şagirdinin kitabxanaya üzv yazıldığı ilk gündən başlayaraq kitabxanaçı onun mütaliəsinin istiqamətvericisi vəzifəsini özünün müqəddəs borcu bilməlidir.

### *ƏDƏBİYYAT*


*1. Беленская Л.И. Ребенок и книга. М.: Книга, 1969. - С. 96.*

*2. Qədirov Ə.Ə. və Məmmədov İ.H. Yaş psixologiyası. – B.: Maarif, 1986.- S. 117.*

*3. Руководство чтением детей в библиотеке – М.: Книга, 1976. - С. 121.*

*4. Suxomlinski V.A. Ürəyimi uşaqlara verirəm.- B.: Maarif, 1979. - S. 95.*



***С.М.РЗАЕВ***


## *Особенности чтения детей младшего школьного возраста*

### Резюме


В статье обобщены характеристика читателей 7-9 лет. Как известно, дети младшего школьного возраста составляют чрезвычайно своеобразную категорию читателей. Автор показал, что социально-психологические особенности младших школьников определяет новый этап в развитии отношения к литературе.

*Mayıl HƏSƏNOV*
*tarix elmləri namizədi,*
*dosent*

# KİTABXANA FONDUNUN ÖYRƏNİLMƏSİ SİSTEMİ

Kitabxana fondunun öyrənilməsi çox mühüm, lakin mürəkkəb vəzifələrdən biridir. Təcrübə göstərir ki, kitabxanaçı kitabxana fondunun formalaşma sistemini dərk etmədən onun mahiyyəti haqqında tam təsəvvürə malik ola bilməz. Buna görə də kitabxana fondunun əsas mahiyyətini təhlil etmək üçün onun sistem kimi öyrənilməsini mənimsəmək lazımdır.

"Fond" yunan sözü olub "kitabsaxlayıcı" mənasında işlənmişdir. Bu mənada uzun müddət fonda kitabsaxlayıcı kimi baxmışlar. Daha doğrusu, bütün dünya xalqları "kitabxana" və "kitabxana fondu" anlayışlarını bir-birindən fərqləndirməmiş, onları eyni mənada vəhdət şəklində götürmüşlər.

Təcrübə göstərir ki, bütünlükdə kitabxana ilə fond arasında bərabərlik mövqeyində durmaq olmaz. Fond özlüyündə kitabxana fəaliyyətinin mühüm tərkib hissəsini (yarımsistemini) təşkil edir. Lakin *"kitabxana fondu" sözü yarımsistemə çevrilmişdir.* Əvvəllər "kitabxana fondu" termini əvəzinə "kitab kolleksiyası", "kitabxana bölməsi", "kitabların toplanma yeri", "kitab əmlakı" və s. sözlər işlənmişdir.

"Fond" sözü həqiqi mənada ölkəmizdə XX əsrin əvvəllərində meydana gəlmiş və "kitabxana" sistemində əsl yerini tuta bilmişdir.

Fondun öyrənilməsi sistemi onun formalaşmasına daha əhəmiyyətli təsir göstərir, komplektləşdirmənin əsas cəhətlərini səmərələşdirir, sənədlərin seçmə prosesini elmi cəhətdən əsaslandırır (1).

Öyrənmə sistemini iki qrupa ayırmaq olar:

a) *konkret kitabxana fondunun sistemdaxili öyrənilməsi;*

b) kitabxanalararası fondun sistem dairəsində öyrənilməsi.

Əgər birinci halda konkret kitabxanaya məxsus sənədlər sisteminin təhlili nəzərdə tutulursa, ikinci halda eyni tipli kitabxana fondla-

rının sistemarası öyrənilməsinə istinad edilir. Hər iki halda sənədlərin mövcudluğu əsas götürülür. Bu sənədlərin əhatəetmə əmsalına əsaslanır. Sənədlərin fondda əksetdirmə əmsalı sistemin inkişaf funksiyaları ilə bağlıdır. Bu da fondun "kitabxana" sistemində mövcud olan digər yarımsistemlərlə (hissələrlə) əlaqəli inkişafı tənzimləşdirməyə imkan vermişdir. Ümumiyyətlə, kitabxana fondunun kitabxananın *digər yarımsistemləri ilə yanaşı eyni səviyyədə nəzərdən keçirilməsi* həm kitabxana fəaliyyətinin təkmilləşdirilməsinə, həm də bütünlükdə iş proseslərinin səmərələşdirilməsinə mühüm təsir göstərir. Fikrimizin konkret ifadəsini Bakı şəhər kütləvi kitabxanalarının iş təcrübəsində müşahidə edə bilərik. Burada iki kütləvi kitabxananın fəaliyyətini nəzərdən keçirək. Belə ki, Bakı Şəhəri Mərkəzi Kitabxanasında fondun formalaşması, oxucu kontingentinin genişliyi, işçi heyətinin ixtisas zənginliyi, maddi-texniki bazanın artımı prosesində 1996-cı ildə fondun bütünlükdə mövzu etibarilə təkmilləşməsi 3000-də (2) yaxın olmuşdursa, M.Qorki adına Mərkəzi Şəhər Səyyar Kitabxanasında bu yarımsistemlərin əlaqələrinin nisbətən zəif təşkil edilməsi mövzu əhatəliyinə mənfi təsir göstərmiş və 1996-cı ildə həmin kitabxananın fondunda 2500 mövzuya dair sənəd əhatə edilmişdir (3).

Burada kitabxana fondunun formalaşması sistemini əsas götürmək lazımdır. Belə ki, fond kitabxananın bütün yarımsistemlərinə, bütövlükdə kitabxana işinə müsbət təsir göstərir, bütün yarımsistemlərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Kitabxana fondunda sənədlərin miqdarı və məzmunu bilavasitə oxucu kontingentinin sayını və tərkibini artırır və tənzimləşdirir. Lakin burada fondun formalaşması *optimallığı əsas götürülməlidir.*

Fond yarımsistem kimi kitabxananın işçi heyətinin fəaliyyəti ilə üzvi surətdə bağlıdır. Başqa sözlə, fondun formalaşması prosesi işçi heyətinin işgüzarlığı, bacarığı, peşə ixtisasının yüksək olması səviyyəsi ilə əlaqədardır. Deməli, burada fondun təkmilləşməsinin təmin edilməsi onun daxili zənginliyini artırır və onu oxucuların əsl mütaliə mənbəyinə çevirir. Burada hər şeydən əvvəl öyrənilən sistem həddinin müəyyənləşdirilməsi zəruridir. Məhz bunun əsasında fondun imkanları konkretləşdirilir, formalaşma məqsədi və vəzifələri dəqiqləşdirilir. Əgər öyrənmə sistemində konkret kitabxana fondu nəzərə alınırsa, sənədlərin seçmə prosesi daha sadə xarakter daşıyırsa, öyrənmə sistemi eyni tipli kitabxana fondlarını əhatə edirsə, buna geniş səpgili komplektləşdirmə tutumu deyilir.



Konkret olaraq bu prosesi bir neçə kitabxananın timsalında müşahidə etmək olar. Belə ki, M.Ə.Sabir adına Mərkəzi Şəhər Kitabxanası fondunun quruluşu Xətai rayonu MKS fondunun formalaşma sisteminə görə xeyli fərqli olacaqdır. M.Ə.Sabir adına Mərkəzi Şəhər Kitabxanasında fondun öyrənilməsi sadə xarakter daşıyırsa, konkret kitabxana dairəsində komplektləşdirilirsə və sənədlərin alınma *potensialı azdırsa, Xətai rayonu MKS-də* sənədlərin alınma və formalaşma optimallığı daha yüksək əmsala malikdir. Belə ki, 1995-ci ildə M.Ə.Sabir adına Mərkəzi Şəhər Kitabxanasında 524 nüsxə sənəd əldə edilmişdirsə (4), Xətai rayon MKS-də bu rəqəm 8397 nüsxəyə yüksəlmişdir (5). Buradan da məlum olur ki, Xətai rayon MKS-də vahid fondun komplektləşdirilməsi prosesi M.Ə.Sabir adına Mərkəzi Şəhər Kitabxanasının formalaşmasına görə daha yüksək səviyyədə durur. Bu da bilavasitə sistem kitabxanalarının zənginliyi ilə bağlıdır.

Fondun öyrənilməsi sistemi kitabxananın digər struktur ünsürləri ilə sıx surətdə əlaqədardır. Bu ünsürlərin struktur bölgüsünə kitabxananın yarımhissələri də deyilir. Burada yarım hissələrin bir neçə cəhətini nəzərə almaq lazımdır. Onları bu şəkildə qruplaşdırmaq olar:

a) kitabxana fondu;
b) oxucu kontingenti;
c) kitabxananın işçi heyəti;
ç) maddi-texniki baza.

Bu yarımsistemlər arasında sıx əlaqə, vəhdət və qarşılıqlı bağlılıq mövcuddur (6).

*Bütün kitabxana sistemlərindən fərqli olaraq kitabxana fondu* özlüyündə yarımsistem (hissə) kimi daha ümumi xarakter daşıyır. Fond birdən-birə yaranıb indiki səviyyəsinə çatmamışdır. O, təcridlə inkişaf etmiş, artmış, formalaşmış və əsl mənada öz həqiqi qiymətini ala bilmişdir. Onu da qeyd etmək lazımdır ki, heç bir kitabxana fondsuz mövcud ola və öz mühüm vəzifəsini yerinə yetirə bilməz.

Fondun yarımsistem kimi zənginləşməsində oxucu kontingenti də mühüm rol oynayır. Məlum olduğu kimi, fond müəyyən oxucu qrupları üçün nəzərə alınır və təşkil edilir (7). Məhz buna görə də bu yarımsistemlərin qarşılıqlı əlaqəsini həmişə komplektləşdirmə işində əsas götürmək lazımdır. Lakin fond ilə oxucu əlaqəsinin başlıca istiqamətverici qüvvəsi kitabxananın işçi heyəti hesab olunur. Kitabxanaçı həm oxucuların ümumi sorğu istiqamətlərini, həm də fondun formalaşma sistemini, profilini seçmə dolğunluğunu, müntəzəm

komplektləşdirmə istiqamətini nəzərə alır və fond-oxucu əlaqələrinin tənzimləşdirilməsi səmərəliliyini həyata keçirir. Məhz buna görə də kitabxananın işçi heyəti fondun formalaşma sistemini elə qurmalıdır ki, oxucu tələbatı hərtərəfli ödənilmiş olsun.

Bununla belə qeyd etmək lazımdır ki, bir yarımsistem kimi kitabxananın maddi-texniki bazasını yaratmadan fondun formalaşmasını təmin etmək qeyri-mümkündür.

Kitabxananın maddi-texniki bazasını bir yarımsistem kimi iki yerə ayırmaq olar:

a) maliyyə vəsaitinin mövcudluğu;

b) maddi-texniki şəraitin (kitabxana avadanlığı) təşkil edilməsi.

Bu cəhətlər qarşılıqlı surətdə bir-birini tamamlayır (8). Belə ki, əgər maliyyə vəsaiti sənədlərin alınmasını təmin edirsə, maddi-texniki şərait sənədlərin kitabxanada yerləşdirilməsi problemini həll edir. Deməli, kitabxananın bütün yarım sistemləri bir-biri ilə üzvi surətdə bağlı olub, fondun tərkibcə tənzimlənməsinə mühüm təsir göstərir.

*İstər oxucu kontingenti, istər kitabxana işçi heyəti, istərsə də* maddi-texniki baza fondun tərkibcə yaradılmasının əsas hissəsini təşkil edir və onun zənginliyini yaradır. Burada sənədlərin kom*plektləşdirmə potensialı mühüm rol oynayır.* Sənədlər kitabxanaya daxil olduğu vaxtdan fonda çevrilir və xidmət işinin əsas bazasını təşkil edir (9). Tək-tək sənədləri fond hesab etmək olmaz. Fond yalnız o vaxt fond hesab oluna bilər ki, külli miqdarda sənədləri əhatə edə bilsin.

Sənədlərin özü də müxtəlif növlərə ayrılır:

a) dövri nəşrlər (jurnallar, qəzetlər, nəşri davam edən məcmuələr);

b) kitab və kitabçalar;

c) kinofotofono sənədlər (audiovizual materiallar və s.);

ç) çap olunmayan sənədlər (dissertasiyalar, idarə hesabatları, əlyazmaları və s.).

Bu baxımdan kitabxana fondlarının nəzərdən keçirilməsi xeyli maraq doğurur.

Kitabxana fondunda əhatə olunan kitab və kitabçaların mövcudluğu mühüm əhəmiyyət kəsb edir. Burada kitabların rolunu xüsusən qeyd etmək lazımdır. Kitablar bütün növlü kitabxana fondlarının əsas informasiya mənbəyi kimi oxucu sorğularının ödənilməsində mühüm rol oynayır və bütünlükdə fondun ən böyük bir hissəsini təşkil edir



(10). Kütləvi kitabxanalarda kitabların nisbi müqayisəsi daha mühüm üstünlüyə malik olub, fondun 60-70 faizi qədərini əhatə edir (11). Elmi kitabxanalarda isə bu fond müqayisəsi 40-50 faizə bərabərdir (12). Bu fərqli cəhətlər bilavasitə oxucu tərkibinin və sorğusunun zənginliyindən irəli gəlir.

Kitabxanalarda qeyri-dövri nəşrlərin yarımnövlərindən birini kitabçalar təşkil edir. 5-48 səhifəli mətnə malik olan bu kitabçalar təqvimlərdən, plakatlardan, vərəqələrdən, kiçik həcmli reproduksiyalardan, xəritələrdən, kiçik çaplı materiallardan ibarətdir. Bütün bunlar fondda müxtəlif mənada istifadə olunur.

Fondun əsas tərkib hissələrindən birini də dövri nəşrlər təşkil edir. Jurnal, qəzet nəşri davam edən məcmuələrdən ibarət olan bu sənədləri bütün kitabxana fondlarında müşahidə etmək olar. Kütləvi kitabxanalarda dövri nəşrlər fondun 15 faizini təşkil edirsə (13), elmi kitabxanalarda *jurnallar, qəzetlər, nəşri davam edən məcmuələr,* bülletenlər, elmi xəbərlər, təqvimlər fondun 45-50 faizini tutur (14). Bu nəşrlərin fondlarında komplektləşdirmə əhəmiyyəti getdikcə artır və müasir dövrdə kitablara nisbətən daha operativ xarakter daşıyır. Belə ki, bu nəşrlərdə elmin, texnikanın, mədəniyyətin yenilikləri daha operativ işıqlandırılır, istər respublika, istərsə də xarici ölkələrdə baş verən hadisələri əks etdirir. Lakin bu nəşrlər kitaba nisbətən daha tez köhnəlir. Bununla belə, həmin nəşrlər fondun formalaşmasında mühüm rol oynayır.

Kitabxana fondunun tərkib hissələrindən birini kinofotofono sənədlər təşkil edir. Kinofotofono sənədlərin üstünlüyü ondadır ki, onlar informasiyanın dərk edilməsinə və emosional hisslərin şəxsi zövqlərin genişləndirilməsinə əsaslı təsir göstərir, habelə onlar təkcə şəkillərin deyil, bilavasitə səslərin və təsvirlərin qeydini də aparmağa imkan verir (15).

Kinofotofono sənədlər müxtəlif formada nəzərə alınır:

a) kino sənədlər, yəni hərəkətedici şəkillər;

b) foto sənədlər, yəni səs yazılarını ifadə edən materiallar.

Kino sənədlərinə kinofilmlər və videoyazılar daxildir. Foto sənədlərinə *albomlar, fotoşəkillər daxildir. Fono sənədlər isə qramplas*tinkalarda, videoyazılarda öz əksini tapır. Lakin bu sənədlərin əldə edilməsi və mühafizə olunması hələ də baha başa gəlir, informasiyanın lazımi tezliklə *mənimsənilməsi* imkanını təmin edə bilmir, bu işi yalnız xüsusi quraşdırıcılar, alətlər və maşınlar əsasında yerinə yetirmək mümkündür. Kinofotofono sənədlərinin ən mühüm növlə-

rindən birini videoyazılar (daha doğrusu, video səs yazıları) təşkil edir. Videokasetlərin, videodisklərin və digər videoyazıların quruluşu imkan verir ki, yazıların dərhal istifadəsi mümkün olsun, onların təsviri prosesinin lazımi yerdə dayandırılıb nümayiş edilməsi təmin olunsun. Bu da informasiyanın əyani şəkildə mənimsənilməsinə mühüm köməklik göstərir.

Sənədlərin növlərindən birini çap olunmayan materiallar təşkil edir. Bu da əlyazmalardan, makina yazılarından, bəzi reproduksiya materiallarından, habelə mətbəə üsulu ilə əlyazma hüququnda çap edilən nəşrlərdən ibarətdir.

Başlıca olaraq elmi və elmi-texniki kitabxanaların əldə etdiyi çap olunmayan materialların miqdarı daim artır. Belə ki, həmin materiallar çox hallarda elmi və texniki məsələlər üzrə yeni informasiyanın ilkin və bəzən də yeganə mənbəyi hesab edilir. Onlar çap olunan sənədlərdən geri qalmır, bəzi hallarda isə çap olunmayan materiallar informasiya yeniliyinə, konkretliyinə, yığcamlığına, operativliyinə görə üstünlük təşkil edir. Kitabxanalarda (əsasən elmi-texniki) böyük miqdarda nəşr olunmayan sənədlərin yarımnövləri və növ müxtəlifliyi əhatə olunmuşdur. Bunlardan fəal istifadə olunanlar sırasına (dəqiqolma dərəcəsinə görə) müəssisə standartları, səmərələşdirici təkliflərin təsviri, texnoloji təminatlar, xarici ədəbiyyatın tərcümələri daxildir. Buraya həmçinin alim və yazıçıların iri elmi kitabxanalarda toplanan şəxsi arxivləri, dissertasiyalar və avtoreferatlar da daxildir. Doğrudur, avtoreferat çap olunur, lakin əlyazması hüququ daşıyır.

Çap olunmayan sənədlərdən birini də əlyazmaları təşkil edir. Qədim kitabxanalarda əlyazma materialları yeganə sənəd növünü təşkil etmişdir. Hazırda əlyazma kitabları və ya qədim əlyazmaları iri elmi kitabxana fonlarında ən nadir, daha qiymətli və diqqətlə mühafizə olunan hissəni təşkil edir. Bu sənədlər M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında və Azərbaycan Respublikası Milli EA Mərkəzi Elmi Kitabxanasında əhatə olunmuşdur. Birinci kitabxanada 30 min nüsxədən artır, ikinci kitabxanada 20 min nüsxəyə yaxın sənəd əhatə olunmuşdur (16). Nadir fondlar respublikamızın digər iri kitabxanalarında da təşkil olunmuşdur. Belə fondların yaradılması oxucuların mütaliə potensialını yüksəldir və ən qiymətli sənədlərlə tanış edir.

Kitabxanalarda reproduksiya materialları da əks olunur. Bu sənədlər müəyyən kitabların surətçıxarma prosesinə əsaslanır. Reproduksiyalaşdırma prosesində sənədin mətn formasına heç bir dəyi-



şiklik etmədən, böyütmədən, kiçiltmədən saxlamaq olar. Lakin sonuncu üsulun (mətnin kiçildilməsi) sənədlərin saxlanma yerinə qənaət etmək və istifadəni səmərələşdirmək məqsədilə tətbiq edilir. Bütünlükdə reproduksiya materialları fondun zənginləşməsinə xeyli təsir göstərir (17).

Bu təsiri mikrodaşıyıcılarda da müşahidə etmək olar. Kitabxana fondlarının mikrodaşıyıcılarla geniş komplektləşdirilməsi 30-cu illərin ortalarından (ABŞ-da) başlanmışdır. Hazırda ABŞ-ın Konqres Kitabxanası yeni daxil olan sənədlərin 28 faizinin tam surətini çıxarır, bu da bir milyon ada yaxın mikrodaşıyıcılar toplusuna bərabərdir. Lakin belə mikrodaşıyıcılar 60-cı illərdən respublikamızın kitabxanalarına da daxil olmuşdur. Sarğıya dolanmış belə mikrofilmlər kitabların, qəzetlərin, jurnalların çapı davam edən nəşrlərin surətini çıxarır və mühafizəsini daha münasib təmin edir.

Mikrofilmlərin daha bir növünü kəsik mikrofilmlər təşkil edir ki, bu da 23 sm uzunluğunda olan bir və ya bir neçə şəkildən ibarət olur. Belə mikrofilmlər kiçik vərəqli materialların-standartların, ixtira təsvirlərinin, qrafiklərin və s. surətini çıxarmaqda olduqca əlverişlidir.

Lakin respublikamızın kitabxanaları cəmiyyətin informasiyalaşdırma mərhələsinə qədəm qoyduğu bir dövrdə reproduksiya materiallarına və mikrodaşıyıcılara az yer verir və onları ikinci dərəcəli sənəd kimi qiymətləndirir.

Bununla belə göstərmək lazımdır ki, respublikamızda kitabxanalar öz fondlarının tərkibcə zənginləşdirilməsinə ciddi səy göstərir və onları dövrün tələbləri səviyyəsində formalaşmasına mühüm diqqət yetirir.

*ƏDƏBİYYAT*


*1. Столяров Ю.Н. Библиотечный фонд: Учебник. – М.: Книжная палата, 1991. – 271 с.*

*2. Bakı Mərkəzi şəhər kitabxanasının 1995-ci il hesabatı. – S.19.*

*3. M.Qorki adına Mərkəzi Şəhər Səyyar Kitabxanasının 1995-ci il hesabatı. – S.17.*

*4. M.Ə.Sabir adına Bakı Mərkəzi Şəhər Kitabxanasının 1995-ci il hesabatı.– S.14.*

*5. Bakı şəhər Xətai rayon MKS-in 1995-ci il hesabatı. – S.19.*

*6. Столяров Ю.Н. Библиотечный фонд: Учебник. – М.: Книжная палата, 1991. – 271 с.*

*7. Карташов Н.С. Взаимосвязь формирования и использования библиотечных фондов//Сов.библиотековедение. –1992. -№5. – С.61-67.*

*8.Астонович В.Г. Технологические процессы комплектования//- Библиотековедение.-1993. -№2.- С.56-74.*

*9.Исаев Ю.В. Новые подходы к комплектованию библиотечных фондов//Сов.библиотековедение.- 1991.-№3. - С.61-63.*

*10. Xələfov A.A. və b. Kitabxana işçisinin məlumat kitabı.- B.: Azərnəşr, 1986.- S.270.*

*11. M.Ə.Sabir adına, R.Rza adına, A.Səhhət adına, M.Ş.Vazeh adına Bakı şəhər kütləvi kitabxanalarının 1997-ci il hesabatı.*

*12. Azərbaycan Respublikası EA Mərkəzi Elmi Kitabxanasının 1997-ci il hesabatı. – s.19.*

*13. Bakı şəhər Xətai rayon MKS-in 1996-ci il hesabatı.- s.18.*

*14. M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının 1996-cı il hesabatı.– S.13.*

*15. Андрошина С.В. Критерии отбора фонда нетрадиционных изданий// Библиотековедение.- 1996. - №3. – С. 62-63.*

*16. M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının, Azərbaycan Respublikası EA Mərkəzi Elmi Kitabxanasının 1996-1997-ci il hesabatları.*

*17. Критерии отбора литературы-основа качественного комплектования библиотечных фондов// Сов.библиотековедение. – 1992- № - С.63-67.*

***М.М.ГАСАНОВ***

## *Система изучения библиотечного фонда*

**Резюме**

В статье рассмотрены важнейшие составные части сложной системы изучения фондов централизованных библиотечных систем, проанализированы методы изучения фондов в зависимости их тематико-технологической структуры.

Важное место в статье занимает опыт работе научных и массовых библиотек по изучению и обобщению состава фондов.

***Mehmanəli MƏMMƏDOV***
*pedaqoji elmlər namizədi, baş müəllim,*
***Elçin ƏHMƏDOV***
*pedaqoji elmlər namizədi, baş müəllim*

# GƏNCLƏRİN HƏRBİ-VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNDƏ KİTABXANALARIN ROLU

Məlum olduğu kimi, Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin 29 iyul 1999-cu il tarixli "Dövlət gənclər siyasəti haqqında" fərmanına uyğun olaraq ölkəmizdə dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planı işlənib hazırlanmışdır.

Fərmanla təsdiq olunmuş plan 9 əsas bölmədən ibarətdir. Tədbirlər planında ordu quruculuğu, hərbi-vətənpərvərlik tərbiyəsi, ordudan tərxis olunmuş gənclərin məşğulluğu ilə bağlı dövlət proqramının hazırlanıb həyata keçirilməsi və başqa məsələlər öz geniş əksini tapmışdır.

Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı kitabxanaların qarşısında da mühüm vəzifələr durur. Belə ki, kitabxanalar müstəqil informasiya mərkəzi olub dövlətin ideologiyasını təbliğ etməklə yanaşı, həm də gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində mühüm rol oynayırlar. Professor A.Xələfovun qeyd etdiyi kimi, cəmiyyətdə mühüm sosial funksiyaları həyata keçirən kitabxanalar elmi-texniki tərəqqinin sürətləndirilməsində, insan amilinin formalaşmasında, ölkəmizin sosial və mədəni inkişafında yaxından iştirak etməli, böyük təbliğat-təşviqat və təşkilatçılıq işi aparmalıdırlar. Kitabxana işi dövrlə, zamanla ayaqlaşmalı, həmişə rəngarəng və dinamik olmalıdır (1).

Məlumdur ki, böyüməkdə olan nəslin, xüsusilə yeniyetmə və gənclərin təlim-tərbiyəsi, əsl vətəndaş kimi formalaşması prosesi həmişə cəmiyyətin və dövlətin diqqət mərkəzində olmuşdur. Bu proses hazırda respublika prezidentinin də nəzarətindədir. Təsadüfi deyil ki, uşaqlar üçün keçirilən Novruz şənliyində iştirak edən prezident Heydər Əliyev öz çıxışında demişdir: "Bizim borcumuz gənclərə daha çox qayğı göstərməkdən, onların təhsil və tərbiyəsi

işini, yaşayış şəraitini daha da yaxşılaşdırmaqdan və gələcək nəsil üçün daha yaxşı həyat qurmaqdan ibarətdir" (2).

Şübhəsiz ki, yeniyetmə və gənclərin müasir dövrün tələbləri səviyyəsində yetişdirilməsi işində digər tərbiyə ocaqları ilə yanaşı kitabxanalar da mühüm rol oynamalı, öz funksiyalarını bu vacib prinsiplər əsasında həyata keçirməlidirlər. Burada əsas məsələlərdən biri də gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinin təşkilidir.

Kitabxanalarda hərbi-vətənpərvərlik tərbiyəsinin məqsədi gənclərin qarşısında Vətəni qorumaq, onun müdafiəçisi olmaq tələbini qoyur. Bu gün torpaqlarımızın böyük bir hissəsi xain erməni qəsbkarlarının əlindədir. Odur ki, gənclərin torpaqlarımızın müdafiəçisinə istənilən səviyyədə hazır olması zəruridir. Çalışmaq lazımdır ki, yeniyetmə və gənclərimiz doğma yurda hədsiz məhəbbət ruhunda böyüsünlər: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdırlar, bizim milli, mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidirlər. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidirlər. Tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz"(3).

Kitabxanalarda hərbi-vətənpərvərlik tərbiyəsi yeniyetmə və gənclərimizdə doğma dilini və vətənini sevmək, öz milli mədəniyyətini dərk etmək kimi mənəvi hisslərin oyanmasına və inkişafına müsbət təsir göstərir. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev gənclərin birinci forumunda çıxış edərək hərbi-vətənpərvərlik tərbiyəsinə yüksək qiymət vermiş və onun bir çox tərkib hissələrini izah etmişdir. Buraya doğma dilimizi yaxşı bilmək, milli ordumuzda xidmət etmək, vətəni sevmək, milli dəyərlərimizə sadiq qalmaq, düşmənə qarşı nifrət və b. daxildir.

Gəncləri vətənimizin azadlığı uğrunda mübarizəyə hazırlamaq, milli ordumuza mənəvi və maddi köməklik göstərmək bu günkü tərbiyə işində fəaliyyətimizin əsas istiqamətini təşkil etməlidir. Məktəblər kitabxanalarla əlaqəli işləməli, şagirdlərdə hərbi xidmətə, hərb elminə maraq oyatmalı, onları müstəqil Azərbaycan dövlətinin atributları – himni, herbi, bayrağı ilə tanış etməli, bunların müqəddəslik ideyası yeniyetmə oxucuya öyrədilməlidir. Gənclər himnimizi əzbər bilməli və onun üstündə köklənməlidirlər.

Kitabxanalarda gənclərin hərbi-vətətpərvərlik tərbiyəsi prosesində ən güclü amillərdən biri canlı nümunələrdir. Bu cəhətdən kitabxanalar geniş imkanlara malikdirlər. Hərbi-vətənpərvərliyə dair kitabların yeniyetmə və gənclər arasında təbliği, kitab sərgiləri, oxucu konfransları, kitab müzakirələri, hərbi şərəf guşələri, müharibə veteranları ilə görüşlər və s. kimi tədbirlərin müstəsna əhəmiyyəti vardır.



Kitabxanaçı bədnam düşmənlərə qarşı igidliklə vuruşan qəhrəmanın timsalında torpağın müqəddəsliyini gənclərə aşılamalıdır. "İgid ölər, adı qalar" fikrini gənclərə çatdırmaq üçün kitabxanaçıya tarixi keçmişimizə müraciət etmək ehtiyacı yoxdur. Çünki müasir gənclərdən zorla cəlb edildiyimiz Qarabağ savaşında şəhid olanlar az deyildir. Bu şəhidlərin adlarını əbədiləşdirmək üçün son illərdə bir sıra mədəni-maarif obyektlərimiz onların adını daşıyır. Bu ənənə orta məktəblərdə daha geniş yayılmışdır. Respublikamızda 40-a qədər gənclər kitabxanasının olduğunu nəzərə alsaq, mövcud ənənənin bu kitabxanalarda da tətbiqi məqsədəuyğun olar. Bu, mövcud reallığın tələbi olmaqla yanaşı, *həm də respublika prezidentinin tələbidir:* "Orduda, Azərbaycan Silahlı Qüvvələrində xidmət edən hər bir kəs cəmiyyətimizin ən hörmətli, ən mötəbər adamı olmalıdır"(4).

Kitabxanalarda hərbi-vətənpərvərliyə dair ədəbiyyatın təbliği geniş yayılmış formalardandır. Bu cəhətdən C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının fəaliyyəti təqdirəlayiqdir. Bu məqsədlə kitabxanada vaxtaşırı hərbi kitab həftəsi, kitab aylığı keçirilir və il ərzində 2-3 dəfə təkrar edilir. Gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi ilə əlaqədar keçirilən bu tədbirlərdə milli və ümumbəşəri dəyərlər əsas götürülür, milli vətənpərvərliklə hərbi vətənpərvərlik əlaqələndirilir və bunun əsasında orduda xidmət etmək kimi şərəfli bir vəzifə qoyulur. Ancaq təəssüflər olsun ki, son illərdə kitabxanalarımıza hərbi vətənpərvərliyə dair çox nadir hallarda kitablar və əyani vəsaitlər daxil olur. Baxmayaraq ki, hərbi-vətənpərvərlik və qəhrəmanlıq mövzularında kitablara və plakatlara böyük ehtiyac vardır.

Respublika Gənclər Kitabxanasının 1996-cı ildə Cəlilabad rayonunda keçirildiyi zona müşavirəsi də hərbi-vətənpərvərlik tərbiyəsinə həsr olunmuşdu. Müşavirədə Salyan, Biləsuvar, Lənkəran, Masallı, Astara rayon gənclər təşkilatı və hərbi komissarlığının nümayəndələri iştirak etmiş, 10-a qədər maraqlı məruzə *dinlənilmiş, konkret tövsiyələr* verilmişdir. Sabirabad rayonunda da belə bir tədbirin keçirilməsi planlaşdırılıb. Ancaq maliyyə çətinlikləri üzündən ləngiyir.

Hazırda respublikamızın bütün kitabxanaları, o cümlədən gənclərlə məşğul olan başqa təşkilatlar gənclərin hərbi-vətənpərvərlik tərbiyəsini günün tələbləri səviyyəsində qurmalı, hörmətli prezidentimizin bu sahədəki əvəzedilməz xidmətlərini təbliğ etməli və öz iş planlarını bu istiqamətdə müəyyənləşdirməlidirlər. Burada əsas məqsəd yeniyetmə və gəncləri xalqı, vətəni sevmək ruhunda tərbiyə

etmək, onların vətənpərvər, kamil bir şəxsiyyət kimi yetişməsinə xidmət etmək olmalıdır. Bu prinsip, həmçinin ölkə başçısının 2001-ci ilin fevralında respublika gəncləri gününə həsr olunmuş toplantıdakı nitqindən irəli gələn vəzifələrin yerinə yetirilməsi baxımından da zəruridir: "İndi Azərbaycanın müstəqil dövlət kimi yaşadığı zamanda vətənpərvərlik hər bir insanın, xüsusən hər bir gəncin ən ümdə borcu, vəzifəsidir... Mən bunu deyərkən bildirmək istəyirəm ki, bütün təhsil ocaqlarında, gənclərlə məşğul olan bütün təşkilatlarda vətənpərvərlik hissinin aşılanması, vətənpərvərlik hissinin hər bir gəncin qəlbində olması üçün lazımi tədbirlər görmək lazımdır". Bu tələb eləcə də hamımızın əsas vəzifəsi olmalı və bunun üçün mövcud imkanlardan maksimum dərəcədə istifadə edilməlidir.

*ƏDƏBİYYAT*


1. *Xələfov A.A. Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafı. –B.: Maarif, 1997.- S.3.*
2. *Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin "Gülüstan" sarayında uşaqlar üçün keçirilən Novruz bayramında çıxışı// Respublika. - 1997.- 26 mart.*
3. *Əliyev H. Hər bir Azərbaycan gənci müstəqil dövlətimizin fəal qurucusu olmalıdır// Azərbaycan. - 1996.- 2 fevral.*
4. *Azərbaycan müəllimi. – 1998. – 5 fevral.*
5. *Respublika. – 2001. – 3 fevral.*



**М.А. МАМЕДОВ, Э.Ю. АХМЕДОВ**


## *Роль библиотек в военно-потриотическом воспитании молодежи*

**Резюме**


Известно, что Президент Республики Азербайджана Г.А.Алиев 29 июля 1999 года подписал Указ «О государственной молодежной политике».

В этом Указе особеню акцентрировано значение военно-потриотического воспитания, как важного фактора духовных и моральных ценностей нации.

В связи с этим, Республиканская юношеская библиотека принимает тесное участие в военно-патриотическом воспитании молодежи, как важного направления государственной политики.

*Yusif QAZIYEV,*
*pedaqoji elmlər namizədi*

# KÜTLƏVİ TƏDBİRLƏRİN TƏŞKİLİNDƏ MƏKTƏB KİTABXANASININ FƏALİYYƏTİ

Böyük humanist pedaqoqlar şagirdlərdə əxlaqi keyfiyyətlərin təşəkkülündə disputların rolunu yüksək qiymətləndirmişlər.

Bu baxımdan disputlar orta və yuxarı yaşlı məktəblərdə aparılan iş formalarından biri olub, şagirdlərin əqli tərbiyəsinin, mənəvi əqidəsinin, hiss və davranışlarının, nitq və məntiqi təfəkkürlərinin inkişafında mühüm vasitədir.

Disput digər kütləvi tədbirlərdən (kitab müzakirələri, oxucu konfransları, gecələr, səhərciklər və s.) onunla fərqlənir ki, bu tədbirdə şagirdlər qarşısında onları maraqlandıran müəyyən əxlaqi-etik problemlər və vəzifələr qoyulur. Həmin problemlər müəyyən məqsədlər əsasında müzakirə edilir, şagirdlər düzgün və məqsədəuyğun şəkildə istiqamət alırlar.

Təcrübə göstərir ki, disputların müzakirəsi zamanı müxtəlif əxlaqi fikirlər meydana çıxır. Hər bir şagird öz fikrini əsaslandırmağa çalışır və cari hadisələrə qiymət verir. Geniş mübahisə və müzakirələr başlayır və nəticədə şagirdlərdə fəallıq, təşəbbüskarlıq, müstəqillik, özünütərbiyə, qarşılıqlı hörmət, özünütənqid və sair keyfiyyətlər formalaşır.

Disputun mövzusu müxtəlif ola bilər. Burada məqsədəuyğun mövzuların seçilməsi başlıca şərtdir. Elə mövzular seçmək lazımdır ki, şagirdlər onun hazırlıq və müzakirəsi prosesində humanizm və demokratiya quruculuğunun tələblərini mənimsəyə bilsinlər. Mövzu məktəb kollektivinin rəyi ilə müəyyənləşdirilib elan edilməli, şagird kollektivinin arzu və tələbatına, yaş və marağına uyğun olmalıdır. Mövzunu atalar sözlərindən, klassiklərin müdrik sözlərindən istifadə edərək şüar şəklində adlandırmaq olar.

Məktəblərdə aparılan disputlar öz məzmununa görə əsasən üç böyük problemi əhatə edir:

a) əxlaqi-etik: "Qəhrəmanlıq nədir?", "Düzlük və doğruçuluq nədir?", "Hansı peşəni sevirsən?", "Vətən nədir?", "Onu müdafiə etmək olarmı?" və s.

b) Estetika və estetik zövq: "Sənin sevimli qəhrəmanın kimdir?", "Sən gözəlliyi nədə görürsən?", "Təbiəti sevirsənmi?", "Sevdiyin bədii əsərlər və kinofilmlər" və s.

c) Siyasi və beynəlxalq hadisələr: "Azərbaycan xalqı Vətənin bütövlüyü uğrunda mübarizə aparır", "Birləşmiş Millətlər Təşkilatı və onun vəzifələri" və s.

Məktəblərdə keçirilən disputların səmərəliliyini məktəb kollektivinin (sinif rəhbəri, fənn müəllimləri, uşaq təşkilatları, məktəb kitabxanası və s.) əlbir işi təmin edir. Disputun hazırlıq dövründə kitabxananın fəaliyyəti başlıca rol oynayır. Məktəb kitabxanası disputun mövzusu ilə əlaqədar olaraq şagirdlərin yaş səviyyəsinə və proqram materialına uyğun ədəbiyyatın təbliğinə başlayır: kitab sərgilərinə, kitablara, qəzet və jurnal məqalələrinə dair divar qəzetləri, bülletenlər, albomlar, foto-montajlar tərtib edir; kitab mübadiləsi və digər tədbirlərdə oxucularla fərdi və kollektiv söhbətlər aparır. Mövzuya uyğun bədii ədəbiyyatın seçilməsi və şagirdlər tərəfindən onların mütaliəsi vacibdir. Bədii ədəbiyyatın mütaliəsi nəticəsində şagirdlər əxlaq normaları qazanır və estetik zövqlərlə silahlanırlar, əsərin qəhrəmanlarını təlqin edirlər.

Həmçinin disput müəyyən problem əsasında bədii ədəbiyyatın, jurnal və qəzet məqalələrinin, radio və televiziya verilişlərinin, kinofilmlərin müzakirəsi ilə də keçirilə bilər. Belə hallarda qarşıya qoyulmuş problem müzakirənin süjet xəttini təşkil edir, tənqidi aparılır, mübahisə yaranır, təklif və fikirlər müasir həyatla əlaqələndirilir.

Disputun müvəffəqiyyəti onun aparıcısından asılıdır. Aparıcı disputun iştirakçıları arasında canlı fikir mübadiləsinin yaranmasına, düzgün nəticələr çıxarılmasına nail olmalıdır.

Disputun giriş sözü bir şagirdə, yaxud məktəb işçisinə tapşırılır. Giriş sözündə müzakirə ediləcək mövzu izah edilir, qarşıya müəyyən problem qoyulub şagirdlərin müzakirəsinə verilir.

Şagirdlərin çıxışından sonra aparıcı və disputa dəvət olunmuş görkəmli şəxslər, alimlər, məktəb rəhbərliyi və işçiləri müzakirə olunan fikirləri yekunlaşdırırlar; səhv fikir və rəyləri qeyd edib, faydalı və qiymətli məsələlər üzərində geniş dayanıb ümumi fikir birliyinə gəlirlər. Nəticədə disputda mübahisələrlə toplanmış inam məktəb



həyatının gedişi yolu ilə möhkəmlənir və tərbiyənin təsiredici amili olur.

Oxucular konfransları mütaliə məqsədilə və hər hansı bir problemin müzakirəsi üçün toplanmış oxucu yığıncağıdır. Oxucular konfransları oxucuların ən yüksək orqanıdır. Onlar məktəblərdə ən təsirli kütləvi kitab təbliği metodlarındandır.

Oxucular konfranslarında şagirdlər mütaliə etdikləri kitablar haqqında məruzələr edir, işgüzar fikir mübadiləsi aparır və müəyyən vahid nəticəyə gəlirlər.

Oxucular konfransları şagirdlərin qüvvəsi ilə hər hansı kitabın və ya problemin hərtərəfli təhlilini aparmağa imkan verir. Onlar şagirdlərdə hər hansı problem haqqında dərindən fikirləşmək, onu düzgün həll etmək və şüurlu öyrənmək mövqeyi yaradır.

Oxucular konfransları bu məqsəd və vəzifələri yerinə yetirir:

-şagirdlərə proqram üzrə nəzərdə tutulan bilikləri artırmaq, bacarıq və vərdişləri təkmilləşdirmək təcrübəsi vermək;

-mütaliə olunan əsərə tənqidi yanaşmaq, onları düzgün qiymətləndirmək və s. özünütəhsil vərdişlər ilə silahlandırmaq;

-şagirdlərdə estetik zövq, mənəvi ideal, həyata inam tərbiyə etmək.

Oxucular konfransı çətin və məsuliyyətli tədbirdir. Bu işə müəllimlərin, sinif rəhbərlərinin, uşaq təşkilatının və digər məktəb təşkilatlarının kömək etmələri vacibdir. Məktəb kitabxanasının vəzifəsi isə konfransın hazırlıq işini təşkil etmək, ona rəhbərlik etməkdir.

Mövcud ədəbiyyatda və təcrübədə məktəb kitabxanalarında məzmun və məqsədinə görə üç növ oxucular konfransı keçirilir:

1. Məsləhət konfransları;
2. Tematik konfranslar;
3. Hesabat konfransları.

***Məsləhət konfransları.*** Bu növ konfransların məqsədi şagirdləri nəzərdə tutulan elmi-siyasi, bədii və s. kitabların mütaliəsinə alışdırmaqdır. Buna nail olmaq üçün şagirdlərə məqsədəuyğun kitabların mütaliə edilməsi, mütaliə mədəniyyəti və qaydaları haqqında məsləhətlər verilir. Şagirdlərin məlumatları müzakirə edilir və müvafiq ədəbiyyatı kitabxanaçı seçir. Həmin konfransda mütaliə ediləcək kitablar, həmçinin mütaliə üsulları haqqında məlumat verilir. Kitabxanaçı fənn müəllimləri ilə əlaqə saxlayıb kitab tövsiyəsi siyahıları tərtib edir.

Kitab tövsiyəsi məqsədi ilə aparılan belə konfranslar dərs ilinin əvvəlində, ortasında və axırında keçirilir. Konfransı keçirmək məqsədi ilə qabaqcadan anket sorğuları aparılır.

Anketə verilən cavablar toplanır, oxucu mütaliəsinin, marağının kəmiyyət və keyfiyyəti, oxu mədəniyyəti, onun səviyyəsi və b. vacib məsələlər ətraflı öyrənilir. Bununla əlaqədar kitabxanaçı ən çox narahatlıq doğuran məsələləri oxucuların nəzərinə çatdırır. Aydın olur ki, fizika, kimya və biologiya ilə əlaqədar kitabları şagirdlər mütaliə etmirlər, götürülən kitablar mütaliə olunmadan qaytarılır. Kitabla rəftarın səviyyəsi aşağıdır.

Sonra kitabxanaçı fənn müəllimlərinin məsləhəti ilə konfransın proqramını tərtib edir:

1.Nə oxumalı?

2.Kitab oxumaq üsulumuzu təkmilləşdirmək.

3.Kitabla yüksək rəftar bizim borcumuzdur.

4.Oxumağınız məsləhətdir (tövsiyə).

Mövzular nümunəvi və bacarıqlı oxuculara həvalə edilir. Onlara öz çıxışlarını məzmunlu hazırlamaq üçün ədəbiyyat da tövsiyə edilir.

Apardığımız təcrübədən məlum olur ki, belə konfranslar şagird mütaliəsi mədəniyyətinin yüksəldilməsində böyük rol oynayır. Belə konfransların təsiri ilə şagirdlər mütaliə üsullarını mənimsəyir, mütaliənin planlaşdırılması və ardıcıl aparılması işinə şüurlu şəkildə yanaşır, oxunmuş kitablardan faydalanmaq bacarıq və vərdişlərinə yiyələnirlər.

*Tematik konfranslar.* Bu konfranslar hər hansı müasir bir elmi probleme həsr edilir. Konfrans bir kitaba, bir müəllifin yaradıcılığına, yaxud mövzu və ideyaca bağlı olan bir neçə müəllifin bir sıra kitablarına həsr edilə bilər.

Məktəblərimizdə Azərbaycan xalq dastanları, Azərbaycan xalq nağılları, M.S.Ordubadinin "Qılınc və qələm", "Dumanlı Təbriz", S.Rəhimovun "Şamo", H.Seyidbəyli və İ.Qasımovun "Uzaq sahillərdə", M.Rahimin "Leninqrad göylərində" və s. əsərləri oxucular konfranslarında müzakirə olunur. Bu əsərlərin müzakirəsi şagirdləri vətənpərvərlik hissi, humanistlik, xalq mənafeyinə sədaqət və s. nəcib duyğularla silahlandırır.

Şagirdlərin biliklərinin və yaradıcılıq işlərinin daha da zənginləşməsi naminə geniş məzmunlu müxtəlif mövzuların müzakirəsi üçün



aparılan tematik konfranslar oxuculardan gərgin iş və axtarışlar tələb edir.

Eyni mətləbdən külli miqdarda ən yaxşı əsərlərin mübadiləsinin təşkili üçün müəyyən mövzuda tematik konfransların keçirilməsi də yaxşı nəticə verir.

Məsələn, Azərbaycan ədəbiyyatında əməkçi qadın surətləri, ədəbiyyatımızda milli azadlıq hərəkatının tərənnümü, bədii ədəbiyyatda əmək rəşadətləri, atom enerjisi və ondan dinc məqsədlər üçün istifadə etmək perspektivləri və s.

Tematik konfranslar digər konfranslarla müqayisədə səriştəlidir və onların təşkili, keçirilməsi gərgin iş tələb edir.

*Hesabat konfransları.* Belə konfranslar yarımildə, rüblərin axırında, dərs ilinin sonunda keçirilir. Bu konfranslarda şagirdlər oxuduqları kitablar, əldə etdikləri bilik, bacarıq və vərdişlər, onların faydası və s. haqqında çıxışlar edirlər.

Hesabat konfransları məktəblərdə müxtəlif formada aparılır: bəzi məktəblərdə şagirdlər oxuduqları əsərlər haqqında hesabat verirlər. Kitabxanaçı, sinif rəhbərləri və fənn müəllimləri şagirdlərin mütaliəsinin vəziyyətini öyrənir, konfransı yekunlaşdırır, qüsurları qeyd edir, şagirdlərə yeni məsləhətlər verir və nəhayət, gələcəkdə şagird mütaliəsinə necə rəhbərlik etmək üçün müəyyən nəticələr çıxarırlar.

Qabaqcıl məktəblərdə hesabat konfransı bu qaydada keçirilir: kitabxanaçı oxuculara sual-cavab anketləri doldurtdurur; nümunəvi və məhsuldar oxucuları müəyyənləşdirir; mütaliə gündəlikləri ilə tanış olur; fəal oxuculardan bəzilərinə hansı kitabları oxuduğuna, özünütəhsilə, öz üzərində işləməsinə dair çıxışlar tapşırır. Sonra aparıcı konfransı yekunlaşdıraraq şagirdlərin mütaliəsindəki müsbət cəhətlərdən və nöqsanlardan danışır. Adətən, belə konfranslarda əmək qabaqcılları, alimlər və ya yazıçılar da iştirak edir. Konfrans şagirdlərin qiraətləri, musiqi nömrələri ilə başa çatır.

Buradan belə nəticəyə gəlmək olur ki, oxucular konfransları şagird mütaliəsinin təşkilində, mütaliə mədəniyyətinin inkişafında və onun səviyyəsinin yüksəldilməsində böyük rol oynayır. Bu konfranslarda şagirdlərə məqsədəmüvafiq ədəbiyyat tövsiyə edilir, onların mütaliəsinə təkan verilir, ona dair müzakirə açılır, səmərəli oxumaq, oxu texnikasını təkmilləşdirmək, oxuduqlarından düzgün nəticələr çıxarmaq və s. məsələlər araşdırılır.

Hər bir konfrans müəyyən məqsəd daşıyır və məktəbdə təlim-tərbiyənin məqsəd və vəzifələrinə xidmət edir.

Konfransın müvəffəqiyyətli keçməsini əvvəlcədən aparılan hazırlıq işləri təmin edir. Bir qayda olaraq 1-2 ay davam edən bu hazırlıqda kitabxanaçı, müəllim və şagirdlər fəal surətdə iştirak edirlər. Onlar tarixi şəxsiyyətlərə, ədəbi şəxsiyyətlərə və zəhmət adamlarına, dostluq və yoldaşlığa, peşələrə və elm sahələrinə dair kitablar seçib mütalie edirlər. Bu, onlarda kitab üzərində sərbəst işləmək bacarığı yaradır. Onlar müxtəlif əyani və şifahi tədbirlərə əl atırlar, müxtəlif lüğət, soraq və biblioqrafiya kitabları ilə tanış olub, öz mütaliə mədəniyyətlərini inkişaf etdirirlər.

Oxucular konfransı şagirdlərin oxu mədəniyyətinin kəmiyyət və keyfiyyətini o zaman yüksəldir ki, konfransa qədər kitab üzərində bir çox fərdi və kollektiv işlər – söhbət, qiraət, kitab müzakirəsi, ədəbi oyunlar, disputlar, səhərciklər, kitab sərgisi, görüşlər, bülletenlər, qəzet, albom və foto-montaj buraxılışı və s. tədbirlər həyata keçirilmiş olsun. Bu işlər şagirdlərin təcrübə toplamasında faydalı olur.

Oxucu konfransı o zaman səmərə verir ki, bütün iştirakçılar müzakirə olunacaq ədəbiyyatı oxusun və konfransda müzakirəyə çıxarılacaq məsələlərlə tanış olsunlar.

Oxucu konfransının təşkili və keçirilməsində ictimai və siyasi məktəb təşkilatlarına, pedaqoji kollektivə, oxucu fəallarına arxalanmaq işin müvəffəqiyyətli, məzmunlu və məqsədəuyğun, vaxtında və yüksək səviyyədə keçirilməsinə səbəb olur.

Pedaqoji və metodik cəhətdən düzgün təşkil olunmuş oxucular konfransı şagirdlərin müstəqilliyini və fəallığını artırır, onların mütaliə ilə ardıcıl məşğul olmasını təmin edir. Şagirdlər bir daha yeni praktik vərdişlərə yiyələnirlər. Onların nitq mədəniyyəti zənginləşir. Onlar konfranslarda iştirak etmək üçün və kollektiv surətdə birləşərək "Hikmətli söz və ifadələr", "Sevimli mahnı və şerlər", "Atalar sözləri və zərb məsəllər", "Tapmacalar", "Oxunmuş əsərlərə dair rəylər" və s. adlı dəftərlər düzəldir, plakatlar hazırlayır və rəsmlər çəkirlər ki, bunlar da təlimin keyfiyyətini yüksəldir.

*Murtuz BAĞIROV*
*baş müəllim*

# KİTABXANA STATİSTİKASINDA OXUCULARIN SOSİAL QRUPUNUN MÜƏYYƏNLƏŞDİRİLMƏSİNİN ƏHƏMİYYƏTİ

Müstəqil, suveren respublikamızda dövlət statistika siyasəti mövcuddur (1). Artıq o, ölkənin ictimai-siyasi, soial-mədəni, elmi-texniki, iqtisadi, idarəetmə və digər həyatında fəaliyyət göstərir, dövlət əhəmiyyətli məlumatlar sisteminin vahid dövlət xəzinəsini təşkil edir, təkmilləşdirir və məxfiliyini qoruyub saxlayır. Dövlət statistikasının özünəməxsus qanunauyğunluqları vardır. O, qanun və hüquqi sənədlərlə müəyyən edilir və tənzimlənir. Maraqlıdır ki, dövlət statistik göstəricilərindən respublikanın dinamik inkişafında və qüdrətinin artırılmasında istifadə olunur.

"Statistika haqqında Azərbaycan Respublikasının Qanunu" Milli Məclis tərəfindən qəbul edilmiş, ölkə prezidenti Heydər Əliyev tərəfindən 1994-cü il fevralın 18-də tarixdə (№789) təsdiqlənmişdir. Qanunda dövlət statistikasının fəaliyyət və qanunauyğunluqları elmi əsaslarla müəyyən edilmişdir ki, bu da bir çox məsələ və problemlərin həllində mühüm rol oynayır. Respublikamızda statistika sistemi mövcuddur. O, Azərbaycan Statistika Komitəsi və onun yerli orqanları vasitəsilə idarə olunur. Statistik məlumatların ideya məzmunun açılmasında onun təsnifatının (Məlumatların kodlaşdırılmasının) böyük əhəmiyyəti vardır (2).

Kitabxana statistikası respublika statistikasının tərkib hissəsi olub, ümumi və tabeçilik mənsubiyyəti nəzərə alınmaqla tarixi-xronoloji prinsiplərə əsaslanır, kitabxanaların inkişaf və fəaliyyəti haqqında geniş məlumatlar vermək imkanına malikdir. Kitabxana statistikası sosial-iqtisadi statistikada mühüm yer tutur. Kitabxana statistikası haqqında elmi-nəzəri və təcrübi fikirlər bir çox dərslik (3), dərs vəsaiti və elmi məqalələrdə öz əksini tapa bilmişdir. Dosent X.İ.İsmayılov yazır: "Kitabxana statistikası sosial-iqtisadi statistikanın bir bölməsidir. Öz sahəsində baş verən qanunauyğunluqları öyrənmək üçün kitabxana statistikası sosial-iqtisadi statistikanın nəzəriyyə və metodologiyasını tətbiq edir" (4).

Göstərmək lazımdır ki, kitabxana statistikası haqqında geniş elmi məlumatlara rast gəlsək də, nədənsə mühüm bir məsələ kitabxanaşünas alimlər və mütəxəssislər tərəfindən unudulmuş, onun araşdırılmasına az fikir verilmişdir. Kitabxana dedikdə oxucu şəxsiyyəti ilə rastlaşırıq. Bu şəxsiyyətin kimliyini, onun sosial tərkibini öyrənməklə kitabxanaların cəmiyyətdə rolunu və yerini aydınlaşdırmaq imkanı əldə edə bilirik. Çünki oxucuların sosial tərkibinin müəyyənliyi onların kitabxanalardan istifadə etmə meyarını nə qədər aydınlaşdırırsa, digər tərəfdən, xalqımızın mədəni və intellektual səviyyəsi haqqında da təsəvvür yaradır. Kitabxana statistikasında kitabxanaların təsnifatından asılı olaraq onların bir çox fəaliyyətləri haqqında dəqiq rəqəmlər verilir. Göstərmək lazımdır ki, kitabxana statistikasının ilkin mənbəyi, tabeçilik mənsubiyyətindən asılı olaraq ayrı-ayrı kitabxanalarda tətbiq olunan uçot formalarına və vahidliyə əsaslanır. Təhsil və digər sahəvi kitabxanalarda isə xüsusi qeydiyyat jurnalları mövcuddur. Oxucuların sosial qrupları haqqında ən geniş və mükəmməl uçot formaları M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında və M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublikası Kitabxanasında istifadə edilir. Burada bir məsələni heç vaxt unutmaq olmaz: kitabxana statistikasında istifadə edilən uçot formaları və kitabxananın xidməti ilə bağlı sənədlər məzmunca sabit deyil, bəzi müddəalar tez-tez dəyişir, yenisi ilə əvəz olunur.

Təəssüflər olsun ki, bu dəyişikliklər içərisində nədənsə, oxucuların sosial tərkibinə aid faktlar üstünlük təşkil edir. Bu da oxucu qrupları haqqında məlumatları məhdudlaşdırır, ölkə əhalisinin hansı qrupunun kitabxanalardan daha çox istifadə etmə faktını gizlədir, örtülü saxlayır. Bu isə kitabxanaların mədəni - ictimai fəaliyyətinə və nüfuzuna xələl gətirmiş olur.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi kitabxanalarında tətbiq olunan uçot işini iki dövrə bölmək olar: Birincisi, 1975-1990-cı illər; İkincisi, 1991-2000-ci illər.

Etiraf etmək lazımdır ki, SSRİ məkanında istifadə edilən uçot formalarında oxucuların sosial tərkibi haqqında mükəmməl məlumatlara rast gəlmək çətin deyildir. Fikrimizi aydınlaşdırmaq üçün bəzi faktlara nəzər yetirək: Mərkəzi Statistika İdarəsinin 12.06.1985-ci il tarixli 306 saylı əmri ilə təsdiqlənən "Kütləvi universal kitabxanaların hesabatı" adlı statistik uçot formasının 3-cü bölməsi oxuculara həsr edilmişdir. 3-8-ci qrafalarda oxucuların peşə məşğulluğu (fəhlə və s.), oxucuların ali və orta ixtisas təhsili, oxucuların yaş xüsusiyyəti: a)



...ci siniflər üzrə şagirdlər; b) 14-21 və 22-29 yaşlı gənclər nəzərdə tutulmuşdur. Göründüyü kimi, burada kitabxanadan istifadə edən bütün sosial qruplar haqqında məlumatlar verilməsə də, oxucunun cavabı ilə kifayətlənmək olar. Burada oxucular barədə bir çox məlumat əldə etmək mümkündür.

Əlimizdə kitabxanalar barədə bir uçot forması da var. Bu başqa uçot formalarından tamamilə fərqlənir. Mədəniyyət Nazirliyinə tabe olan bütün kitabxanalar haqqında 73 sorğuya cavab verir. Burada ilk növbədə diqqətimizi cəlb edən kitabxanaların tip, növ və ərazi əlamətlərinə görə təsnifləşdirilməsidir. Təsnifləşməyə uyğun olaraq 24 sorğuya cavab verilir ki, bu da sosial qrupların müxtəlif kitabxanalardan necə istifadə etməsini bildirir.

Digər tərəfdən, SSRİ Mədəniyyət Nazirliyinin 22.06.1983-cü il tarixli 360 saylı əmri ilə təsdiqlənmiş "Kütləvi və universal kitabxanaların illik toplu hesabatı" (6) adlı uçot formasında oxucuların sosial qruplarının kitabxanalardan istifadəetmə mənzərəsi daha geniş maraq doğurur. Formanın 3-cü bölməsinin 28-33-cü qrafaları məhz oxucuların sosial tərkibinə: onların təsərrüfat həyatında yer tutmasına, peşə məşğulluğuna, ali və orta ixtisas təhsilli olmalarına; yaş xüsusiyyətlərinə: şagird və oxucu olmalarına (14-21, 22-29 yaş) həsr edilmişdir. Məsələn: 1984-cü ildə Mədəniyyət Nazirliyinin tabeliyində 3767 kitabxana olmuşdur. Bu kitabxanalardan 2647,0 nəfər ümumi oxucu istifadə etmişdir. Bütün oxuculara elmin müxtəlif sahələrinə aid 28749,8 nüsxə ədəbiyyat verilmişdir. Oxucuların sosial tərkibi isə belədir: fəhlələr 555,3 nəfər; ictimai təsərrüfatla məşğul olanlar 1140,6 nəfər; ali və orta ixtisas təhsillilər 430,0 nəfər; I-VIII siniflər üzrə şagirdlər 867,8 nəfər, 22-29 yaşlı gənclər 620,6 nəfər və s. Oxucuların milli mənsubiyyətinə görə kitabxana fondundan istifadəetmə faktı formanın 41-42-ci qrafalarında öz əksini tapmışdır. Qeyd olunan bütün oxuculara 35391,6 nüsxə ədəbiyyat verilmişdir. Bundan 21843,9 nüsxəni ana dilimizdə, 6826,1 nüsxəni isə rus dilində olan ədəbiyyat təşkil edir. Bununla bərabər, 1984-cü ildə nazirliyə məxsus 3767 müxtəlif tipli kitabxanalardan 2647,0 nəfər ümumi oxucu istifadə etmişdir ki, bunun 50 faizdən çoxunu – 1488,4 nəfərini şagird (867,8 nəfər) və gənc oxucular (620,6) təşkil edir və s.

İkinci dövrdə istifadə olunan hesabat formalarında isə oxucuların sosial qrupları haqqında adi məlumatlara belə rast gəlmək qeyri-mümkündür. Bu, bilavasitə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən tərtib edilmiş müxtəlif statistik uçot

formaları ilə sıx surətdə bağlıdır. Komitənin 22.08.2000-ci il tarixli 3915 saylı qərarı ilə təsdiq edilmiş "Kütləvi, universal kitabxanaları"nın 6-mədəniyyət formasının 1-ci bölməsinin 6-cı qrafasında və yenə həmin komitənin 22.08.2000-ci il tarixli 3915 №-li qərarı ilə təsdiq olunmuş "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi sistemindəki kütləvi və universal kitabxananın illik hesabatlarının toplusu"nun (80-A-T-RİK №-li forma) 5-ci qrafasında təkcə bir oxucu qrupu haqqında – "15 yaşınadək uşaqlar" faktınada rast gəlmək olar.

Kitabxanalar haqqında yeni bir forma da vardır. Burada da məqsədimizə çata bilmədik. Komitənin 22.05.2001-ci il 39/5 №-li qərarına uyğun olaraq tərtib edilmiş "80-a-RİK №li forma"da (kirillə tərtib olunmuş forma) isə oxucuların sosial tərkibi haqqında heç bir məlumat verilmir. Burada ancaq ümumi oxucular və onlardan neçə nəfərinin kənd yerlərində məskunlaşdığı göstərilmişdir.

Bütün bunlardan belə bir nəticə çıxarmaq mümkündür: bu uçot formalarını tərtib edənlərin və onlarla razılaşanların kitabxana işindən, kitabxanalardan istifadə edən oxucuların çoxsaylı sosial qruplarından xəbərləri yoxdur. Əgər biz milli, respublika və ayrı-ayrı dövlət kütləvi kitabxanalarının illik mətn hesabatlarına və ya digər sənədlərə diqqət yetirsək, orada oxucuların sosial qrupları haqqında ətraflı məlumatlara rast gələ bilərik. Məsələn, Bakı Şəhəri Mərkəzi Kitabxanasından ümumilikdə 1999-cu ildə 38816 nəfər oxucu istifadə etmişdir. Bundan 4670 nəfəri fəhlə, 8816 nəfəri qulluqçu, 22227 nəfəri isə təhsil alan oxuculardır. O cümlədən, orta məktəb tələbələri 3855 nəfər, ali məktəb tələbələri 13463 nəfər, texniki-peşə məktəblərinin tələbələri 4909 nəfər və s. (8) Digər bir misal: C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasından 2001-ci ildə 7254 nəfər gənc oxucu istifadə etmişdir. Onlara 100638 nüsxə ədəbiyyat verilmişdir (9).

*Göründüyü kimi*, hər hansı bir kitabxananın fəaliyyətinə nəzər yetirdikdə, orada müxtəlif sosial qrupların geniş istifadəetmə fondu ilə rastlaşacağıq. Ona görə də Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən kitabxanalarla bağlı tərtib edilmiş müxtəlif uçot formalarında ictimai-siyasi, sosial-mənəvi əhəmiyyət kəsb edən oxucuların sosial qrupları barədə tutarlı məlumatların verilməsi ən zəruri və təxirəsalınmaz vəzifə hesab edilməlidir. Çünki bu göstərici arxasında xalqımızın mədəni və intellektual səviyyəsi durur. Ona görə də istifadə edilən uçot formalarında iki yaş qrupu (15 yaşınadək şagirdlər; 14-21, 22-29 yaşında olan gənclər) nəzərə alınmaqla digər sosial qruplara – fəhlələrə, qulluqçulara, ali və orta



ixtisas təhsillilərə, müəllim, həkim, mühəndis-texniki işçilərə və s. geniş yer verilməlidir.

Kitabxana statistikasında tətbiq olunan uçot formalarındakı bu ciddi boşluğu aradan qaldırmaq üçün alim və mütəxəssislərlə Statistika Komitəsinin, respublika Mədəniyyət Nazirliyinin birgə məsləhətləşmələrinə böyük ehtiyac var.

### *ƏDƏBİYYAT*


*1. Statistika haqqında Azərbaycan Respublikasının Qanunu// Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. – 1994. - 15 iyun. - № 11. - S. 3-9.*

*2. Yenə orada. S. 6.*

*3. Фрумин И.М. Библиотечное дело: Организация и управление. – М.: Книга, 1980. С. 106-131.*

*4. İsmayılov X.İ. Kitabxana işinin idarə edilməsinin metodiki və təşkilati məsələləri: Dərs vəsaiti. – B., 1995. S. 8.*

*5. Kütləvi, universal kitabxanaların hesabatı /Mərkəzi Statistika İdarəsinin 12.06.85-ci il 306 saylı əmri ilə təsdiqlənmişdir.*

*6. Kütləvi və universal kitabxanaların illik toplu hesabatı/ SSRİ Mədəniyyət Nazirliyinin 22.06.83-cü il tarixli 360 saylı əmri ilə təsdiqlənmişdir.*

*7. "Kütləvi, universal kitabxanalarının" 6 – mədəniyyət forması Azərbaycan Dövlət Statistika Komitəsinin 22.08.2000-ci il tarixli 39/5 saylı qərarı ilə təsdiq olunmuşdur.*

*8. Bakı Şəhəri Mərkəzi Kitabxanasının 1999-cu ilə aid illik mətn hesabatı. S. 5.*

*9. C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının 2001-ci ilə aid illik hesabatı.*


**_М.М.БАГИРОВ_**

**_Значение определения социальных групп читателей в библиотечной статистике_**

**Резюме**

В статье рассмотрены важнейшие принципы ведения дифференцированного учета читателей различных социальных групп в библиотечной статистики, даны некоторые рекомендации по усовершенствованию этого важнейшего вида статистического учета читателей в республике.

*Knyaz ASLAN*
*baş müəllim*

# BƏDİİ ƏDƏBİYYATIN TƏBLİĞİ ÜSULLARININ TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

Müasir dövrdə cəmiyyətin qarşısında duran ən mühüm vəzifələrdən biri hərtərəfli inkişaf etmiş şəxsiyyətlər yetişdirməkdən ibarətdir. Bu vəzifənin həyata keçirilməsində elm, təhsil, tərbiyə, informasiya və mədəniyyət funksiyalarını yerinə yetirən və zoruri sosial institut kimi fəaliyyət göstərən kitabxanaların da özünəməxsus rolu və yeri vardır.

Oxuculara kitabxana xidmətinin başlıca məqsədi insan şəxsiyyətinin hərtərəfli inkişafını təmin etmək, hər bir kəsin intellektual, mənəvi-əxlaqi və fiziki cəhətdən özünütəsdiqinə imkan yaratmaq, həyati fəaliyyətin bütün sahələrində oxucuların kamilləşməsinə yardım göstərməkdir. Oxucu şəxsiyyətinin azad şəkildə hərtərəfli və ahəngdar inkişafı həyatın obyektiv şərtləri, cəmiyyətin və insanın inkişaf tələbatları ilə müəyyənləşir.

Şəxsiyyət problemi elmin və təcrübənin əbədi mövzularından biri kimi bütün dövrlərdə ideoloji mübarizənin diqqət mərkəzində dayanmışdır. O, həm ən çox araşdırılan, ən çox tədqiq edilən, həm də hər zaman dərindən təhlilə ehtiyacı olan problemlərdən biridir. Belə ki, ictimai varlıq, həyat şəraiti və sosial mühit daim dəyişmədə və inkişafda olduğundan, müxtəlif mahiyyət, məzmun və təzahür formaları kəsb etdiyindən, onların yaratdığı şəxsiyyətlər də dinamikdir, dəyişmədə və inkişafdadır.

Həmin problemin tədqiqi ilə məşğul olan bir sıra filosoflar və sosioloqlar bu fikirdədirlər ki, şəxsiyyətin qərarlaşması və inkişafı prosesini bütövlükdə "sosiallaşma" termini ilə ifadə etmək lazımdır. Çünki "sosiallaşma" anlayışı əslində həm "tərbiyə", həm "inkişaf", həm də "formalaşma" anlayışını özündə əks etdirir. Məsələn, tanınmış rus psixoloqu Q.Andreyevanın "Sosial psixologiya" adlı kitabında, müəlliflər kollektivinin hazırladığı "Sosial psixologiya" adlı dərs vəsaitində bu məsələ öz həllini tapır. Q.Andreyeva yazır: "Sosiallaşma prosesi məzmununa görə şəxsiyyətin qərarlaşması prosesidir. Bu proses insanın həyatının ilk dəqiqələrindən başlayır" (10, s. 33).



"Sosial psixologiya" adlı dərs vəsaitinin müəllifləri də sosiallaşma anlayışını bu cür izah edirlər. Onların fikrincə, şəxsiyyətin sosiallaşması dedikdə əslində şəxsiyyətin tərbiyəsi, formalaşması, inkişafı, ahəngdarlığı, universallığı və bütövlüyündən ibarət geniş və kompleks bir proses başa düşülür (13, s. 77-78).

Professor A.Ayzenberqin redaktorluğu ilə nəşr olunmuş "Kitabxana xidməti: nəzəriyyə və metodika" adlı dərslikdə də bu anlayış "şəxsiyyətin sosiallaşması" kimi ifadə olunmuşdur (12, s. 37).

Kitabxanaşünaslıqda kitabxanaların sosial rolu haqqında 80-ci illərin əvvəllərində danışmağa başlamışlar. Bu gün həmin anlayış şüurlarda daha da möhkəmlənmişdir.

Çap kommunikasiyası forması kimi kitab daha güclü sosiallaşma təsirinə malikdir. Kitab, bir qayda olaraq, ötüb keçmiş informasiyaları özündə saxlayır, sosial və elmi təcrübəni toplayır, daha dərin və xüsusi təsir göstərmək imkanına malik olur, eyni zamanda müəllifin şəxsiyyətini açıq-aydın nümayiş etdirir.

Qədim dövrlərdən başlayaraq görkəmli söz ustaları və dahi mütəfəkkirlər şəxsiyyətin hərtərəfli inkişafında kitabın əhəmiyyətini yüksək dəyərləndirmiş, onu əvəzsiz mənəvi qida adlandırmışlar. Kitab həmişə çörəyə bərabər tutulmuş, müqəddəs sayılmış, nəsillərdən-nəsillərə yadigar qalan əvəzsiz əmanətə çevrilmişdir. Əsrlər keçdikcə kitabın təsir gücü və qüdrəti daha da artmış, bəşər mədəniyyətinin ən dəyərli incisi kimi öz qiymətini qoruyub saxlamışdır.

Bədii kitab, bədii ədəbiyyat incəsənətin müxtəlif növlərinin sintezi olaraq qəbul edilir. Ona görə də bədii ədəbiyyat özünün sosiallaşma funksiyasını ikiqat həyata keçirir: həm kütləvi informasiya vasitəsi kimi, həm də incəsənətin xüsusi növü kimi şəxsiyyətin ahəngdar inkişafına kömək göstərir.

İncəsənətin, o cümlədən bədii ədəbiyyatın şəxsiyyətə təsiri çoxcəhətli və tamamilə səmərəlidir. İncəsənət vasitəsi ilə təlqin edilmiş sosial rol haqqında təsəvvür real gerçəkliklə fasiləsiz qarşılıqlı əlaqədə çıxış edir. Əgər sınaq həyatda davam gətirmirsə, onda bütün sosiallaşma prosesi pozulur, incəsənətə inam itir və "incəsənət – şəxsiyyət" kommunikasiya sistemi dağılır.

Bununla bağlı olaraq görkəmli psixoloq L.Vıqotski incəsənəti "insanın dünya ilə tarazlaşdırılması vasitəsi" kimi qiymətləndirir (12, s. 38).

Fərdin sosiallaşması prosesində incəsənətlə qarşılıqlı ünsiyyət mühüm rol oynayır. Mənimsənilmiş incəsənət əsərini müzakirəyə çıxarmaq tələbatı müxtəlif metodlarla: insanın öz qavrayışını ətrafındakıların qavrayışları ilə müqayisə etməyə cəhd göstərməsi; öz statusunu müəyyən mikromühitdə təsdiq etmək arzusuna düşməsi; başqa adamların fikrinə təsir göstərmək istəyində bulunması və s. kimi metodlar vasitəsi ilə diqtə edilə bilər. Ünsiyyətdə daha səmərəli tələbat bədii və sosial kamilliyin ilkin (ibtidai) mərhələsində meydana çıxır.

İncəsənətin sosiallaşma təsirinin ən mühüm cəhəti ondan ibarətdir ki, o, insanın təkcə konkret-tarixi sosial həyat sisteminə deyil, həm də ümumiyyətlə bəşəriyyətin mənəvi inkişaf sisteminə daxil olmasına kömək göstərir. O, yalnız müasirliklə deyil, eyni zamanda keçmiş dövrlərin zəngin mədəni sərvətləri ilə də əlaqə yaradır, insanı ucu-bucağı görünməyən, intəhasız əbədi varlığın iştirakçısına çevirir. Xarici ölkə xalqlarının yad mədəni sərvətləri ilə, görkəmli əcnəbi yazıçıların məşhur bədii əsərləri ilə ünsiyyət şəxsiyyətə milli mədəni dəyərlərin mahiyyətini dərk etməyə və bütün dünya mədəniyyətinin zənginliklərini görməyə imkan yaradır.

Təəssüflə qeyd etmək lazımdır ki, bu gün kitabın və mədəniyyətin ali məqsədi o qədər də yüksək səviyyədə dərk edilmir. Mədəniyyət, o cümlədən bədii ədəbiyyat ağır vəziyyətə düşmüşdür. Uzun illər ərzində sovet ideologiyasının, kommunist partiyası ideyalarının dəmir məngənəsi arasında sıxılmış müasir ədəbiyyat bədii yaradıcılığın mənəvi-əxlaqi mahiyyətini əhəmiyyətli dərəcədə itirmiş, əsasən xidmət göstərən alətə çevrilmişdir. Sovet hakimiyyəti illərində meydana çıxmış "sosializm realizmi" anlayışı xalqın sosializm ideyaları uğrunda mübarizəsini əks etdirən və bədii sözün qüvvəsi ilə bu mübarizədə iştirak edən sovet ədəbiyyatının və qabaqcıl dünya ədəbiyyatının əsas metodu kimi qələmə verilmişdir (4, s. 160). Bu metod əsasında yazıb-yaradan sovet yazıçılarının təbliğ etdiyi və nümunə göstərdiyi idealın əsasını kommunist partiyasının rəhbərliyi ilə kommunizmə doğru hərəkət təşkil edirdi.

Sovet yazıçılarının 1934-cü ildə keçirilmiş I qurultayında qəbul olunmuş tərifə görə, sosializm realizmi sənətkardan varlığı doğru-dürüst, tarixən konkret, inqilabi inkişafda göstərməyi tələb edirdi. Varlığın bədii təsvirinin düzgünlüyü və tarixən konkretliyi zəhmətkeşlərin ideyaca dəyişdirilib sosializm ruhunda tərbiyə edilməsi vəzifələri ilə birləşməli idi. Sosializm realizminin ədəbiyyat və incəsənətə yaradıcılıq təşəbbüsü göstərmək, rəngarəng formalar,



üslublar və janrlar seçmək üçün misilsiz imkanların verdiyi xüsusi vurğulanırdı.

Sosialist idealı sovet ədəbiyyatında yaranan yeni tipli müsbət qəhrəmanların simasında özünün bədii ifadəsini tapırdı. İctimai inkişafın əvvəlki mərhələlərində mümkün olmayan şəxsiyyət və cəmiyyət arasındakı birlik, sovetlər ölkəsində şərəf, qəhrəmanlıq və rəşadət məqamında olan kollektiv azad, yaradıcı və qurucu əməyin pafosu, yüksək sovet vətənpərvərliyi, sosialist vətəninə məhəbbət hissi, partiyalılıq, həyata kommunist münasibəti bu müsbət surətin səciyyəvi xüsusiyyəti idi.

Sosializm realizmi metoduna əsaslanan görkəmli yazıçı və şairlərdən Maksim Qorkinin "Ana", Vladimir Mayakovskinin "Vladimir İliç Lenin", "Yaxşı", "20-ci illərin lirikası", Aleksandr Fadeyevin "Tarmar", "Gənc qvardiya", Mixail Şoloxovun "Sakit Don", Cəfər Cabbarlının "Almaz", "Aydın", Səməd Vurğunun "26-lar", "Partiyamızdır", "Rəhbərə salam", Süleyman Rüstəmin "Ələmdən nəşəyə", Rəsul Rzanın "Lenin" və başqa əsərləri bədii fikir tarixində yenilik kimi dəyərləndirilirdi. Bu gün cəsarətlə demək olar ki, sənətkarlıq baxımından yüksək səviyyədə yaradılmış həmin ədəbi örnəklər müəlliflərin dünyagörüşünün, əqidəsinin, istedadının, mədəniyyətinin, inamının ifadəsi kimi meydana çıxmış və sovet dövründə onlara böyük şöhrət qazandırmışdı.

Təbii ki, kütləvi kitabxanaların qarşısında duran əsas vəzifələrdən biri də məhz sosializm realizmi metodu əsasında yazılmış bədii ədəbiyyat nümunələrini oxucular arasında məqsədyönlü şəkildə təbliğ etməli, həyatverici kommunizm ideyaları ilə aşılanmış nikbin ruhlu sovet ədəbiyyatı və incəsənətinin böyük tərbiyəvi rolunu açıqlamalı və geniş oxucu kütləsini bu əsərləri oxumağa ruhlandırmalı idi.

Əlbəttə, həm keçmiş zamanlarda, həm də sovet dövründə yaşayıb-yaratmış, ümumbəşəri ideallara sadiq qalmış söz ustalarının zəngin bədii irsi hakimiyyəti qane etmədiyindən, bu əsərlərin geniş oxucu kütləsinə çatdırılmasına xüsusi qadağalar qoyulmuş, sədlər çəkilmişdi. Nəticədə oxucuların çoxu saxtalaşdırılmış, gerçəkliyi təhrif etmiş bədii əsərləri oxumaq məcburiyyətində qalır, yavaş-yavaş buna alışır, həqiqi sənət əsərlərinin mütaliəsi üçün heç bir cəhd göstərmirdi. Kitabxanalar xarici ölkələrin tərəqqipərvər, inqilabçı yazıçılarından Martin-Andersen-Heksenin "Qalib Pellə", Anri Barbüsün "Od", Con Ridin "Dünyanı sarsıdan on gün", habelə dünya poeziyasının klassikləri Pablo Nerudanın, Nazim Hikmətin və başqalarının yaradıcılığının böyük bir hissəsini də sosializm realizmi ədəbiyyatının parlaq nümunələri kimi təbliğ edirdilər.

Hazırda şəxsiyyətin yüksək səviyyəli, bəşəri əhəmiyyətli ədəbiyyat və incəsənət aləminə qaytarılması ən mühüm vəzifə kimi qarşıda durur. Bu, həm də ona görə vacibdir ki, indi kütləvi kitabxanaların fondunda saxlanılan və müxtəlif yaş qrupuna daxil olan oxucuların istifadəsinə verilən saxta ədəbiyyat və incəsənət əsərləri heç də zərərsiz deyil. Bu zərərli əsərlər oxucuların dünyagörüşünə və mənəviyyatına sosial təsir göstərmək imkanına malikdir. Lakin bu təsir faydalı yox, dağıdıcı, qüsurlu təsirdir və sonralar istər ayrı-ayrılıqda bu kitabları mütaliə edən hər bir oxucunun taleyində, istərsə də bütövlükdə cəmiyyət həyatında özünü mütləq büruzə verəcəkdir. Ona görə də kütləvi kitabxanaların fondlarına əsaslı şəkildə yenidən baxılmalı, zərərli ideyalar təbliğ edən saxta ədəbiyyat və incəsənət əsərləri fonddan çıxarılmalı, yenidən komplektləşdirmə məsələsi həmişə diqqətdə saxlanılmalıdır.

Şəxsiyyətin formalaşması prosesində kitabxanaların fəaliyyətində əsas yeri zəngin Azərbaycan şifahi xalq ədəbiyyatı incilərinin və çoxşaxəli Azərbaycan klassik ədəbayyatı örnəklərinin təbliği əsas yer tutmalıdır. Fikrimizi bu cür əsaslandıra bilərik:

-Şifahi ədəbiyyat əsrlər boyu xalqın kollektiv əməyi nəticəsində yaranan zəngin bədii sənət inciləri xəzinəsi kimi öz dəyərini həmişə saxlaya bilir. Azərbaycan xalqının müxtəlif zamanlarda yaratdığı bənzərsiz holavarlar, sayaçı sözləri, məsəllər, tapmacalar, atalar sözləri, yanıltmaclar, bayatılar, nağıllar, dastanlar, nəğmələr, lətifələr, əfsanələr, rəvayətlər və s. əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə keçərək bu günümüzə gəlib çatmışdır. Xalqımızın gündəlik həyatı, gələcək idealları ilə bağlı olan arzu və istəkləri, azadlıq uğrunda mübarizəsi, yadelli işğalçılara nifrəti, yenilməzliyə və qəhrəmanlığa çağırış və s. folklorda özünün parlaq ifadəsini tapmışdır ki, bütün bunlar da gənc nəslin mənəvi cəhətdən düzgün formalaşmasında və kamil şəxsiyyət kimi yetişməsində mühüm rol oynaya bilər;

-Şifahi xalq ədəbiyyatının ən böyük və zəngin qolunu təşkil edən aşıq yaradıcılığı forma, məzmun, üslub baxımından orijinal və təkrarolunmaz olduğuna görə, başlıcası isə bütün dövrlərdə siyasi ideologiyadan kənarda yarandığına və xalqın istəklərini ifadə etdiyinə görə gənc nəslin tərbiyəsində müstəsna əhəmiyyət kəsb edə bilər. Uşaqlar, yeniyetmələr və gənclər aşıq poeziyasını, həmçinin dastan yaradıcılığını sərbəst mütaliə etməklə öz nitq qabiliyyətlərini inkişaf etdirə, lüğət fondlarını zənginləşdirə, xalq danışıq dili vərdişlərinə yiyələnə bilərlər;

-Şifahi xalq ədəbiyyatı ilə yanaşı olaraq, klassik ədəbiyyat nümunələri də elə əvəzolunmaz mənəvi dəyərləri özündə əks etdirir



ki, bu dəyərlərin bir hissəsi sonralar müəyyən səbəblər ucbatından itirilmişdir. Klassik şair və yazıçıların əsərləri ən dərin və fikir duyğuların tükənməz mənbəyi kimi oxucular arasında geniş yayılmalıdır. Təbii ki, bu zaman kitabxanaçı seçmə üsuluna əsaslanmaqla yalnız müasir dövrün tələblərinə cavab verən örnəklərin təbliğinə mühüm yer ayırmalıdır;

-Məhz şifahi xalq inciləri və klassik ədəbi irs xalqımızın hərtərəfli sosial həyat təcrübəsinin əvəzsiz xəzinəsi olduğundan həm də şəxsiyyətin kamilləşməsi, yetkinləşməsi, yəni sosiallaşması problemi ilə sıx bağlıdır ki, bu cəhət də kitabxanaçının diqqətindən yayınmamalıdır.

Əlbəttə, kütləvi kitabxanalar müasir dövrdə yaranan bədii ədəbiyyat nümunələrini təbliğ etmədən səmərəli fəaliyyət göstərə bilməz. Lakin sadaladığımız çətinliklər müasir bədii ədəbiyyatın oxucular arasında yayılmasına çox ciddi münasibət göstərməsini tələb edir. Bu, nə ilə bağlıdır?

-Qeyd etdiyimiz kimi, sovet hakimiyyəti illərində yaradılmış çoxsaylı və çoxjanrlı bədii ədəbiyyat nümunələrinin əksəriyyəti ideoloji əyintilərə məruz qalmış, zamanın və rejimin tərənnümçüsünə çevrilmiş, Marksın, Engelsin, Leninin, Stalinin, kommunist partiyasının, sosializm təntənəsinin, kommunizm ideallarının təbliğatçısı rolunu oynamışdır. Hazırda həmin əsərlərin müstəqil Azərbaycan dövlətini quran gənc nəsil arasında yayılması ən azı milli ideologiyamız baxımından zərərlidir. Ona görə də həmin kitabların depozitar fondlara verilməsi məsələsi Mədəniyyət Nazirliyi səviyyəsində öz həllini tapana qədər kitabxanaçılar bu əsərləri oxuculara təbliğ etməməli və ya məcburiyyət qarşısında qaldıqda çox ehtiyatla aydınlaşdırıcı məlumat verməlidirlər;

-Hazırda Azərbaycanda 7 dövlət və 100 özəl nəşriyyat, həmçinin 100-ə yaxın özəl mətbəə fəaliyyət göstərir. Müşahidələrimiz göstərir ki, bu nəşriyyat və mətbəələrin fəaliyyəti heç bir qurum tərəfindən tənzimlənmədiyinə və onların işinə nəzarət edilmədiyinə görə kitab nəşri, o cümlədən bədii ədəbiyyat nəşri pərakəndə xarakter almışdır. Bədii cəhətdən çox zəif, sənətkarlıq nöqteyi-nəzərindən sönük, süjeti, ideyası, məzmunu qarmaqarışıq olan üzdəniraq əsərlərin kitab şəklində çap olunması və kitabxanalara yol tapması hələlik çoxunun dərk etmədiyi ciddi təhlükədən xəbər verir. Azərbaycan Dövlət Kitab Palatasında qeydə alınmayan, respublika Kitabxana Kollektoruna daxil olmayan, Beynəlxalq Standart Kitab Nömrəsi (ISBN) və nəşriyyat qrifi olmadan müəllifin və ya sponsorun vəsaiti hesabına işıq üzü görən bu cür yararsız üzdəniraq kitablar təkcə həyat

həqiqətlərini, gerçəklikləri təhrif etmir, ən başlıcası böyüməkdə olan gənc nəslin mənəviyyatına, əxlaqına, dünyagörüşünə ağır zərbə vurur. Apardığımız müşahidələrdən aydın olur ki, bir sıra kitabxanalar imzası heç kimə tanış olmayan üzdəniraq müəlliflərin pul gücünə nəşr etdirdikləri bayağı məzmunlu, fəqət yüksək bədii tərtibatlı kitablarını əvəzini ödəmədən həvəslə alıb fonda daxil edir, oxucular arasında yaymağa çalışırlar. Daha acınacaqlı bir fakt: kitabxanalar sənətə, bədii ədəbiyyata dəxli olmayan bu cür kitabların təqdimat mərasimlərinin keçirilməsi təşəbbüsü ilə də çıxış edir, nəticədə bilərəkdən gənc nəslin bədii-estetik zövqünü korlayırlar;

-Ermənistanın Azərbaycan torpaqlarının bir hissəsini işğal etməsi və xalqımızın erməni təcavüzkarlarına qarşı mübarizə aparması son zamanlar bədii ədəbiyyatda hərbi vətənpərvərlik mövzusunun güclənməsinə səbəb olmuşdur. Bu, tamamilə təbiidir. Lakin tanınmış şair və yazıçılarımızdan Bəxtiyar Vahabzadənin, Vidadi Babanlının, Məmməd Arazın, Xəlil Rzanın, Zəlimxan Yaqubun və başqalarının az sayda əsərlərini çıxmaq şərti ilə, bu mühüm mövzu nədənsə digər məşhur yazıçılarımızın yaradıcılığına daxil ola bilməmiş, nəticədə həvəskar adamlar meydan sulamağa başlamışlar. Müharibə haqqında səthi məlumatı olan, döyüş səhnələrini yalnız televizorda müşahidə edən, hətta döyüş texnikasını və silahları bir-birindən fərqləndirə bilməyən bu cür həvəskarlar bədii ədəbiyyatı özfəaliyyət sahəsi sayaraq qələmə sarılmış, müharibədəki "uğurlarımızı" nəsrdə və nəzmdə bədiiləşdirməyə cəhd göstərmiş və təbii ki, uydurmaçılıqdan, sözçülükdən uzağa gedə bilməmişlər. Ən pis cəhət isə budur ki, bu cür yalançı vətənpərvərlər müqəddəs şəhidlik adından sui-istifadə edərək şəhidlərin guya xatirəsini əbədiləşdirmək məqsədi ilə saxta əsərlər yazmış, onları öz kanalları vasitəsi ilə təbliğ etmiş, hətta kitabxanalara da yol tapa bilmişlər. Bütün bu əyintilərin qarşısını almaq üçün kitabxanaçılar əsl sənət əsərini saxtakarlıqdan seçməyi, oxucular arasında ən yaxşı hərbi-vətənpərvərlik ədəbiyyatını təbliğ etməlidirlər;

-Digər bir problem qəzet və jurnal səhifələrində müntəzəm dərc edilən kiçik həcmli şer, hekayə, satira və s. kimi səviyyəsiz yazıların geniş oxucu kütləsinin mənəvi aləminə mənfi təsiri ilə bağlıdır. Son məlumata görə, Azərbaycanda 600-ə yaxın dövri mətbuat orqanı qeydə alınmışdır ki, faktik olaraq onlardan 150-yə yaxını ardıcıl nəşr olunur. Bu kütləvi informasiya vasitələrinin çoxu öz səhifələrində hazırlıqsız oxucuların şer yaradıcılığına geniş yer verir. Üslub, ifadə, dil, məzmun, məna, ideya və s. baxımından çox dayaz olan, əruz, heca, yaxud sərbəst vəzndə yazıldığı belə müəmmalı qalan, qafiyələri uyğun gəlməyən, süni hiss və həyəcanları bəlağətlə ifadə edən bu cür quraşdırma qoşqular, çox təəssüf ki, kitabxanalarda keçirilən kütləvi tədbirlər zamanı daha tez-tez səsləndirilir. Kitabxanaçılardan bəziləri kimin və ya nəyinsə xatirinə belə uydurmaları uşaqlara əzbərlətdirir, beləliklə, onların bədii zövqlərini korlayırlar. Kütləvi tədbirlər üçün şer seçilərkən yalnız yüksək sənətkarlıqla yazılmış əsərlərə, insanlara xoş duyğular, gözəl hisslər aşılayan şerlərə üstünlük verilməlidir;

-Müşahidələrimiz göstərir ki, son zamanlar həm xarici ölkələrin, həm də Azərbaycanın dövlət və özəl televiziya kanalları bitib-tükənmək bilməyən teleseriallar nümayiş etdirməklə tamaşaçı ordusu qazanmağa səy göstərirlər. Əsasən Meksikanın, Argentinanın, Braziliyanın və başqa yad ölkələrin yabançı mədəniyyətlərini bayağı şəkildə tamaşaçılara sırıyan, onları intizarda saxlamaq və filmin davamına baxdırmaq üçün ailə-məişət mövzusunda uydurulmuş əhvalatları qəsdən gözlənilməz yerdə saxlayan, xalqımızın milli mentaliteti ilə bir araya sığmayan açıq-saçıq səhnələr göstərən bu cür serialların birbaşa təsiri ilə Azərbaycanda bir qrup işbaz jurnalistlər də yazıçılıq iddiasına düşmüşlər. Onlar həmin seriallarda gördükləri hadisələri Azərbaycan psixologiyasına və Azərbaycan mühitinə uyğunlaşdırmağa cəhd göstərməklə çalışdıqları qəzet və jurnalların səhifələrini heç bir müsbət bədii məziyyəti olmayan şablon, yeknəsəq "roman", "povest" və s. kimi materiallarla doldurur, beləliklə, gənc nəslin mənəviyyatına zərbə vururlar. Əgər bunlarla yanaşı, uydurma cinayət xarakterli yazıları da qeyd etsək, onda cəmiyyətimizdə hansı uçurumların yaranmasını aydın təsəvvür edə bilərik. Odur ki, kitabxanaçılar özlərinin bədii-estetik hazırlıqlarının səviyyəsini artırmaqla bu cür mənfi proseslərin qarşısını almağa çalışmalı, bədii ədəbiyyata dəxli olmayan saxta söz yığınını əhatə edən kitabların zahiri cəlbediciliyinə aldanmamalı, yalançı qafiyəpərdazlığı əsl poeziyaya qarışdırmamalı, hər hansı yeni bir kitabı təbliğ etməzdən əvvəl onun ideya və məzmunu ilə yaxından tanış olmalı, Azərbaycan ədəbiyyatının ən yaxşı nümunələrinin oxucular arasında geniş yayılmasına səy göstərməlidirlər.

Bədii ədəbiyyatın dərk edilməsi geniş və çoxcəhətli anlayışdır. Onun tam şəkildə mənimsənilməsi və qavranılması o zaman başlayır ki, hər bir oxucu incəsənət aləmində yaşayır, xalqımızın və digər xalqların misilsiz bədii sərvətləri ilə yaxından tanış olur, gözəlliyi başa düşməyə, ruhən təmizlənməyə, saflaşmağa və zənginləşməyə səy göstərir.

Bu mənada gənc nəslin yetkin şəxsiyyət kimi püxtələşməsində bədii ədəbiyyatın rolu müqayisəyə gəlmir. Ona görə də bu mühüm məsələyə hər zaman xüsusi diqqət yetirilməlidir.

Təəssüf ki, müşahidələrimiz və araşdırmalarımız kitabxanalarda bədii ədəbiyyatın təbliğinin heç də yüksək səviyyədə aparılmadığını təsdiqləyir. Bir sıra kitabxanalar bu sahədə müəyyən uğurlar qazansalar da bütövlükdə onların fəaliyyətini qənaətbəxş qiymətləndirmək mümkün deyil. Bəzi kitabxanalarda isə bədii ədəbiyyatın təbliği probleminə olduqca laqeyd yanaşır, əyani və şifahi kütləvi tədbirləri yalnız hesabat xətrinə təşkil edir, şair və yazıçılarımızın əsərlərinin məqsədyönlü təbliğinə təsadüfdən-təsadüfə, ən çox isə onların yubileyləri ərəfəsində müraciət edirlər.

Bu sahədə nəzərə çarpan nöqsanları aradan qaldırmaq və bədii ədəbiyyatın təbliğini daha da yaxşılaşdırmaq məqsədi ilə irəli sürdüyümüz təkliflər və tövsiyələr kitabxanalarımızın gələcək fəaliyyətində müsbət rol oynaya bilər:

- müasir dövrdə kütləvi kitabxanaların ümumi kitab fondunun 47-55 faizini (bəzi kitabxanalarda bu rəqəm artıb-azalır) bədii ədəbiyyat nümunələri təşkil etsə də, oxucular bu fonddan səmərəli istifadə etmək iqtidarında deyildir. Bu, bir tərəfdən müxtəlif oxucu qruplarının dünyagörüşü, mütaliə mədəniyyəti, ümumi hazırlıq səviyyəsi, maraq dairəsi, həmçinin sosial-demoqrafik əlamətləri (yaş, peşə ixtisas, təhsil və s.) və şəxsi keyfiyyətləri ilə bağlıdırsa, digər tərəfdən, kitabxanaların passiv fəaliyyəti, oxucuları cəlb edə bilməməsi, öz işini düzgün qurmaq üçün yollar aramaması, mövcud iqtisadi çətinlikləri bəhanə gətirməsi, çıxış yolları axtarmaması və s. kimi səbəblərlə əlaqədardır. Hər bir kitabxana işin səmərə və keyfiyyətini yaxşılaşdırmaq məqsədi ilə konkret tədbirlər hazırlayıb həyata keçirməli, bədii ədəbiyyatın təbliği sahəsində dönüş yaratmağa çalışmalıdır;
- kitabxanaların bədii ədəbiyyat fondunun düzgün komplektləşdirilməsi diqqət mərkəzində saxlanılmalı, imkan daxilində kitabxana fondu yeni nəşr edilmiş ən yaxşı bədii kitablarla zənginləşdirilməlidir;
- kitabxanaların bədii ədəbiyyat fondunun oxucular qarşısında daha məqsədyönlü açılması, ən yaxşı əsərlərin oxucuların istifadəsinə verilməsi üçün səmərəli yollar axtarıb tapılmalıdır;



- dünya və Azərbaycan ədəbiyyatı klassiklərinin əsərləri həmişəyaşar olduğundan onların təbliği kitabxanaçıların diqqətində durmalı və geniş yayılmalıdır;
- şair və yazıçıların əsərlərindən ən yaxşıları seçilib təbliğ olunmalıdır;
- kütləvi tədbirlər yalnız yubileydən yubileyə deyil, bütün ilboyu təşkil edilməlidir;
- bədii ədəbiyyatın təbliği hər cür bayağılıqdan və şablonçuluqdan uzaq olmalıdır;
- hazırda Azərbaycan müharibə içində olduğuna, azğın düşmənlərimizin – ermənilərin təcavüzünə məruz qaldığına, müstəqil, bütöv, bölünməz, azad Vətən uğrunda mübarizə apardığına görə kitabxanaçılar hərbi vətənpərvərlik mövzusunda yazılmış klassik və müasir bədii əsərlərin təbliğinə xüsusi diqqət yetirməli, Qarabağ müharibəsi mövzusunda ayrıca kitab yazan şair və yazıçılarla oxucuların görüşünü təşkil etməli, həmin əsərlərin ayrı-ayrı tədris ocaqlarında, müəssisələrdə və başqa yerlərdə geniş müzakirəsini keçirməli, milli vətənpərvərlik tərbiyəsinin düzgün aparılmasına öz köməklərini göstərməlidirlər;
- kitabxanaçılar bədii ədəbiyyatın təbliği zamanı yalnız geniş yayılmış ənənəvi kütləvi iş forma və üsullarının tətbiqi ilə kifayətlənməməli, müəyyən zəhmət və yaradıcılıq tələb edən yeni metodlara, həmçinin bir-birinin sintezindən ibarət olan tədbirlərə də müraciət etməlidirlər;
- uşaq kitabxanalarında kütləvi tədbirlər keçirilərkən uşaqların yaş qrupu mütləq nəzərə alınmalı, onlar bir-birinə qarışdırılmamalıdır;
- şifahi kütləvi tədbirlər keçirilərkən əvvəlcədən nəzərdə tutulmuş vaxt müddətinə dəqiq əməl olunmalı, onların gedişi süni şəkildə uzadılmamalıdır;
- bədii ədəbiyyatın təbliği formalizmə, əllaməçiliyə deyil, həyat həqiqətinə, reallığa əsaslanmalıdır;
- tədbirlərin hazırlanması və keçirilməsi zamanı əvvəlki dövrlərdə formalaşmış yuxarıdan idarəolunma stereotipinə yol verilməməli, oxucuların sərbəst fikir söyləməsinə və müstəqil, azad mülahizələrlə çıxış etməsinə imkan yaradılmalıdır;
- millilik, torpağa sevgi, yurda bağlılıq, müstəqilliyə inam, azərbaycançılığa ehtiram, türkçülüyə qayıdış, adət-ənənələrə hörmət, düşmənə nifrət aşılayan bədii kitabların təbliği ön plana çəkilməlidir;

- insan mənəviyyatına və şəxsiyyətin yetkinləşməsinə əvəzsiz təsir göstərmək qüdrətində olan bədii əsərlərin təbliği kitabxanaçıların gündəlik fəaliyyətinin əsasını təşkil etməlidir;

- son zamanlar yaranmış və geniş yayılmış yeni kitabların təqdimolunma mərasimlərinin – prezentasiyaların təşkilinə xüsusi fikir verilməlidir;

- vaxtilə geniş şöhrət tapmış, oxucuların hədsiz marağına səbəb olmuş ədəbi əsərlərin mühakiməsi üsuluna yenidən müraciət olunması məqsədəuyğundur;

- oxucuları kitabxanaya cəlb etmək məqsədi ilə ən çox bədii kitab oxuyan və ədəbi-bədii irsimizi düzgün qiymətləndirməyi bacaran fəal məktəblilər arasında müsabiqələr keçirilməli və qaliblərə mükafatlar verilməlidir.

*ƏDƏBİYYAT*

*Azərbaycan dilində:*


*1. Aslanov A. İncəsənət və tərbiyə - B., 1967. – 204 s.*
*2. Cəfər M. Estetik zövq haqqında. – B.: Azərnəşr 1965. – 72 s.*
*3. Cəfərov M.C. Estetik tərbiyə, ailə və məktəb. – B., 1967.- 110 s.*
*4. Ədəbiyyatşünaslıq terminləri lüğəti. – B.: Maarif, 1978.- 200 s.*
*5. Əhmədov Ə. Mənəviyyat, gözəllik, tərbiyə. – B.: Maarif, 1993. – 280 s.*
*6. Əlioğlu M. Ədəbiyyatda yeni insan. – B.: Azərnəşr. 1964. – 222 s.*
*7. Həbibov N. Bədii zövq hanqqında. – B.: Azərnəşr, 1967.- 62 s.*
*8. Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixindən (Qədim dövrlərdən başlamış XVIII əsrin axırına qədər). – B. 1986. – 52 s.*
*9. Xələfov A.A. Müasir kitabxanaların sosial funksiyaları //Kitabxanaşünaslıq və biblioqrafiya.-1999.-№ 2.- S. 3-32.*


*Rus dilində:*


*10. Андреева Г. Социальная психология. – М., 1973. – 230 с.*
*11. Библиография художественной литературы и литературоведение. М: Книга, 1971.-400 с.*
*12. Библиотечное обслуживание: Теория и методика. - М., 1996.- 200 с.*
*13. Социальная психология.- М., 1977. - 220 с.*




**Князь АСЛАН**

***Пути совершенствования методов пропаганды художественной литературы***

**Резюме**


В этой статье автор утверждает, что нравственное состояние общества на совершенном этапе побуждает работников культуры, в том числе библиотекарей искать новые, более эффективные формы и метода пропаганды всех жанров художественной литературы. Определенное место в чтении читателей детских и массовых библиотеках (детей и молодежи) должно занять древнее азербайджанское народное творчество, а также классические письменные произведения Азербайджана, которые помогут им осознать себя наследниками национальной культуры общества, позволит почувствовать преемственность поколений, их духовную общность.

По мнению автора, все традиционные и нетрадиционные формы и метода пропаганды художественной литературы должны быть ориентированы и на включение в работы с читателями всех многообразных жанров фольклора и др.

*Gülyanaq VERDİYEVA*
*magistrant*

# AZƏRBAYCAN MİLLİ EA MƏRKƏZİ ELMİ KİTABXANASININ ŞƏRQ ƏDƏBİYYATI FONDUNUN YARANMASI TARİXİNDƏN

Müstəqillik şəraitində yaşadığımız bu günlərdə informasiya blokadasını yarıb Azərbaycan həqiqətlərini dünya dövlətlərinə və ictimaiyyətinə çatdırmaq işində mühüm informasiya vasitələrindən biri olan kitabxanalar da böyük rol oynayır. Azərbaycan Milli EA-nın Mərkəzi Elmi Kitabxanası bu sahədə xüsusilə böyük işlər görür.

Azərbaycan Milli EA Mərkəzi Elmi Kitabxanasının şərq ədəbiyyatı fondunun yaranması kitabxananın yaranması ilə paralel olduğu üçün bu məqalədə kitabxananın yaranması tarixinə də toxunulmuşdur.

Azərbaycan Milli EA-nın Mərkəzi Elmi Kitabxanası Azərbaycanın ilk böyük elmi və mədəni-maarif müəssisələrindən biridir. Kitabxananın yaranması respublikada kadrların hazırlanmasında və elmi fikrin inkişafında mühüm mərkəz olan ali təhsil ocaqları və elmi-tədqiqat idarələrinin meydana gəlməsi və inkişafı dövrünə təsadüf edir. Belə elmi idarələrdən biri "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" idi (9).

Cəmiyyət qısa müddət ərzində öz səmərəli fəaliyyəti ilə şöhrət qazandı, respublikada elmin, maarifin inkişafına müsbət təsir göstərdi, respublikanın tarixini, arxeologiyasını, etnoqrafiyasını və təbii sərvətlərini öyrənmək işində böyük rol oynadı.

"Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" 1923-cü ildə yaradılmışdır. Tezliklə professor A.V.Baqri başda olmaqla Cəmiyyətin tərkibində biblioqrafiya bürosu yaradıldı (1). Büro Cəmiyyətin nəşrlərini mübadilə və ya satınalma yolu ilə toplanmasını təklif etdi. Büronun ilk məqsədi Azərbaycan haqqında nəşr olunmuş materialların əlifba göstəricisini tərtib etməkdən ibarət idi (2). Artıq vahid kitabxana yaratmaq, cəmiyyəti maraqlandıran məsələlərə aid əsərləri bir yerdə cəmləşdirmək ehtiyacı hiss olunurdu. Cəmiyyət tərəfindən 1925-ci ilin yanvarında vahid kitabxana yaratmaq haqqında qərar



qəbul olundu (3). Beləliklə, 1925-ci ilin ortalarında Azərbaycan Milli EA Mərkəzi Elmi Kitabxanasının əsasını təşkil edən Cəmiyyət kitabxanasının yarandığı tarix hesab oluna bilər (4). Bir qədər sonra Cəmiyyət kitabxanası və Biblioqrafik Büronun işində əmələ gələn təkrarçılığı aradan qaldırmaq üçün 1925-ci ilin avqustunda Cəmiyyət Kitabxanası ilə Biblioqrafik büronun birləşdirilməsi həll edildi. Beləliklə kitabxana-biblioqrafiya bürosu yaradıldı (7).

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin 1926-cı ildəki fəaliyyəti haqqında məruzədə göstərilir ki, Cəmiyyətin kitabxanası elmi iş üçün son dərəcədə böyük əhəmiyyətə malik olmuşdur. Həmin ildə də kitabxanada oxu zalı elmi-metodik kabinə təşkil olundu. 1928-ci ildə isə kitabxananın işində fəal iştirak edən alimlərdən ibarət kitabxana komissiyası yaradıldı (5).

1929-cu ildə "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin bazası əsasında Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutu (ADETİ) təşkil olundu (8).

Məlum olduğu kimi, bəhs olunan dövrdə Azərbaycanın tarixinə, etnoqrafiyasına, iqtisadiyyatına, ədəbiyyatına, dilinə, mədəniyyət və incəsənətinə dair ədəbiyyat yox dərəcəsində idi. Buna görə də respublikada qeyd olunan sahələr üzrə elmi-tədqiqat işlərinin geniş şəkildə aparılması ciddi çətinliklərlə qarşılaşırdı. Məhz buna görə də ADETİ-nun kitabxanası qədim əlyazmaların və çap şəklində olan nadir kitabların toplanılıb kitabxananın fonduna daxil edilməsində xeyli iş görmüşdür. Belə ki, həmin dövrdə respublikanın eləcə də ölkənin ayrı-ayrı müəssisələrindən və bir çox şəxsi kitabxanalarından qiymətli ədəbiyyat əldə edilmişdir.

Qafqaza aid qiymətli ədəbiyyata malik olan professor L.Q.Lapatinskinin şəxsi kitabxanası və 1881-1898-ci illərdə Tiflisdə nəşr olunan "Сборник материалов для описания местностей и племен Кавказа" jurnalında bir sıra dəyərli məqalələrlə çıxış etmiş N.D.Kaşevdən qalmış folklora aid materiallar da kitabxananın fonduna daxil edilmişdir. Bu dövrdə kitabxananın fonduna Şərq xalqlarının dillərinə aid bir çox qiymətli əsərlər və əlyazma materialları da daxil edilmişdir.

Kitabxananın fonduna Nizaminin, Xaqaninin, Xosrov Dəhləvinin, Abbasağa Nəzirinin, Qarabağ şairlərinin, "Məclisi-üns" iştirakçılarının da bəzi əsərləri və onların əsərlərinin qədim siyahıları da toplanmışdır. Toplanmış bu ədəbiyyatlar Mərkəzi Elmi kitabxanada Şərq ədəbiyyatı fondunun yaranması üçün baza hesab oluna bilər.

Fondunun universal xarakter daşıması kitabxanada müxtəlif sahələr üzrə şöbələrin yaradılmasına səbəb olmuşdur. Ümumiyyətlə kitabxanada 15 şöbə fəaliyyət göstərir ki, onlardan biri də 1959-cu ildən fəaliyyətə başlayan Şərq ədəbiyyatı fondudur. Qeyd etmək lazımdır ki, bu fondun yaradılması 1958-ci ildə Bakıda Şərqşünaslıq İnstitutunun açılması ilə əlaqədardır (11). Çünki məhz bu ildən sonra böyük kitabxanaların çoxunda şərq ədəbiyyatı şöbələri açılmağa başlandı. Həm Azərbaycanın yerləşdiyi ərazi, həm də Azərbaycan xalqının İran, Türkiyə və ərəb ölkələri ilə tarixən və mədəni cəhətdən yaxın olması, həmçinin Azərbaycan alimlərinin Şərq ölkələrinin aktual problemləri ilə məşğul olmaları belə bir institutun yaradılmasına zəmin yaratmışdır. Bunu nəzərə alaraq Elmlər Akademiyasının Rəyasət heyəti 1959-cu ilin əvvəllərində Akademiyanın Mərkəzi Elmi Kitabxanasında Şərq ədəbiyyatı fondunun təşkilinə başladı, Mərkəzi Elmi Kitabxanada toplanmış bütün şərq dillərində olan ədəbiyyat bu fondun tərkibinə verildi və bu fond Şərqşünaslıq İnstitutunun elmi-tədqiqat işlərinin planına uyğun müvafiq ədəbiyyatlarla komplektləşdirilməyə başlandı.

Şərq ədəbiyyatı fondu yaranarkən onun 2 nəfər əməkdaşı olmuş, fondda isə şərq dillərində cəmi 300 nüsxə ədəbiyyat toplanmışdır.

Şərq ədəbiyyatı fondunun komplektləşdirilməsini genişləndirmək məqsədilə Mərkəzi Elmi Kitabxananın Elmi Metodiki Şurasının qərarı ilə 1970-ci ildə Şərq ədəbiyyatı şöbəsi yaradıldı. Hazırda şöbənin 5 nəfər əməkdaşı var: türkoloq, ərəbşünas, farsşünas, islamşünas və 1 nəfər kitabxanaçı-biblioqraf. Hər bir əməkdaş öhdəsinə düşən vəzifəni dəqiqliklə və ixtisasına olan məhəbbətlə yerinə yetirir. Şərq ədəbiyyatı şöbəsi öz işini illik iş planına uyğun həyata keçirməyə çalışır. Hər il üçün illik iş planı tərtib olunur və şöbə bir il ərzində aşağıdakı işləri həyata keçirməyə çalışır.

Şərq ölkələrindən mübadilə yolu ilə aldığı ədəbiyyatın komplektləşdirilməsi, təsviri və sistemləşdirilməsi, redaktəsi, şərq dillərində əlifba, sistemli, kitab adlarının göstəricisinə görə və xidmət kataloqlarının tərtibi və redaktəsi üzrə işin təşkili, məlumat biblioqrafiya bülletenlərinin ildə iki nömrəsinin hazırlanıb çap edilməsi, şöbəyə daxil olan jurnalların qeydiyyatı, jurnal məqalələrinin təsnifatı, mövzu sərgilərinin təşkilində iştirak etmək, şərq ədəbiyyatı fondunda oxuculara yüksək səviyyəli xidmət, kataloqların yanında növbətçilik, şifahi və yazılı arayışların tərtibi, dövrü mətbuatın kataloqda qeydiyyatı, ərəb, fars, türk, Azərbaycan dilində ərəb əlifbası ilə



alınan ədəbiyyatın aktlaşdırılması, mikrofilmlər və fotosurətlərin kataloqlarına və ərəb əlifbası ilə Azərbaycan dilində olan inqilaba qədərki dövri mətbuata nəzarət, elmi konfranslarda, sessiyalarda iştirak etmək kimi vəzifələri yerinə yetirir (6).

Şərq ədəbiyyatı fondu mütəxəssislər üçün qiymətli və əvəzsiz məxəzlərdən biri olub, nadir kitabların sayına görə Mərkəzi Elmi Kitabxananın ən diqqətəlayiq guşələrindən biridir. Burada Şərqə aid nadir elmi kitablar, məcmuələr, dövrü mətbuat nüsxələri, həmçinin kitabxananın arxiv fondu (1920-ci ilə qədər Azərbaycanda nəşr edilmiş ədəbiyyat) mühafizə olunmaqdadır. İnqilaba qədər və inqilabdan sonrakı dövrlərdə Azərbaycanda nəşr olunmuş kitab və dövrü mətbuatı özündə cəmləşdirən arxiv fondu istifadə baxımından alim və tədqiqatçılar üçün böyük əhəmiyyətə malikdir. Arxiv fondu Azərbaycanda ictimai fikir tarixinin öyrənilməsində müəyyən rol oynayır. Bu fond nəinki Azərbaycan xalqının, eləcə də Yaxın və Orta Şərq xalqının ədəbiyyatının öyrənilməsində böyük əhəmiyyət kəsb edir.

1900-cı ildən başlayaraq nəşr olunan, Azərbaycanda savadsızlığın ləğv olunması uğrunda mübarəzədə istifadə edilən müxtəlif dərsliklər, qiraət kitabları (M.Mahmudbəyovun "Qiraət kitabı", H.Zeynallı və A.Şaiqin "Ədəbiyyat dərsləri" kitabları), həmçinin qədim və orta əsr Azərbaycan ədəbiyyatının nadir nüsxələri, M.Füzulinin "Leyli və Məcnun"u, M.P.Vaqifin, S.Ə.Şirvaninin əsərləri, F.Köçərlinin "Azərbaycan ədəbiyyatı materialları" və s. fondu zənginləşdirən qiymətli əsərlərdir. Bu fondda dünya ədəbiyyatından, o cümlədən rus ədəbiyyatından və Şərq dillərindən tərcümə əsərləri də vardır. Məsələn, "Kəşfül-həqayiq" (Quranın 3 cildlik tərcüməsi), C.Zeydanın "Ərmənusə", "Əzra və Qureyş", Sədinin "Gülüstan", V.Şekspirin "Hamlet", "Otello", A.S.Puşkinin "Kapitan qızı" və s. göstərmək olar. Arxiv fondunda Azərbaycan ədəbiyyatından Ə.Haqverdiyevin, C.Məmmədquluzadənin, H.Cavidin, N.Nərimanovun, Ü.Hacıbəyovun və b. əsərləri də özünə məxsus yer tutur. Arxiv fondunda dövrü mətbuat da mühafizə olunur. Bunlardan "Molla Nəsrəddin", "Maarif və mədəniyyət", "Babayi-Əmir", "Dəbistan", "Şərq qadını", "Haqq yolu" və s. jurnalları göstərmək olar. Arxiv fondunda "Azərbaycan füqərası", "Vətən yolunda" qəzetləri də mövcuddur.

Şərq ədəbiyyatı fondunun xeyli hissəsini ərəb, fars və türk dillərində olan kitab, jurnal və qəzetlər təşkil edir.

Türk bölməsində olan C.Qüdrətin hazırladığı Füzulinin külliyyatı, Ə.Nesinin müasir türkcəyə çevirdiyi "Leyli və Məcnun" (Ankara,

1972), Vilkin Adalının hazırladığı "Aşıq Qərib" (Ankara, 1972), B.Vahabzadənin türk dilinə tərcümə olunan şerləri (bir neçə nəşrdə), Nizaməddin Onkun hazırladığı "Aşıq Ələsgər" kitabı (1964), M.Ə.Sabirin "Hophopnamə" (Ftlfkf, 1975), "Dədə Qorqud kitabı" (bir neçə nəşrdə), "Türkiyə tarixi" (12 cilddə), "İslam ensiklopediyası" və s. türkoloq alimlərin ən çox müraciət etdikləri kitablardır.

Şərq fondunda Yaxın və Orta Şərqdə poeziya dili kimi tanınmış və bir çox klassik şərq şairlərinin dili olan farsca da zəncin elmi bədii kitablar var. Fondun İran bölməsində mövcud olan kitablardan nümunə olaraq "Məhsəti Gəncəvinin divanı" (Tehran, 1342), Ə.Xaqani Şirvaninin "Divan" (Tehran), M.Şəhriyarın külliyyatı, Doktor Əli Zərgərinin nəbatat aləmindən bəhs edən iki cildlik "Reyhanı Daruni" əsəri, Xoca Nəsrəddin Tusinin risabələri, N.Gəncəvinin müxtəlif illərdə nəşr olunmuş "Xəmsə"si, o cümlədən Bombey nüsxəsi (1304), Molla Fətullah Kaşaninin Quranı təfsir edən 5 cildlik "Minhacül Sadiqin" (1346), Məhəmməd Hüseyn Təbrizinin 5 cildlik "Bürhane qate" və s. əsərləri göstərmək olar.

Fondun ərəb bölməsində ümumdünya şöhrəti qazanmış orta əsr ərəb tarixçilərinin, filosoflarının, səyyahlarının, şairlərinin əsərləri saxlanılır. Bunlara misal olaraq Əbu Əli İbn Sinanın "Ən-nicat" (Misir, 1331), İbn əl Əsirin 13 cildlik "Ən-Kamil-fit-tarix", İbn Həcərin 12 cildlik "Təzyubi-təzhib", Təbərinin 8 cildlik "Tarix" və b. əsərlər şərqşünas alimlərin ən çox müraciət etdikləri əsərlərdir (10).

Fondda həmçinin foto-surət, mikrofilm bölmələri, Şərqə aid Qərbi Avropa dillərində olan ədəbiyyat da vardır.

Ümumiyyətlə, Şərq ədəbiyyatı fondu ciddi və gərgin tədqiqatla məşğul olan alimlərin, elm aləmində ilk addımlarını atan aspirantların tələbatını ödəyən qiymətli elmi və bədii əsərlərlə, böyük tarixi əhəmiyyəti olan nadir nüsxələrlə zəngindir.

*ƏDƏBİYYAT*


1. *Azərbaycan Milli EA Arxivi, f. 1, siy. 1, qutu 1, vərəq 4.*
2. *Azərbaycan Milli EA Arxivi, f. 1, siy. 1, qutu 1, vərəq 7.*
3. *Azərbaycan Milli EA Arxivi, f. 1, siy. 1saxlanma vahidi 2, iş 1, vərəq 4-5.*
4. *Azərbaycan Milli EA Arxivi, f. 1, siy. 1 saxlama vahidi 32, vərəq 8-18.*





5. *Azərbaycan EA Mərkəzi Elmi Kitabxanası: Bələdçi / Tərtib ed.: M.M.Həsənova, N.B.Listenqarten. – B.: Elm, 1990. – 68 s.*
6. *Azərbaycan Milli EA-nın Şərq ədəbiyyatı şöbəsinin 1999-cu il hesabatı. – S. 3.*
7. *Багрий А.В. Материалы для библиография Азербайджана: вып. 1. – Б.: 1924. – 87 с.*
8. *Məhərrəmov Ə.B.Azərbaycan SSR Elmlər Akademiyası Əsaslı Kitabxanasında biblioqrafiya işinin yaranması tarixindən (1923-1945) // Elmi əsərlər: Kitabxanaşünaslıq və biblioqrafiya. – B.: ADU, 1974.№2. - S. 52-56.*
9. *Məmmədəliyev Y. Azərbaycanda elmin inkişafı. – B., 1960. – S. 12.*
10. *Məmmədova A.Z., Xəlilova L.A. Fondumuzun nadir nəşrləri və qiymətli kolleksiyaları. – B.: Elm, 1988. – S. 21-28.*
11. *Muradova M.Q. Azərbaycan SSR Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası ilə Yaxın və Orta Şərq ölkələrinin beynəlxalq kitab mübadiləsi. – B.: Elm, 1988. - S. 44-51.*


**Г. Т. ВЕРДИЕВА**

***Из истории становления Фонда Восточной Литературы Центральной научной библиотеки НАН Азербайджана***

**Резюме**


В статье исследуется возникновение первичной коллекции восточных книг в первом исследовательском учреждении в истории Азербайджана – в Обществе изучения и обследования Азербайджана. Отмечается, что это Общество, в котором особое внимание было уделено библиографическим исследованиям, стало последующей базой для Академии Наук Азербайджана. В статье подчеркивается неоценимый вклад профессора А.Багрия в развитие библиографического дела в Азербайджане. В статье последовательно анализируются этапы развития библиотеки, самые важные книжные коллекции, имеющие значение в обогащении Фонда Восточной Литературы.

Статья снабжена богатым фактическим материалом, раскрывающим содержание Фонда Восточной Литературы, ссылками на архивные материалы и научные литературы.

*Yeganə MƏMMƏDOVA*
*Respublika İqtisadçılar İttifaqının redaktoru*

# AZƏRBAYCAN MİLLİ EA MƏRKƏZİ ELMİ KİTABXANASINDA ƏMƏYİN ELMİ TƏŞKİLİ VƏ NORMALAŞDIRILMASININ BƏZİ MƏSƏLƏLƏRİ

Müasir mərhələdə kitabxanalar qarşısında duran ən mühüm məsələlərdən biri əməyin təşkili (ƏET), əməyin normalaşdırılmasıdır. ƏET – əmək məhsuldarlığının artırılması, zəhmətkeşlərin iş qabiliyyətinin möhkəmləndirilməsinin təmin edilməsi, kitabxana-biblioqrafiya ehtiyatlarından tam istifadə edilməsi maddi-texniki bazanın möhkəmləndirilməsi üçün ən effektiv vasitələrdən biridir. ƏET deyilərkən, insanları və texnikanı vahid istehsal prosesində birləşdirən, elmi nailiyyətlərə və qabaqcıl təcrübəyə əsaslanan, hər şeydən əvvəl insanın sağlamlığını qoruyan və onun üçün birinci dərəcəli həyat zərurətinə çevrilən əməyin təşkili başa düşülməlidir. ƏET-in məqsədi daha az məsrəflər sərf etməklə, yüksək məhsuldarlığa nail olmaqdır.

Əmək proseslərinin səmərəliliyində bütün kitabxananın normal fəaliyyəti üçün elmi əsaslandırılmış normaların işlənib hazırlanması və tətbiq edilməsi mühüm rol oynayır. Norma təkcə əməyin ölçüsü deyil, həm də qabaqcıl təcrübənin yayılma vasitəsidir. ƏET-də tətbiq olunan norma istehsal ehtiyatının axtarışına, işin keyfiyyətinin yaxşılaşdırılmasına sövq edir. Normalaşdırma iş vaxtının itkilərini və qeyri-məhsuldar vaxt itkisini aşkar etməyə kömək edir, əməyin bölgüsü və kooperasiyanın düzgün həllinə, elmi şəkildə əsaslandırılmış iş planlarının tərtibinə, kadrların səmərəli istifadə etməyə, əmək intizamını möhkəmlətməyə, şöbələrin, bölmələrin, qrupların, ayrı-ayrı əməkdaşı işçilərin işini obyektiv şəkildə qiymətləndirməyə imkan verir.

Azərbaycan EA Mərkəzi Elmi Kitabxanası bu işlə uzun müddət məşğul olmuşdur. 1986-cı ilin mart ayında kitabxananın Elmi-Metodiki Şurasının qərarı ilə bu işə başlanılmışdır. "Azərbaycan EA Mərkəzi Elmi Kitabxanasında əməyin elmi təşkili və normalaşdırılması" adlı bu elmi-tədqiqat işi başlandığı dövrdən mərhələlərə bölünmüş və müəyyən ardıcıllıqla həyata keçirilmişdir. Bununla əlaqədar olaraq, hazırlıq dövründə ƏET üzrə komissiya təşkil olunmuş, həyata keçiriləcək işlərin proqramı tərtib edilmişdir. Bu komissiyaya Mərkəzi Elmi Kitabxananın hazırlıqlı əməkdaşları, o cümlədən kitabxananın müdiriyyəti, Kitabxanaşünaslıq şöbəsinin bütün işçiləri, şöbə müdirləri və s. daxil edilmişdir. Komissiya köhnə və yeni normaların araşdırılması yollarını müəyyən etmiş, tədqiqat obyektlərində əməyin təşkilinin səviyyəsini öyrənmiş, tədqiqat üzrə sənədlərini hazırlamış, tədqiqat metodlarını və üsullarını işləyib hazırlamışdır. Bu məqsədlə mövzu üzrə keçmiş SSRİ-də və xaricdə ən qabaqcıl kitabxanaların iş təcrübəsi öyrənilmiş, müvafiq ədəbiyyat seçilmiş, mövzu kartotekası yaradılmışdır. Ümumiyyətlə qeyd etmək lazımdır ki, son dövrdə kitabxananın kitabxanaşünaslıq şöbəsi respublikada iri kitabxanaların iş təcrübəsinin öyrənib ümumiləşdirilməsində və tətbiqində müəyyən iş görməkdədir. Bu sahədə kitabxanaya daxil olan bütün ədəbiyyat nəzərdən keçirilir, qabaqcıl iş metodlarını əks etdirən kartoteka yaradılır.

1987-ci ildə şöbənin əməkdaşları əməyin normalaşdırılması təcrübəsini öyrənmək məqsədilə SSRİ EA Təbiət Elmləri Kitabxanasına, Ümumittifaq Dövlət Xarici Ədəbiyyat Kitabxanasına, K.D.Uşinski adına Dövlət Elmi Pedaqoji Kitabxanasına ezam edilmiş, bu kitabxanalarda normalaşdırmanın tətbiq metodlarını, texnoloji kartotekanın quruluşunu və tətbiqini öyrənmişlər. "Proses və əməliyyatların texnoloji kartotekası" hazırlanmış və müzakirə olunmaq üçün kitabxananın şöbələrinə paylanmışdır. Bundan sonra normalaşdırma işi üzrə aşağıdakı materiallar tərtib olunmuşdur: "Azərbaycan EA MEK-da normalaşdırmanın iş planı", "Əməyin elmi təşkili işlərinin aparılması üzrə tədqiqat obyektlərində iş planı", "Mərkəzi Elmi Kitabxana və onun filiallarının əməkdaşları üçün ƏET üzrə yaddaş", "İş gününün işçi tərəfindən fotoqrafiyası", "Əməkdaşların fərdi iş uçotu cədvəli" və s.

Tədqiqatın ikinci mərhələsində normalaşdırmanın metodikası işlənmiş, tədqiqat obyektlərində, yəni şöbələrdə normalaşdırmanın metodikası müəyyənləşdirilmişdir. Həmin şöbələrdə "Yaddaşlar" paylanmışdır ki, bunlarda da ƏET-in məzmunu və bu barədə ədəbiyyat siyahısı verilmişdir. Kitabxananın hər bir işçisi bu "Yad-

daş"la tanış olmuş, komissiya üzvləri ilə əlaqə saxlamış, lazım olduqda məsləhət almışdır.

Tədqiqatın üçüncü mərhələsində eksperiment işləri görülmüşdür. Bu mərhələdə işçilərə anket sorğuları paylanmışdır ki, bunlarda da işçilər özləri haqqında, şöbələrdə işin bölüşdürülməsi, əlaqələndirilməsi, ardıcıllığı, uçotu və s. haqqında ilkin məlumat vermişlər. Anket sorğularında işdə olan çətinliklər və onları aradan qaldırmaq üçün işçilərin verdikləri təkliflər də öz əksini tapmışdır. Aşağıda belə anket sorğusundan birinin nümunəsi verilir:

*Anket*

*şöbə* ______

*vəzifə* ______

*1. Familyası, adı, atasının adı* ______

*2. Doğulduğu tarix* ______

*3. Təhsili (ümumi, xüsusi)* ______

*4. İş stajı* ______

*5. Sizə hansı vəzifələr həvalə olunub? (hər bir yerinə yetirilən əməliyyatın xüsusi çəkisini iş vaxtı büdcəsində sadalamaqla)* ______

______

______

*6. Siz bu və ya digər əməliyyatın ardıcıllığını necə müəyyən edirsiniz?* ______

______

*7. Sizin fikrinizcə şöbə daxilində vəzifələr düzgün bölüşdürülübmü?*

*Siz öz vəzifələrinizdən bir qisminin başqa işçiyə verilməsini səmərəli hesab edirsinizmi?* ______

______

*8. Şöbədə işçilərin bir-birini əvəz etməsi qaydasındadırmı? Siz bilavasitə vəzifənizdən əlavə hansı proses və əməliyyatları mənimsəmisiniz?* ______

______



*10. Siz öz əməyinizin qeydini necə aparırsınız? (bütün formaları göstərmək). Təkmilləşdirməyə dair təklifləriniz?* ______

______

______

*Alınmış cavabların nəticələri komissiya üzvləri tərəfindən təhlil edilmiş, müvafiq hesabat yazılmışdır.*

Bundan sonra bütün işçilər öz iş prosesləri haqqında məlumat vermişlər ki, bu da aşağıdakı metodlarla: xronometraj, iş gününün fotoqrafiyası, komissiya üzvlərinin iştirakı ilə müəyyən olunan fotoqrafiya, ani müşahidələr və s. ilə həyata keçirilmişdir. Qeyd etmək lazımdır ki, bu metodlardan iş gününün fotoqrafiyası iş proseslərini və iş günü ərzində işçinin gördüyü işi daha dolğun əks etdirir. Aşağıda iş gününün fotoqrafiyası metodunda istifadə olunan sxem verilmişdir:

______

*Familyası, adı, atasının adı* ______

*Şöbə (bölmə)* ______ *vəzifə* ______

*Təhsili* ______ *kitabxana stajı* ______

| *Proseslərin adı* | *İşin məzmunu* | *Uçot vahidi* | *Günün I yarısı* | | *Günün II yarısı* | | *Qeyd* |
|---|---|---|---|---|---|---|---|
| | | | *Uçot vahidinə vaxt norması (dəq. san.)* | *1 saatda görülən iş* | *Uçot vahidinə vaxt norması (dəq. san.)* | *1 saatda görülən iş* | |
| | | | | | | | |

Düzdür, bəzi işçilər bu sorğuların üzərində işləyərkən ardıcıllığı gözləməmiş, gördükləri iş prosesləri haqqında ümumi məlumat vermişlər. Belə sorğuların üzərində işlərkən, komissiya üzvləri xronometraj metoduna istinad etmiş, sorğulardakı anlaşılmazlıqları aradan qaldırmışlar. İş gününün fotoqrafiyası metodu ilə aparılan sorğu vərəqələrində işçilər gün ərzində gördükləri iş proseslərini bütün xırdalığına qədər (bir prosesi hər dəfə üç-üç – səhər və günorta təkrar edib orta vaxt normasını hesablamaqla) təsvir etmiş, vaxt normalarını işləmişlər. Bəzən eyni proses ayrı-ayrı işçilərdə müxtəlif variantlarda əks olunmuşdur ki, bu da təbiidir. Tədqiqat aparılarkən, bütün bu variantlar nəzərə alınmış, hər bir proses üçün ən optimal variant seçilmişdir.

Hər bir metod üzrə aparılan tədqiqatlar üçün ayrıca arayış tərtib olunmuşdur ki, bunlar da çatışmazlıqdır və onları doğuran səbəblər müəyyən edilmişdir. Beləliklə, kitabxananın hər bir işçisinin gördüyü iş haqqında tam təsəvvür yaranmışdır. Qeyd etmək lazımdır ki, digər respublikalarda bu iş bizdən bir qədər əvvəl həyata keçirilmiş, normalar işlənib hazırlanmışdır. Bu sahədə xeyli material toplanmış və SSRİ EA Təbiət Elmləri Kitabxanası, Ukrayna EA Mərkəzi Elmi Kitabxanası, Moldova EA Mərkəzi Elmi Kitabxanası tərəfindən işlənib hazırlanmış normalar bizim kitabxananın normaları ilə müqayisəli şəkildə araşdırılmışdır. Müəyyən olunmuşdur ki, çox vaxt bizim iş prosesində aldığımız normalar onların normalarından xeyli fərqlənir. Bu da onunla əlaqədardır ki, hər bir kitabxana öz normalarının üzərində işləyərkən, bu normaları fərdi şəraitə, vaxta uyğunlaşdıraraq hazırlayır.

Beləliklə, çox mərhələli tədqiqatın nəticəsində kitabxananın bütün iş prosesləri şöbələr üzrə ardıcıllıqla bölüşdürülmüş, normalar işlənib hazırlanmışdır. 1992-ci ildə isə normalar kitab halında çapdan buraxılmışdır. Kitabda icra olunan bütün iş prosesləri, onların icrasının məzmunun, işin həcminin ölçü vahidi, həmin işi görməyə sərf edilən vaxtın norması və bir saat ərzində norma öz əksini tapmışdır. Vaxt norması – bir tədbirin (kitab sərgisi, oxucu konfransı və s.), bir prosesin (bir kitabın verilişi, işlənməsi və s.), bir əməliyyatın (ştempelin vurulması, nəşrin inventara yazılması və s.) görülməsinə sərf olunan vaxt, istehsal norması – müəyyən vaxt ərzində (1 saat, 1 dəq., 1 gün və s.) görülə biləcək əməliyyatların, proseslərin sayını göstərir. Vaxt norması məlum olduqda istehsal normasını və əksinə hesablamaq mümkündür. Kitabın "Qeydlər" bölməsində müəyyən iş prosesinin xüsusiyyətləri göstərilmişdir. Elə



iş prosesləri var ki, bunlar bir neçə şöbə tərəfindən təkrar olunur. Bu vaxt kitabda da həmin proses onu icra edən şöbələrin hamısında öz əksini tapmışdır ki, bu da kitabdan istifadə etməyi asanlaşdırır. Qeyd etmək lazımdır ki, ola bilər ki, eyni prosesə ayrı-ayrı normalar verilsin. Bunu hər bir şöbənin spesifik xüsusiyyətləri ilə izah etmək olar. Həm də bu zaman ilk baxışda eyni görünən iş prosesinin məzmununda və icra vaxtında da fərqlər ola bilər.

Kitabda normalaşdırılması mümkün olmayan işlər də öz əksini tapmışdır. Çünki, kitabxana işinin planlaşdırılmasında, hesabatlar yazılarkən, həmin iş növləri mütləq nəzərə alınmalıdır. Bəzi biblioqrafik, metodik və tədqiqat işlərində, onların mürəkkəbliyini nəzərə alaraq, normalar təxmini, yəni "p"-dən "p"-dək verilmişdir. Məsələn, metodik vəsaitlərin tərtibi, müəyyən mövzuda məqalənin yazılması, biblioqrafik arayışların tərtibi, kitab icmallarının hazırlanması, oxu planlarının tərtibi və s.

Çap olunmuş kitab kitabxananın rəhbərliyi və işçiləri üçün nəzərdə tutulmuşdur. Ondan aşağıdakı məqsədlər üçün istifadə etmək olar: kitabxanada fərdi və ya şöbənin, kitabxananın planını hazırlamaq, müəyyən tapşırığı yerinə yetirmək, bölmə və yarımbölmələrdə elmi işlərin əsaslandırılması, işçilərin əmək məhsuldarlığına nəzarət, kitabxanada, şöbə və bölmələrdə ştatların sayını müəyyənləşdirmək, hər bir işçinin nə qədər iş icra etdiyini görmək və s. Onu da qeyd etmək lazımdır ki, həmin kitab hazırlanarkən, bilavasitə şöbə müdirləri ilə məsləhətlər keçirilmişdir.

Tədqiqatın gedişində əmək proseslərinin səmərələşdirilməsi üçün əməyin qabaqcıl metod və üsullarının, kitabxananın imkanları daxilində müasir texniki iş vasitələrinin tətbiq edilməsinə xüsusi diqqət yetirilmişdir. Bundan başqa, iş yerlərinin rahatlığı, sanitar-gigiyenik qaydalara uyğun olaraq şəraitin yaxşılaşdırılması, fiziki və emosional yüklənmənin azaldılması, əmək və istirahət rejiminin yaradılması və s. nəzərə alınmışdır.

Tədqiqatın yekun mərhələsi texnoloji kartotekanın tərtibi ilə başa çatmışdır. Texnoloji kartoteka (TK) kitabxananın bütün iş proseslərini bütünlükdə və hər bir prosesi ayrılıqda, ardıcıllığı ilə əks etdirməyə, hər bir işçinin sərf etdiyi qeyri-məhsuldar vaxt itkisini, nə dərəcədə yüksəldiyini və ya boş dayanmasını görməyə imkan verir.

Kitabxananın bu və ya digər şöbəsinə qəbul edilən hər bir işçi bu kartoteka ilə tanış olarkən, istər işləyəcəyi şöbənin, istərsə də, bütünlükdə işi ilə tanış ola bilər. Belə ki, bu kartoteka şöbənin bütün

iş proseslərini ardıcıllıqla göstərir, hər bir prosesin hansı əməliyyatlardan ibarət olmasını, hər bir əməliyyatın hansı metodlarla yerinə yetirilməsini, vaxt normalarını, işin kim tərəfindən icra olunmasını aydın surətdə əks etdirir. Habelə, bir işçi müəyyən səbəbdən işdə yoxdursa, başqa bir işçi TK-nı nəzərdən keçirməklə onun işinin öhdəsindən tam gələ bilər.

Bütün şöbələrin TK-larının ümumi birləşmiş kartotekası kitabxananın ümumi işinin məzmununu əks etdirir. TK-nın ixtisasın təkmilləşdirilməsində də olan rolunu qeyd etmək yerinə düşərdi. Kitabxanalarda əməyin bölgüsü təkcə vəzifələrin bölüşdürülməsi ilə məhdudlaşmır. Struktur yarımbölmələrdə işçilərin bir-birini əvəz etməsini təmin etmək lazımdır ki, bu da hər bir işçidən onun üçün yeni olan iş əməliyyatlarının öyrənməsini tələb edir. Əməyin bölgüsü zamanı hər bir kitabxana işçisinin şəxsi marağı, qabiliyyəti və s. nəzərə alınır. İşin həcminin uçotu, normalar üzrə ona sərf edilən vaxtın hesablanması əməyi düzgün bölüşdürməyə ayrı-ayrı işçilərin artıq yüklənməməsinə, iş vaxtından səmərəli istifadə etməsinə və əmək intizamının möhkəmlənməsinə imkan verir. Bununla belə ƏET bir dəfəlik yaradılmış və dondurulmuş forma kimi qalmamalıdır. İş şəraitinin dəyişməsi, elmi-texniki tərəqqinin gündəlik fəaliyyətə tətbiqi daim ƏET üzrə tədbirlərin yenidən işlənməsi və tətbiq edilməsi kimi vəzifəni hər bir kitabxananın qarşısına qoyur. Yeni normaların tətbiqində isə kitabxanaların öz yaradıcılıq axtarışı, ixtisas səviyyəsi, dünyagörüşü və s. öz müsbət təsirini göstərir.

***Zöhrab ƏLİYEV***
*pedaqoji elmlər namizədi, professor*

# 1920 – 1930–cü İLLƏRDƏ AZƏRBAYCANDA XÜSUSİ BİBLİOQRAFİYA

Biblioqrafiya əməli fəaliyyət sahəsi kimi mənəvi və maddi dəyərləri əks etdirən müxtəlif növ sənədlərdən, o cümlədən də çap əsərlərindən insanların səmərəli istifadəsinə köməklik göstərir. O, sənəd kommunikasiyaları sistemində* vasitəçilərdən biri olmaqla sənədlərdə verilən mətnlərin mövcudluğu, tərkibi, forma və məzmunu haqqında cəmiyyət üzvlərinə biblioqrafik informasiya çatdırır. Biblioqrafiya müasir dövrdə böyük əhəmiyyətə malikdir və o, öhdəsinə düşən bu mühüm funksiyanı müxtəlif formalarda təzahür edən biblioqrafik informasiya vasitəsilə həyata keçirir. Biblioqrafik informasiyanın cəmiyyətdə zahiri təzahür formasının əsasını vəsaitlər təşkil edir. Burada biblioqrafik informasiyanın dəyərləndirmə funksiyasının əməli olaraq həyata keçirilməsində mühüm əhəmiyyət kəsb edən və 1920–30–cu illərdə Azərbaycanda meydana gəlmiş xüsusi biblioqrafik vəsaitlərdən bəhs olunacaq. Əgər indiyə qədər dünyada və həm də Azərbaycanda meydana gəlmiş çoxlu miqdarda biblioqrafik vəsaitləri əks etdirən avtomatlaşdırılmış məlumatverimi bazasının yaradılması vacib hesab edilsə, onda keçmişin müxtəlif istiqamətli biblioqrafik informasiya nəşrlərinin meydana çıxarılaraq təhlil olunmasının elmi-təcrübi əhəmiyyəti aydın təsəvvür edilər.

Doğrudur, həmin dövrdə Azərbaycanda sənədlərin və onlardan istifadə edənlərin bilavasitə obyekt kimi nəzərə alınması ilə tərtib

---

* *Qeyd: V.A. Fokeyev. 1995-ci ildə çap etdirdiyi «Природа библиографического знания» adlı monoqrafiyasında «Qeydə alınmış mətn – insan» sistemi ifadəsini işlədir (Moskva, 1995. – S. 88).*

olunan, konkret xidmət sahəsinə, beləliklə, konkret məqsəd və oxucu istiqamətinə malik olan biblioqrafik mənbələr mövzu əhatəliklərinə, həcmlərinə görə və say etibarilə çox azdır. Lakin onların hər biri o dövrün mühüm biblioqrafik hadisəsidir.

Məlumdur ki, biblioqrafik fəaliyyət ictimai istiqamətinə görə iki əsas sahəyə ayrılır: ümumi və xüsusi biblioqrafiya. Xüsusi biblioqrafiya özü–özlüyündə xidmət etdiyi sahələrdən (elmi–tədqiqat, idarəetmə, istehsalat, təhsil, şəxsi təhsil, fasiləsiz təhsil, tərbiyə işləri və s.) asılı olaraq iki növə ayrılır. Elmi–köməkçi və tövsiyə biblioqrafiyası.

Nəzərdə tutulan dövrdə xüsusi biblioqrafiyanın hər iki növünün inkişafı üçün zəmin var idi və belə biblioqrafik informasiya mənbələrinə tələbatı əmələ gətirən amillər özünü göstərirdi. Savadsızlığın aradan qaldırılması, ümumtəhsil məktəblərinin getdikcə artması, şəxsi təhsil sisteminin formalaşması (1, s. 83 və 2, s. 488) elmi-tədqiqat və tədris müəssisələrinin meydana gəlməsi, elmi axtarışların getdikcə mütəşəkkilləşməsi buna misal ola bilər. 1923–cü ildə Azərbaycanda Tədqiq və Öyrənmə Cəmiyyətinin yaradılması, onun Azərbaycanın təbii sərvətlərinin, məhsuldar qüvvələrinin inkişaf yollarının, tariximizin, arxeologiya, etnoqrafiya, dil problemlərinin öyrənilməsi sahəsindəki fəaliyyəti elmi–köməkçi biblioqrafik tələbatın genişlənməsinə səbəb olur. Sonralar bu cəmiyyət Azərbaycan Dövlət Elmi–Tədqiqat İnstitutuna çevrilir (1929). Onun bazasında keçmiş SSRİ Elmlər Akademiyasının Zaqafqaziya filialının Azərbaycan şöbəsi (1932–ci il), daha sonra Azərbaycan filialı yaranır (1935) (4, s.12, 15, 19, 23). Təbiidir ki, bununla Azərbaycanda elmi–tədqiqat fəaliyyəti getdikcə intensivləşir və bu sahənin biblioqrafik informasiya təminatı mühüm bir problemə çevrilir. Lakin biblioqrafik fəaliyyətin əlaqədar sahəsinin təşkilində, gedişində və əlaqədar problemin həllində mütəşəkkillik heç dərəcəsində idi.

1920–ci illərin xüsusi xarakterli biblioqrafik əsərlərindən biri, həm də dövrünə görə əsaslısı A.V.Baqrının «Qafqaz xalq ədəbiyyatı: Biblioqrafik göstərici üçün materiallar» adlı vəsaitidir. Göstəricinin yaradılmasında əsas məqsəd Qafqaz universitetində dərs deyən müəllimlərin və təhsil alan tələbələrin xalq ədəbiyyatı haqqında biblioqrafik informasiya tələbatlarının ödənilməsinə kömək etməkdən ibarət olmuşdur. A.V.Baqri əsərinə verdiyi müqəddimədə biblioqrafik inforsmasiyaya yaranan tələbatı əmələ gətirən səbəbi



şərh edir. O yazır ki, «Qafqaz universiteti xalq ədəbiyyatı müəllimləri yerli folkloru öyrənmədən keçinə bilməzlər. Bu sahədə mənim qruplarla məşğələm bir şeyi aydınlaşdırır ki, tələbələr üçün layiqli biblioqrafik vəsait yox dərəcəsindədir və ya olanlar tamamilə köhnəlmişdir» (3, s. 3-4). Bununla biblioqrafik vəsaitin konkret məqsəd və oxucu istiqamətinə malik olduğu, biblioqrafiyaşünaslıq baxımından xüsusiliyi aydın şəkildə özünü büruzə verir. Bu göstərici müəllifin çox səmərəli və dərin araşdırmasının, biblioqrafik axtarışının nəticəsidir. O, mövzu ilə əlaqədar mövcud kitabları və böyük məqalə kütləsini əhatə etmişdir. Axtarış mənbələrinin həcmi haqqında təsəvvür yaratmaq üçün onu qeyd etmək kifayətdir ki, o, mövzu ilə bağlı təkcə məqalələri müəyyənləşdirmək üçün 51 adda jurnal və qəzetə müraciət etmişdir. Göstəricinin daxili quruluşu müqəddimədən, ixtisarların siyahısından, biblioqrafik təsvirlər toplusundan (əlifba prinsipi ilə) və mövzu göstəricisindən ibarətdir.

Biblioqrafik göstəricidə müəllim və tələbələr üçün əhəmiyyətli olan əsərlərin seçilib əks olunmaları təbiidir. Lakin Qafqaz respublikalarına məxsus olan əsərlərin qarışıq verilməsi, heç olmazsa onların respublikalar üzrə qruplaşdırılmaması oxucuların həmin vəsait üzrə biblioqrafik axtarışlarını xeyli çətinləşdirir. Buna baxmayaraq bu nəşr Qafqaz, həmçinin Azərbaycan xalq ədəbiyyatı haqqında ilk biblioqrafik informasiya mənbəyi kimi indi də öz təcrübi əhəmiyyətini itirməyib.

20–ci illərin xarakterik biblioqrafik vəsaitlərindən biri Ali İqtisadi Şuranın «İqtisadi Xəbərlər» adlı jurnalına həsr olunmuşdur. Respublikamızın və qonşu ölkələrin iqtisadi həyatından bəhs edən məqalələrin dərc olunduğu bu jurnalın tərkibini açan biblioqrafik vəsaitin məqsədi hər şeydən əvvəl iqtisadiyyat sahəsində elmi tədqiqatla məşğul olan oxuculara kömək etməkdən ibarət idi. Göstəricinin tərtibi zəruriliyi belə izah olunur: haqqında məlumat verilən məqalələrdən bəziləri çoxdan nəşr olunmasına baxmayaraq hələ də öz əhəmiyyətlərini itirməyiblər. Bu məqalələrdən istifadə olunur və gələcəkdə də olunacaqdır. Məhz buna görə Ali İqtisadi Şura bu biblioqrafik vəsaiti tərtib etməyi lazım bilmişdir.

Jurnalın 1921–1925–ci illər üzrə nömrələrinin məzmununu əks etdirən biblioqrafik göstəricidə biblioqrafik təsvirlərin düzülüşü üçün xronoloji prinsir əsas götürülür və onlar jurnaldakı ardıcıllıq sırası ilə verilir.

Haqqında bəhs olunan bu vəsait Azərbaycanda iqtisadiyyata dair biblioqrafik vəsaitlər sahəsində ilk mənbədir. O, iqtisadiyyat üzrə dövrün retrospektik biblioqrafik axtarışı üçün indi də yeganə informasiya mənbəyi olaraq qalır.

1930–cu illərdə konkret məqsədə xidmət edən biblioqrafik informasiya mənbələrinin mövzularında həm keyfiyyət, həm də kəmiyyət dəyişikliyi baş verir. Keyfiyyət dəyişikliyi dövrün tələblərinə uyğun mövzu aktuallığı ilə bağlıdır. Tibbə və neftə dair mövzular üzrə ədəbiyyatın biblioqrafik fəaliyyət obyektinə çevrilməsi bunu sübut edir. Həmin illərdə təkcə təbabətlə bağlı üç adda biblioqrafik vəsait meydana gəlmişdir. Məşhur tibb mütəxəssisi M.Ə.Əfəndiyev tərəfindən belə vəsaitlərin tərtib olunması həmin sahə üzrə informasiya tələbatçılarının biblioqrafik mənbələrin köməkliyinə ehtiyacları olduğunu bir daha təsdiq edir.

30–cu illərdə respublikamızda təbabət sahəsində mühüm problemlərdən biri malyariya xəstəliyinə qarşı mübarizə olub. Bu mübarizədə həm mütəxəssislər, həm də əhali üçün müvafiq ədəbiyyata böyük tələbatın olduğunu nəzərə alan M.Ə.Əfəndiyev lazımi axtarışlar aparmış və əldə etdiyi müvafiq ədəbiyyat haqqında biblioqrafik vəsaitlər buraxmışdır. Bu vəsaitlər M.Ə.Əfəndiyevin çox ciddi və çətin axtarışları sayəsində başa gəlmişdir. Mövzularla əlaqədar materialları müəyyənləşdirmək üçün o, Bakı şəhərindəki mühüm kitabxanalarla yanaşı Moskva, Tiflis, Pyatiqorsk kitabxanalarında da biblioqrafik araşdırmalar aparmalı olmuşdur.

M.Ə.Əfəndiyevin ilk biblioqrafik vəsaiti «Azərbaycanın iqlim balneoqrafiyası haqqında biblioqrafik məlumat» (8) adlanır (1932). O, burada təxminən 100 il ərzində, yəni 1830–1930–cu illərdə çapdan çıxmış 242 adda ədəbiyyatın biblioqrafik təsvirini vermişdir. Bunun vasitəsilə Azərbaycanın kurort yerlərindən bəhs edən materiallar haqqında biblioqrafik informasiya almaq mümkündür. Vəsaitin daxili quruluşu belə bir ardıcıllığa əsaslanmışdır: Əvvəl haqqında məlumat verilən əsərlərin biblioqrafik təsvirləri müəlliflərin familiyasına görə əlifba ilə verilir, sonra isə onlar bəhs etdikləri coğrafi adlara və mövzulara görə qruplaşdırılır. Məsələn, 1. Abşeron, 2. Azərbaycanın kurort yerlərindən ümumiyyətlə bəhs edən ədəbiyyat, 3. Azərbaycanın palçıq vulkanı, 4. Culfa, 5. Zaqatala, 6. İstisu, 7. Qarabağ, 8. Azərbaycanın iqlimi, 9. Ümumiyyətlə Azərbaycanın kurortu (Lənkəran), 10. Azərbaycanın mədən suları (Naftalan, Suraxanı, Xaldan, Şamaxı). Biblioqrafik təsvirlərin bu cür iki üsulla verilməsi xeyli



təkrarçılığa səbəb olur. Lakin onun ikinci hissəsi Azərbaycanın kurort yerləri və müalicə suları haqqında nə qədər maraqlı ədəbiyyat əks etdirdiyini göstərir. Burada «Azərbaycan təbabət jurnalı», «Курортное дело», «Немецкий врачебный журнал», «Kavkaz» kimi dövri nəşrlərdən götürülmüş materialların biblioqrafik təsvirlərinə rast gəlmək olar.

Vəsaitdə yardımçı aparat kimi əhatə olunan ədəbiyyatda adları çəkilən mədənlərin, müalicə suları məxəzlərinin və rayonların əlifba siyahısı verilir.

M.Ə.Əfəndiyevin ikinci biblioqrafik vəsaiti 1936–cı ildə çap olunmuşdur (9). «Azərbaycanın tropik xəstəlikləri üzrə biblioqrafik məlumat» adlanan vəsaitdə Azərbaycan, rus və digər xarici dillərdə (xüsusilə alman dilində) XIX əsrin 20–ci illərindən 1934–cü ilə qədər çapdan çıxmış 494 adda material öz əksini tapmışdır. Məsələn, bu biblioqrafik vəsait vasitəsilə 1828 (9, s. 313), 1861 (9, s. 311), 1863 (9, s. 306), 1864-cü (9, s. 306) illərin mövzu ilə əlaqədar nəşrləri haqqında biblioqrafik informasiya almaq olar.

M.Ə.Əfəndiyevin malyariya xəstəliyinə həsr olunmuş üçüncü biblioqrafik vəsaiti (7) tropik xəstəliklər üzrə biblioqrafik məlumatının davamı kimi 1941–ci ildə çap olunmuşdur. Burada əvvəlkilərdən fərqli olaraq əlaqədar dissertasiyaların biblioqrafik təsvirləri də öz əksini tapmışdır. Əhatə olunan 498 ədəbiyyatdan 18–i dissertasiyadır. Bunlar 1933–cü ilə qədər Azərbaycan Dövlət Tibb İnstitutunda müdafiə olunmuş dissertasiyalardır. Dissertasiyaların biblioqrafik vəsaitdə əhatə olunmasının ilk təşəbbüskarı Azərbaycanda məhz *M.Ə.Əfəndiyevdir.*

Vəsaitdə jurnal və qəzet materialları üstünlük təşkil edir. «Kavkaz» qəzetindən (1864), Qafqaz təbabət cəmiyyətinin «Təbabət» məcmuəsindən (1872) və b. götürülmüş materiallar haqqında biblioqrafik informasiya almağa imkan yaradılmışdır.

Adları çəkilən bu göstəricilər Azərbaycanda təbabət üzrə ədəbiyyatın biblioqrafiyalaşdırılmasına ilk təşəbbüsün nəticəsi kimi qiymətləndirilməlidir. Bunun da həmin sahə üzrə elmlər doktoru, görkəmli mütəxəssis M.Ə.Əfəndiyevin adı ilə bağlı olması biblioqrafik fəaliyyətdə mühüm hadisədir. Biblioqrafiyanın sənəd kommunikasiyaları sistemindəki danılmaz rolunun bir sahə mütəxəssisi tərəfindən layiqincə qiymətləndirildiyinin parlaq nümunəsidir.

Dövrün bir mühüm biblioqrafik informasiya mənbəyi «Azərbaycan neft təsərrüfatı» jurnalına həsr olunmuşdur. Y.D.Quryeviç tərə-

findən tərtib olunmuş bu göstəricidə 1920-1930-cu illərdə jurnalda dərc olunmuş məqalələr əhatə edilir (5). Göstərici iki hissədən ibarətdir: 1. Sistemli göstərici; 2. Əlifba göstəricisi.

Göstəricinin biblioqrafik təsvirləri məqalələrin mövzularına görə sistemli əks etdirdiyi hissəsində məzmuna görə axtarış təmin edilmişdir. Məs.: 1. Neft geologiyası; 2. Ümumi geologiya petroqrafika, poleantologiya; 3. Qazma işi; 4. İstismar və s.

İkinci hissədə məqalələrin sərlövhəsi əsas götürülür və biblioqrafik təsvirlərin düzülüşündə onların əlifba sırasına riayət edilir. Ona görə də bu hissəyə müəlliflərin familiyalarının əlifba siyahısı da əlavə olunmuşdur.

Ümumiyyətlə, göstəricidə 2690 məqalənin biblioqrafik təsviri toplanmışdır. «Azərbaycan neft təsərrufatı jurnalı»na həsr olunmuş bu göstərici respublikanın neft tarixi ilə maraqlanan mütəxəssislər və başqa oxucular üçün indi də əhəmiyyətli biblioqrafik mənbə ola bilər.

Xüsusi biblioqrafiyanın bir növü də tövsiyə biblioqrafiyasıdır. Tədqiq olunan illərdə tövsiyə biblioqrafiyasının da bəzi rüşeymlərinə təsadüf edilir. 1920–ci illərdə tövsiyə biblioqrafiyası Azərbaycan Maarif Komissarlığının Baş Siyası Maarif İdarəsinə həvalə olunmuşdur. Lakin o, bu məsələ ilə məşğul ola bilməmişdir, yəni onun tərəfindən xüsusi bir tövsiyə biblioqrafik vəsaiti buraxılmamışdır. O illərdə çıxan jurnal və qəzetlərdə isə ara–sıra tövsiyə siyahıları dərc olunurdu. Məsələn, «Həmkarlar ittifaqı» (rus dilində «Труд») jurnalı bu cəhətdən bir qədər fərqlənirdi. 1926–cı ildə jurnalda «Biblioqrafiya» şöbəsi açılır və onun vəzifəsi yeni çapdan çıxmış əsərləri tövsiyə etməkdən ibarət olur. Tövsiyə siyahıları annotasiyalı tərtib edilirdi. «Труд» jurnalının 1927–ci ilin 10–cu nömrəsində «Çağırışçılar üçün ədəbiyyat» adı ilə dərc olunmuş 4 səhifəlik tövsiyə siyahısı buna misal ola bilər.

1928–ci ildə tövsiyə biblioqrafiyasının bir janrı olan «Oxucuya yaddaş» meydana gəlir. Rus dilində çıxan bu vəsait M.Qorkiyə həsr olunmuşdur (60 illik yubileyi münasibətilə).

20–ci illərin axırında tövsiyə biblioqrafiyası sahəsində ən mühüm hadisə «Mülahizəli kataloq» adlı vəsaitin meydana gəlməsi ilə əlaqədardır. AHİŞ–in mədəni–maarif şöbəsi tərəfindən 1929–cu ildə çap olunan bu irihəcmli biblioqrafik vəsait (tərtib edənləri M.H.Rzaquluzadə və Ə.Y.Əliyev) nümunəvi kataloq funksiyasına malik idi və başlıca olaraq kitabxana işçiləri üçün nəzərdə tutulurdu. Onu tərtib edənlər tərəfindən yazılan girişdə deyilirdi: «... Biz biblioqrafik



materiala olan ehtiyacı nəzərə alaraq bir mülahizəli kataloq nümunəsinə başladıq... Bu kataloqu bir kitab kimi kitabxanadan alıb evdə asudəcəsinə oxumaq mümkündür» (10, s. 3).

Göstəricinin titul vərəqəsində say işarəsinin (1) qoyulması və girişdə söylənilən bəzi mülahizələr belə qənaətə gəlməyə əsas verir ki, onun ardının davam etdirilməsi və seriyalarla buraxılması nəzərdə tutulubmuş. Lakin cəmi bir sayı çapdan çıxmışdır və bu da bədii ədəbiyyatı və bəzi ədəbiyyatşünaslıq materiallarını əks etdirmişdir.

«Mülahizəli kataloq» adlı bu nəşri heç də birbaşa tövsiyə biblioqrafik vəsaiti hesab etmək olmaz. Belə ki, orada mövzu ilə bağlı bütün kitabların əhatə olunması prinsipi əsas götürülmüşdür. Lakin o, elə bir üsulla tərtib olunmuşdur ki, bunun vasitəsilə əks olunan ədəbiyyatın müəyyən meyarlarla qiymətləndirilərək seçilməsinə imkan yaradılmışdır. Bu seçilmə şərti işarələr vasitəsilə həyata keçirilir. Qiymətləndirmə üçün iki əsas meyar nəzərə alınır. Birinci, oxucunun səviyyəsinə uyğunluğu, ikinci isə əsərlərin əhəmiyyətli olma dərəcəsi. Birincinin şərti işarəsi rum rəqəmləri, ikincinin şərti işarəsi üstəgəl, sıfır və çıxma işarələridir. Məsələn, 1. Az hazırlıqlı, mütaliəyə yeni başlayan oxucular və ya I-II. Azacıq məlumatı olan, qəzet və bəzən ədəbiyyat mütaliə edənlər üçün və ya + ən çox tövsiyə olunan əsərləri, $+^{0}$ tövsiyə olunan, lakin bəzi nöqsanları olan kitablar və ± tövsiyə olunmayan kitabları bildirilir.

Biblioqrafik yazı təsvirdən, annotasiyadan, indeksdən, müəllif işarəsindən və müvafiq şərti işarədən ibarətdir. Əvvəl biblioqrafik təsvir, annotasiya, sonra isə şifrələr, şərti işarələr ($\frac{897}{A.45}$ II-III +0) (10, s.7) verilir. Biblioqrafik təsvirdə həm məcburi və həm də bəzi fakültətiv ünsürlər nəzərə alınır (məsələn, kitabın qiyməti göstərilir).

Kataloqda 72 adda orijinal, 78 adda tərcümə (cəmi 150 adda) kitabları əks olunub. Bunlardan cəmi 29 adda əsər, o cümlədən M.F.Axundovun, M.Ə.Sabirin, C.Londonun əsərləri ən çox tövsiyə olunan, yəni heç nöqsanı olmayan əsərlər sırasındadır.

Vaxtilə bu göstəricidən kitabxanalarda çox istifadə olunub. M.Ə.Sabir adına Bakı Şəhəri Kütləvi Kitabxanasının da bu biblioqrafik mənbədən istifadə etdiyi müəyyənləşdirilmişdir.

İkinci böyük göstərici 11 il sonra meydana gəlir. «Uşaq ədəbiyyatı» (Tərtib edəni X.Abdullayeva) (1920) göstərici Azərbaycan Respublikası Xalq Maarif Komissarlığı Elmi–Tədqiqat Məktəblər İnstitutu tərəfindən çap olunub. Müəllimlərə, kitabxana işçilərinə və

həm də valideynlərə uşaqların məktəbdənkənar mütaliələrinə rəhbərlik məqsədi güdən ilk tövsiyə vəsaiti kimi diqqəti cəlb edən bu biblioqrafik göstərici Azərbaycanda tövsiyə biblioqrafiyasının inkişafı tarixində mühüm yer tutur. Göstəricinin giriş hissəsində çox düzgün olaraq qeyd edilir ki, «ancaq uşaq kitabı nəşr etmək azdır, bu kitabları ... məktəblilərə çatdırmaq, onların malı etmək lazımdır. Bunun üçün sinifdən xaric oxunu düzgün təşkil etmək, uşaqların kitaba olan maraqlarını və bu sahədəki tələblərinin yerinə yetirilməsinə çalışmaq lazımdır» (11, s.3).

Göstəricidə cəmi 32 adda əsər qeydə alınıb, onların çox məhdud olan biblioqrafik təsvirləri qısa və uşaqların başa düşəcəyi dildə yazılmış annotasiya ilə müşayiət olunub.

Məsələn, R.Nigar. Kəndli və qurd nağılı (11, s.25).

Vəsaitin daxilində biblioqrafik təsvirlərin düzülüşündəki qeyri–ardıcıllıq onun mütaliəyə rəhbərlik vəsaiti kimi əhəmiyyətinə mənfi təsir göstərir. Doğrudur, annotasiyalardan sonra həmin kitabın neçənci sinif şagirdi üçün nəzərdə tutulduğu qeyd olunur. Lakin bu halda da ardıcıllıq pozulur. Məsələn, II–III sinif şagirdləri üçün tövsiyə olunan əsərlərin biblioqrafik qeydlərinə 5, 9, 11–ci səhifələrdə rast gəlmək olur.

Buna baxmayaraq uşaq ədəbiyyatı sahəsində və həm də uşaqların mütaliəsinə rəhbərlik məqsədilə tərtib olunan bu tövsiyə vəsaitinin respublikanın biblioqrafik ehtiyatlar sistemində müəyyən yeri var.

Qeyd etmək lazımdır ki, hər iki vəsait sovet dövrünün məhsuludur və ona məxsus ideologiya çərçivəsindən kənara çıxa bilməmişdir. Birinci növbədə biblioqrafiyanın partiyalılığı onun inkişafını istiqamətləndirən əsas prinsip idi və bu özünü tövsiyə biblioqrafiyasında daha qabarıq şəkildə büruzə verirdi. Orada haqqında məlumat verilən əsərlərin kommunist partiyalılığı baxımından qayələri ön sıraya çəkilirdi və onların qiymətləndirilməsində əsas amil hesab edilirdi. Ona görə də haqqında bəhs olunan tövsiyə xarakterli biblioqrafik vəsaitlər müasir baxımdan öz aktuallıqlarını bir qədər itirmiş hesab edilə bilər. Lakin onlar Azərbaycan biblioqrafiyası tarixində danılmaz faktlardır və həm də biblioqrafiyaşünaslıq baxımından əhəmiyyətli olan bəzi cəhətləri diqqətəlayiqdir. Xüsusilə biblioqrafiyalaşdırma metodikasında indi də əhəmiyyətli ola biləcək üsullar az da olsa mövcuddur. Məsələn, kodlaşdırma üsuluna ilk dəfə «Mülahizəli kataloq» adlı vəsaitdə (1929) təsadüf edilir. Uşaq mütaliəsinin biblioqrafik baxımdan istiqamətləndirilməsi və



idarə olunması «Uşaq ədəbiyyatı» adlı tövsiyə vəsaitinin (1940) əsas qayəsidir və s.

Bununla nəzərdə tutulan dövrdə xüsusi biblioqrafiyanın təşkilində və inkişafında əldə olunmuş bəzi nailiyyətlər haqqında müəyyən təsəvvür yaradıldı. Lakin ümumi nəticəni belə səciyyələndirmək yerinə düşər.

1. Tədqiq olunan dövrdə xüsusi biblioqrafiyanın inkişafı epizodik xarakter daşıyırdı və müəyyən sistemliliyə meyl çox az idi.

2. Xüsusi biblioqrafik fəaliyyət təşkilati baxımdan da zəif idi. Yəni onun ayrı–ayrı sahələrilə məşğul olan mərkəzlər, demək olar ki, yox dərəcəsində idi. Tövsiyə biblioqrafiyası ilə məşğul olan mərkəzlərin müəyyənləşdirilməsində bəzən səhvlərə də yol verilirdi. Məsələn, SSRİ məkanında, o cümlədən Azərbaycanda 30–cu illərdə tövsiyə biblioqrafiyasının kitab palatalarına həvalə edilməsi belə səhvlərdən olmuşdur.

Azərbaycanın ən mühüm kitabxanası belə tövsiyə biblioqrafiyası ilə məşğul olmurdu.

3. Elmi işçilər, edarəetmə və istehsalat mutəxəssislərinə xidmət məqsədi güdən elmi–köməkçi biblioqrafiyanın təşkilində və gedişində də eyni vəziyyət hökm sürürdü və həmin sahə mütəxəssislərinin biblioqrafik informasiya təminatı çox aşağı səviyyədə idi.

## *ƏDƏBİYYAT*


1. *Azərbaycan SSR Xalq Maarif Komissarlığı: Azərbaycan Xalq Maarifi (1920 – 1928). – B., 1928. – S.83.*
2. *Azərbaycan SSR Xalq Təsərrüfatı: Statistika külliyatı. – B.: Dövlətstatnəşr, 1957. – S.488.*
3. *Багри А.В. Народная словесность Кавказа: Материалы для библиографического указателя. – Б., 1926.*
4. *Böyük Oktyabr və Sovet Azərbaycanında elmin çiçəklənməsi. – B.: Elm, 1977.*
5. *Гуревич Е.Д. Указатель статей опубликованных в журнале «Нефтяное Хозяйства Азербайджана 1920 – 1930 годах». – Б., 1933.*
6. *Коршунов О.П. Библиография, теория, методология, методика. – М.: Книга, 1986. – 286 с.*
7. *Эфендиев М.Э. Библиография малярии в Азербайджане. – Б.: Издания Азербайджанской Гос. Медицинской Научной Библиотеки, 1941. – 40 с.*

8. *Эфендиев М.Э. Библиографический справочник по климато-бальнеографии Азербайджана. – Б.: Азернешр, 1932. – 63 с.*
9. *Эфендиев М.Э. Библиографический справочник по тропическим болезням Азербайджана // Труды тропического Института Наркомздрава Азерб. ССР. 1936. – Т.2. – С.302 – 316.*
10. *Mülahizəli kataloq / Tərtib edənlər M.H.Rzaquluzadə və Ə.Y.Əliyev.– B., 1929.*
11. *Uşaq ədəbiyyatı: İbtidai məktəb üçün annotasiyalı kataloq /Tərtib edəni: X.Abdullayeva. - B.: Azərnəşr, Tədris Pedaqoji Şöbəsi, 1940.*

***З.Г.АЛИЕВ***

## *Специальная библиография в Азербайджане в 1920-1930-х годах*

### Резюме

В исследуемом периоде в Азербайджане обнаружились некоторые факты о проявлении специальных библиографических пособий по актуальным темам того времени. Из них можно отметить библиографические справочники проф. М.Э.Эфендиева по темам медицины, рекомендательных библиографических пособий как «Mülahizəli kataloq» («Аннотированный каталог»), «Uşaq ədəbiyyatı» («Детская литература») Х.Абдуллаева и др.

Эти пособия, являющиеся важнейшими библиографическими явлениями в настоящее время сохраняют свои практические и методические знания как источники определенного ретроспективного библиографического поиска литературы по названным темам того времени.

*Əşrəf XƏLƏFOV*
*pedaqoji elmlər namizədi, dosent*

# *MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNDƏ BİBLİOQRAFİYA*

Uzun illər boyu bizə aşılanmışlar ki, «cəmiyyətdə yaşamaq və cəmiyyətdən kənar olmaq mümkün deyil». Fikir, hiss, elm, incəsənət, ədəbiyyat, nəşriyyat, kitabxana, biblioqrafiya-hamısı partiyalı olmalıdır.

Şübhəsiz, biblioqrafiya sosial fenomendir. Məlumdur ki, cəmiyyət insanlardan və üstəgəl onlar arasında yaranan əlaqədən ibarətdir. Başqa sözlə desək, cəmiyyət insanlarla təşkilatlar, müxtəlif idarələr, qruplar arasında münasibətlərin məcmusudur. Biblioqrafiya isə hər şeydən əvvəl sənəd-tələbatçı sistemində münasibətləri tənzimləyən əlaqə vasitəsidir. Sosial kommunikasiyada mühüm şərt dünyanı və onun dərki haqqında bilikləri əhatə etməkdən ibarətdir. Onu istiqamətləndirmək və qiymətləndirmək üçün fərdin sosiallaşdırılması zəruridir. Cəmiyyətin inkişafının hər bir mərhələsində biblioqrafiyanın əsas funksiyası – dərketmə, dəyərləndirmə və sərtləşdirmə, informasiya-kommunikativ - özünü müxtəlif şəkildə spesifik sosial sətiraltı mətndə göstərir.

Biblioqrafiyanın sosial rolunu dərk etmək üçün o, dövlət və partiyalılıq asılılığından, məcburiyyətindən azad olunmalı, vətən sosial-informasiya məkanında ona yer ayrılmalıdır.

XX əsrin sonu – XXI əsrin əvvəlində – Vətən tarixinin müasir mərhələsində vətəndaş cəmiyyətinə keçilməsi aydınlaşdırılır. XXI əsr informasiya əsridir. Artıq onun yarandığı dəqiq məlumdur. Amma yaxından diqqət etdikdə hələ heç nə məlum deyildir. "İnformasiya əsri nədir və gələcək cəmiyyətin başlıca səciyyəsi düzdürmü, onu informasiya adlandırmaq olarmı?" – sualı baş qaldırır. İnformasiyanın, yaxud intellektual informasiyanın tərifini xatırlayaq. Bu, cəmiyyətin inkişaf səviyyəsi, informasiyanın kəmiyyət və keyfiyyətlə toplanması və istifadəsi, azad, səmərəli və əlverişli olması səfiyyəsi ilə təyin edilib ölçülür. Cəmiyyətdə toplanan zəruri informasiyanı tələbatçılara çatdırmaqla onu təmin edir. Belə bir şəraitdə bilik dövlətçilikdə

başlıca ehtiyat hesab olunur. Kompüterlər, telekanallar və digər yeni yeni əlaqələr sistemləri yaranır. Bütün işlərin icrası intellektual insan fəaliyyətinin dairəsi ilə həyata keçirilir, işin 50 %-i kitabın işlənməsi, yayılması, informasiyadan istifadənin üzərinə düşür. Onların ağırlıq çəkisi artır, yəni informasiya kütləsi əmtəəyə, məhsula çevrilir, informasiya bazarı baş qaldırır, informasiya şüuru, informasiya mədəniyyəti və davranışı, məişətin informasiya tərzi obrazı yaranır, fərdi informasiya formalaşır və s.

Mütəxəssislərin fikrincə, əgər Azərbaycan belə bir şəraitdədirsə, onda milli biblioqrafik informasiya cəmiyyəti yaratmaq mümkündürmü? Bu suala "mümkündür" cavabını vermək olar, amma "lazım deyil" ritorik rədd edilir. Çünki cəmiyyətdə ideal informasiya sərbəst dövr etməklə tənzimlənir, ona heç kim tərəfindən nəzarət edilmir, arzu edənlər üçün tamamilə açıqdır. İnformasiya öz-özünə ictimai inkişafı, şəxsiyyətlə dövlət arasında irəliləyişi təmin edir, insanın həyat tərzini, onun mənəviyyatının formalaşdırılmasını təkmilləşdirir. Əks halda informasiya eksponizmi, informasiya cinayətkarlığı kimi hadisələr baş verir. İndiki şəraitdə azlığın əlində olan informasiya mənbələri və ehtiyatları təhrif edilərək, informasiya dilinə çevrilərək real həyatda texokartik, vizual dildə virtual halda anlaşılmazlıqlar yaradır, halbuki istehsalın başlıca məhsulu informasiyadır. Mütəxəssislər informasiyaya ehtiyatla yanaşır, onu nəhəng kompüter qiyafəsində təsəvvür edirlər, halbuki dövlətçilikdə informasiyanın məxfi, gizli formaları da mövcuddur. O, demokratiyanın ideallarına deyil, həm də insanlara, onların fərdi və ümumi idrakına xidmət edir. *Yaranan demokratiya o qədər də informasiya tələb etmir. Sosial* təşkilat formaları olan bilik, metod, vasitə, dünyanın açıq qarşılıqlı əlaqələrini real fonla verməkdə, xarici mühiti asanlaşdırmaqda səmərəlidir. Onlar fərdlərin maraqlarını nəzərə alması, onların təşəbbüskarlığını genişləndirməsi, yeniliyi müdafiə etməsi cəhətdən diqqəti cəlb edir. Ancaq bu gün geniş təbliğ edilən "açıq cəmiyyət konsepsiyası" anlayışının zəif tərəfləri də mövcuddur, kifayət qədər aydın deyildir, sosial inkişafın harmoniyasının, xüsusiyyətlərinin açıqlanmasına zəmanət vermir.

Alimlərin əksəriyyəti Azərbaycan dövlətçiliyinin XXI əsrdə inkişafın möhkəm milli strategiyasını açıq cəmiyyətlər, qruplar yaradılmasında görürlər. Çünki cəmiyyətin bilik və texnika bazasına əsasən əxlaqi prinsip, mənəvi və yüksək professional əmək ön plana çəkilir. Bu da hər bir kəsin eyni səviyyədə ilkin başlanğıc imkanının



olmasını, xüsusilə informasiyaya olan tələbatın əlverişliyin ...ın edir.

Belə vətəndaşlıq cəmiyyətinin üstünlüyünü sosial ekologiya, mədəniyyət, elm və təhsilin saxlanması və dünya dövlətlərində tətbiq edilən texnologiyanın çoxaldılması təşkil edir. Azərbaycanda və inkişaf etmiş dövlətlərdə olan müvafiq kompüter texnologiyası biliyi kütləviləşdirməlidir.

Vətəndaş cəmiyyətinin mühüm vəzifələrindən biri də onun üzvlərinin tərbiyəsinin inkişafıdır. Onların vətəndaş kimi, şəxsiyyət kimi yetişdirilməsidir. "Vətəndaş cəmiyyəti" şüarının özünə mətbuatda zamanın əlaməti, epoxanın konseptual kodu, böyük həqiqət kimi baxılır. Vətəndaş cəmiyyəti üç bazadan – hüquqi, dövlət və azad bazar cəmiyyətindən ibarətdir. Vətəndaş yalnız demokratik prosedura, dövlət strukturu ilə deyil, həm də ictimai strukturun yaratdığı müxtəlif effektli, təsirli cəmiyyətin köməyilə sosial inkişafa təsir etmək hüququ və imkanı əldə edir. Bunsuz cəmiyyət vətəndaşın şəxsi marağından geri qala bilər. Bunsuz sosial cəmiyyətdə biliyin, informasiyanın azad, sərbəst yayılması, dövriyyəsi mümkün deyildir. Sosial model bir-birini qarşılıqlı surətdə təkmilləşdirərək hökm sürən demokratik vətəndaş proseslərinin əsas konturunu açıb göstərir, həqiqi effektiv intellektual informasiyadan istifadə etmək hüququna malik olur. Bu, sosial məişətin bərabər hüquqlu modeli hesab edilir, Azərbaycanda milli ideyanın həyata tətbiqini bir daha təsdiq edir. Vətəndaş cəmiyyəti haqqında ədəbiyyatda onun müəyyən edilməsinin çox sayda meyarı olduğu qeyd edilir. Belə ki, şəxsi azadlıq rəsmi dövlət idarələrilə, qeyri-dövlət təşkilatları ilə, birliklərlə, cəmiyyət üzvlərilə sosial varlıqdan, ictimai birliklərdən asılı olmadan müqavilə bağlamaqla öz hüquqlarını yaradır. Dövlətin qəbul etdiyi qərarlarda, dövlətdənkənar xüsusi forma kimi fəal iştirak etməklə onun həllinə, xüsusilə vətəndaşların dövlətdən, dövlətin vətəndaşları müdafiə etmək kimi sosial olmayan tendensiyanın aradan qaldırılmasına təsir edir. Beləliklə, vətəndaş cəmiyyəti sosial məişətin öz-özünə idarə olunmasında, dövlət əleyhinə təzyiqin aradan qaldırılmasında, vətəndaşların sosial inteqrasiyasının qarşısının alınmasında mühüm sosial funksiyanı yerinə yetirir, hüquqi, əxlaqi informasiya məkanı, iqtisadi cəhətdən sosial məkanı yaradır. Özünün vahid halda demokratik, çoxcəhətli sosial dəyərini göstərir. Təbiidir ki, vətəndaş dövlətinin funksiyası sosial quruluşun dərin qatlarında baş qaldıran sorğuları siyasi partiyalar vasitəsilə araşdırıb dövlət strukturları

səviyyəsində həll etmək, şəxsiyyətin səfərbərliyi və müdafiə olunmasını təmin etməkdir.

Vətəndaş təşkilatlarını tə'sis etmək olmaz. Onun strukturu çoxcəhətlidir, formaları vətəndaşlar tərəfindən irəli sürülür. Onun bütün dairəsi vətəndaşların özünü dərk etməsi bazasında yaranır, demokratik forma əlamətilə ayrılır, dövlətin xarakterini, cəmiyyətin meylini, strukturunu, öz-özünə təşkilini, onların istehsal edilməsindən, bazardan asılı olmadan könüllü birləşməsini təyin edir. Eyni bərabərdə könüllü sosial qrup və təşkilatlar qarşılıqlı əlaqəyə malik olur. Vətəndaş cəmiyyətinin üzvlərinin müəyyən ictimai həmrəylik forması kimi anlaşılır, plüralizmin, eyni fikrin düzgün olduğunu qəbul edir və eyni zamanda tənqidin səmərəli olması lazım gəlir.

Vətəndaş cəmiyyətinin Azərbaycanda formalaşması yeni ictimai qurum bolluğu, yeni sahibkarlıq formaları, elmi idarələr, təhsil, incəsənət müəssisələri çoxşaxəli informasiya, məzmun, mövzu, janr etibarilə kitab axını, dövri nəşrlər, çoxkanallı televiziya verlişləri yaradır. Bu isə adamların hərəkət və davranışında çoxcəhətli meyllərin yaranmasına səbəb olur.

Tədqiqatçıların fikrincə, Bakıda əvvəllər 5 teatr vardısa, indi onların sayı 20-dən çoxdur. Əvvəllər mərkəzi qəzetlərin sayı 10 idisə, indi qəzetlərin sayı 500-ü keçmişdir. Müstəqil, azad dövlətçilikdə sosial informasiya məkanı anlayışına informasiya vasitələrinin, ehtiyatlarının yaranması və yayılması, müxtəlif soraq-məlumat xidmətləri, mədəniyyət, elm, təhsil müəssisələri, nəşriyyatlar və s. daxildir. Bu dairədə dövlətin vətəndaşlar arasında kommunikativ prosesi həyata keçirilir. Dövlətin strukturunda baş verən sorğu və tələblər, idarəçiliyin həllində istifadə və qəbul edilən informasiya məhsulu yaranır. Onun xüsusi səviyyəsinin infrastrukturunu milli biblioqrafik məkan təşkil edir. Onların ictimailəşdirilməsində, sosial konfliktlərin həlli formasında sakitləşdirilməsində informasiyanın sosial modeli, biblioqrafik fəaliyyətin subyektləri, Azərbaycanda Kitabxana İşinin İnkişafı Assosiasiyası, Azərbaycan Kitabxanaçılar Cəmiyyəti dairəsində biblioqrafik biliyin formalaşması və inkişafını təmin edir. Belə ki, biblioqrafik bilik sosial informasiya resuslarının (ehtiyatlarının) müxtəlifliyi və bolluğu ilə xarakterizə olunur, biblioqrafik fəaliyyətin subyekti olan biblioqrafik bilik ehtiyatlarının formalaşmasının nəticəsi haqqında həqiqi təsəvvür yaradır. Bunlar Dövlət Kitab Palatası, kitabxanaçılıq, informasiya, nəşriyyat, kitab ticarəti, elm və təhsil, maddi-sosial, muzeylər arxivlər və başqa



müəssisələr, professional biblioqraf cəmiyyəti və digər dairələrdir. Bibilioqrafik fəaliyyətin subyektinin müxtəlifliyinə toxunmadan vətəndaş cəmiyyətinin informasiya təminatında onların rolunu qısa xarakterizə edək.

Sosial informasiya ilə dövlətin qarşılıqlı əlaqəsi 1990-cı ildən əvvəlki vaxta görə mahiyyətcə bambaşqadır. Biblioqrafiya sosial institut kimi dövlətin totalitar qəyyumluğundan azad olmuşdur. Dövlətlə proffessional prinsipcə bağlı elan edilir. Biblioqraflar qanunçuluq namino, vətəndaşların informasiyadan azad istifadə etmək hüququnu rəhbər tutaraq biblioqrafik məhsulu istehsal etməkdə, yaymaqda azaddır. Bununla belə, biblioqrafiyanın əhəmiyyəti ilk növbədə dövlət əhəmiyyətli olaraq qalır və azalmır. Dövlətin sənəd ehtiyatı ən zəruri ehtiyat hesab olunur və onun uçota alınması dövlət əhəmiyyətli məsələ kimi qalır. Təəssüf ki, Azərbaycan Dövlət Kitab Palatası öz fəaliyyətini 10 ildir ki, dayandırmışdır. Halbuki bütün keçmiş sovet respublikalarında milli kitab palataları fəaliyyət göstərir. Ancaq yeni şəraitdə kitab palatası dövlət orqanları ilə bərabərhüquqlu tərəfmüqabil kimi biblioqrafik fəaliyyət göstərə bilər. Belə bir şəraitdə dövlət, hakimiyyət orqanları ən nəhəng tələbatçı və sosial informasiyanın, xüsusilə ölkənin və onun bölgələrinin, bələdiyyələrin vəziyyəti haqqında özünün qərar və əməllərində ən cüzi mənbə hesab edilir. Dövlət büdcəsində olan biblioqrafik fəaliyyət orqanları, Azərbaycan Milli Kitab Palatası, kitabxanalar, nazirliklər və müəssisələr dövlət siyasətinin təbii tələbçiləridir və onlar dövlətin güclənməsində maraqlıdırlar. Sözsüz ki, eyni zamanda kitabxana–informasiya və biblioqrafik müəssisələrdə dövlət aparatı ilə, vətəndaş təşkilatları ilə ictimai fikrin formalaşdığı dairədə, kütləvi siyasətin aparılmasında etibarlı qovşaq, qarşılıqlı əlaqə təsiredicidir. Kitabxana assosiasiyası və dövlət aparatı ilə biblioqrafik fəaliyyətin qarşılıqlı əlaqəsi sadəcə olaraq kitabxana-biblioqrafiya müəssisələrinə ayrılan büdcə paylarının hesabına toplanılır. Burada dövlət kitabxanasının bazası əsasında hüquqi mərkəzi informasiya sisteminin yaradılması, şübhəsiz ki, onun nüfuzunu, sosial rolunu qaldırır. Bu, eyni zamanda təbii olaraq dövlət orqanlarının, qismən də Respublika Dövlət Teleqraf Agentliyi, Prezident Aparatı, Mədəniyyət Nazirliyinin təşəbbüsü olar. Belə vəziyyətə əks təsir göstərməklə hüquqi informasiyanın yeni formalarının yaradılmasını öz üzərinə götürə bilər. Kitabxanaların, özəl mədəniyyət universitetlərinin kommunikasiya, elmi və kütləvi informasiyanın lobbiləşdirilməsinin marağında

fəal iştirak etmək imkanı vardır. Dövlət və regional informasiyanın formalaşmasında özünün fəaliyyətinin əsas hüquqi, qanunvericilik aktları ilə bilavasitə iştirak edə bilər. Kitabxana və informasiya müəssisələrinin əlaqəsində çoxlu yeni, nəzəri cəhətdən qavranılmamış, dərk edilməmiş, təcrübədə mənimsənilməmiş fəaliyyət sahələri vardır. Biblioqrafik informasiya müəssisələrinin spesifik funksiyaları, biblioqrafik vasitələri sosial kapitalın artmasına təsir göstərə bilər. Bir-birinə qarşılıqlı etimad, qarşılıqlı əlaqə, qarşılıqlı kömək göstərməklə şəxslər arasında məqsədyönlü məkanın yaranması mümkündür. Məlumdur ki, sosial kapital ictimai təşkilatların elə elementlərini – sosial şəbəkəni, norma və ictimai inamı təşkil edir ki, onlar vətəndaş cəmiyyətinin həyati damarı kimi özünü, onun mahiyyətini təqdim edir. Cəmiyyətin şəxslər arasında olan inam və etimadı ilə ölçülür. İnformasiya müəssisələri buna təsir etmək iqtidarındadır. İnformasiya müəssisələrinin işinin effektli olması ictimai institutların, yerli ictimai birliklərin, cəmiyyət və assosiasiyaların strukturunun qarşılıqlı təsirindən asılıdır. Kənar və yerli ictimai birliklər nə qədər çox və nə qədər müxtəlif olarsa, vətəndaş cəmiyyəti də bir o qədər stabil inkişafda olar.

Vətəndaş cəmiyyətinin strukturu çevik və şərtidir. Məsələn, həmkarlar təşkilatları sosial-siyasi və iqtisadi marağı təmsil edirsə, hakimiyyətə keçməyə cəhd edən həqiqi partiyalar dövlət nümayəndələrini təmsil edəcəkdir. Kitabxana-biblioqrafiya müəssisələri (şəxsi, xüsusi, ictimai) vətəndaş cəmiyyətinin bilavasitə subyekti kimi dövlətçiliyi təmsil edəcəklər. Onlar cəmiyyətdə inteqrativ rol oynamaqla müxtəlif strukturların qarşılıqlı təsiri nəticəsində funksiyalarının yaranmasına səbəb olurlar. Məsələn, bütün kitabxanalarda, sosial-mədəni istirahət mərkəzlərinin, klubların, ədəbi birliklərin genişlənməsi üçün ideyalar yaranır, kitabın və mütaliənin təbliği ilə bağlı sosial-mədəni, kitabxana-biblioqrafiya məsələlərinin həlli üçün müxtəlif layihələr həyata keçirilir. Cəmiyyətə xidmət göstərən müxtəlif ictimai təşkilatlar öz növbəsində biblioqrafik ehtiyatlardan istifadə etmək üçün müraciət edəcəklər.

Radio və televiziya kanallarında "Hazırcavablar klubu", "İstirahətdən sonra", "Görüş yeri", "Gənclər üçün viktorina", "Zəka" verilişləri, kitabxanalarda "Qızıl açar", "Heyvanat aləmini sevənlər" və digər tədbirlər hər bir fərdin intellektual səviyyəsinin artması və elmi nailiyyətlərinin mənimsənilməsinə yönəldilir. Bunlar son nəticədə bilik aləminə açılan qapı hesab olunur.



Müasir partiyaların üzvlərinin biblioqrafik informasiyaya laqeyd münasibəti sübut edir ki, partiya liderləri kitab mədəniyyətinə getdikcə yadlaşırlar. Əsas biblioqrafik məhsul dövlətindir. Azərbaycanda nəinki cəmiyyətə, əsasən dövlətə isnad edilir. Halbuki biblioqrafik fəaliyyətin subyektində aksioner cəmiyyətlər, həmkarlar təşkilatları, ictimai elmi müəssisələr, yaradıcı birliklər, dini təşkilatlar daha fəal olmalıdır. Təəssüf ki, burada kitabxana-biblioqrafiya ictiami birliyinin adı yoxdur. Kitab kataloqunun 4-cü buraxılışı çapdan çıxmışdır. O da ABŞ Beynəlxalq İnkişaf Agentliyinin vəsaiti hesabına. Bu işdə kooperativ marağa meyl göstərilmir. Kitabxana assosiasiyası çərçivəsində Azərbaycanın (bütövlükdə) Bakı təşkilatının və Naxçıvan, Gəncə, Mingəçevir, Lənkəran, Şəki, Zaqatala, İsmayıllı, Lahıc, Dərbənd, Gürcüstanda Borçalı və s. şöbələrinin yaradılmasının vaxtı çoxdan çatmışdır. Cəmiyyətin ayrıca biblioqrafik seksiyası yaradılmalıdır ki, bölgələrdə biblioqrafik işin gedişinə təsir göstərsin, biblioqrafik nailiyyətlərin əldə edilməsinə səbəb ola bilsin. Azərbaycan biblioqrafiya cəmiyyəti yaradılmamış və onun nizamnaməsi tərtib olunmamışdır.

Cəmiyyətin əsasını vətəndaş mədəniyyəti, siyasi mədəniyyət təşkil edir. Onun demokratik prinsiplər əsasında inkişafına təsir göstərir, fərdlərin dövlət, yerli, dövlətdən kənar ictimai-iqtisadi təşkilatlarda işləmək, iştirak etmək bacarığına, biliyinə malik olur. Buraya vətəndaş hüququnu dərk etmək komponenti, sosial texnologiyadan istifadə etmək vərdişi də daxildir.

Vətəndaş cəmiyyəti üzvlərinin fərqli cəhəti müstəqil qərar qəbul etməsidir. Bu isə onların dövlət və ictimai qurumlarla eyni bərabər informasiyanın əldə edilməsi, verilməsi və istifadə edilməsinin əlverişli olması sayəsində mümkündür. Buna görə də informasiya, onun təkib hissəsi olan biblioqrafiya mədəniyyəti vətəndaş mədəniyyətinin ayrılmaz hissəsi hesab olunur.

Biblioqrafik informasiya mənbələri Azərbaycanın ictimai həyatında mövcud olan müxtəlifliyi müəyyənləşdirməyə, humanist istiqamətləri ayırd etməyə, şəxslər arasında kommunikasiya yaratmağa kömək edər, mənəvi mədəniyyətə yad olan tendensiyalara qarşı çıxmağa imkan verər. Vətəndaş mədəniyyətinin əsasları məktəblərdə xüsusi fənlərdə qoyulur. Bu iş köməkçi tədris-biblioqrafik vəsaiti tərtib etməklə möhkəmləndirilə bilər.

Vətəndaş cəmiyyətinin formalaşdırılmasında sosial-köməkçi biblioqrafiyaya üstünlük verilməlidir. Bu biblioqrafik fəaliyyət növü-

nün qaydaya düşməsi onun elmi informasiya kimi əhəmiyyətini artırar. Hələ də biblioqrafiyaya oxuculara fərqli yanaşmaq, ədəbiyyatı seçmək üçün, sosial sfera üçün idarə etməyə lazımınca yiyələnə bilməmişdir. Biblioqrafiya səviyyəsində kommunikativ prosesin bərpa edilməsini, Azərbaycan milli kitablarının repertuarının yaradılmasını göstərmək olar. Vətəndaş cəmiyyətinin sosial strukturunun təminatını müdafiə etmək biblioqrafik müəssisələrin, biblioqrafik cəmiyyətlərin fəxri missiyasıdır.

***А.Т. ХАЛАФОВ***

***Библиография в независимом Азербайджанском государстве***

**Резюме**

В статье рассмотрены важнейшие принципы, установлены и развития библиографической деятельности в республике, новых качеств библиографической продукции и всей системы библиографической работы в условиях суверенного Азербайджана.

*Sima İSMAYILOVA*
*müəllim*

# ƏDƏBİ BİBLİOQRAFİK MƏNBƏLƏR ƏDƏBİYYATŞÜNASLIĞIN BİBLİOQRAFİK İNFORMASİYA TƏMİNATINDA MÜHÜM VASİTƏ KİMİ

XX əsr Azərbaycanın elmi mədəniyyət və iqtisadiyyatının bütün sahələrində olduğu kimi, ədəbiyyatşünaslıq biblioqrafiyasının inkişaf edib formalaşmasında da keyfiyyətcə yeni mərhələ olmuşdur. Bu mərhələ ilk növbədə Azərbaycanda ədəbi prosesin canlanması, yeni ruhlu və məzmunlu ədəbi əsərlərin yaranması və inkişafı kimi xarakterizə edilə bilər. Lakin klassik ədəbi-bədii qaynaqları dərindən bilmədən bu günlə səsləşən əsərlər yaratmaq mümkün deyil.

Xalqımızın ədəbi-bədii fikrinin inkişafında, ədəbiyyat tariximizin tədqiq edilib öyrənilməsində təzkirələrin çox böyük rolu olmuşdur. Təzkirəçilik Azərbaycan ədəbiyyatşünaslığının söykəndiyi və bəhrələndiyi ən mühüm sahələrdən biridir. Təsadüfi deyildir ki, Azərbaycanda milli biblioqrafiyanın tədqiqatçıları təzkirələri Azərbaycan ədəbi biblioqrafiyasının «ilk qaynaqları» adlandırmışlar.

Təzkirəçilik ənənələrinin ən yaxşı keyfiyyətlərindən bəhrələnən Azərbaycan təzkirəçiləri hələ orta əsrlərdən bu bənzərsiz sənət nümunələrini yaratmışlar. Əgər XVII-XVIII əsrlərin cəmi 3 təzkirəçisi bizə məlumdursa, XIX əsrdə onların sayı 9 nəfərə çatır (4). Azərbaycanın təzkirəçi sənətkarlarından A.A.Bakıxanovu, Həsənəli xan Qaradağini, Əli şah Təbrizini, Rzaqulu xan Hidayəti, Bəhmənmirzə Qacar Əbdüssəməd Bəhadövləni, S.Ə.Şirvanini və başqalarını göstərmək olar. Maraqlıdır ki, onlardan cəmi dörd nəfəri Cənubi Azərbaycanda, qalanları Şimali Azərbaycanda təzkirəçilik fəaliyyəti göstərmişlər.

Azərbaycan təzkirə sənətinin gözəl nümunələrinə misal olaraq Mir Möhsün Nəvvabın «Təzkireyi-Nəvvab» və Məhəmmədağa Müctəhidzadənin «Riyazül-aşiqin» əsərlərini göstərmək olar. M.M.Nəvvabın «Təzkireyi-Nəvvab» (6) əsərində yüzə qədər

Qarabağ şairi haqqında məlumat verilir, poetik irslərindən nümunələr gətirilir. Təzkirə müqəddimə və iki hissədən ibarətdir. Birinci hissədə mərhum şairlərdən 35 nəfəri, ikinci hissədə isə M.M.Nəvvabın müasirləri olan, şəxsən tanıdığı, yaxud məktubla əlaqə saxladığı 56 şair haqqında biblioqrafik məlumat və əsərlərindən nümunələr təqdim edilir. Təzkirələrin maraqlı, diqqətəlayiq cəhətləri çoxdur. Məsələn, bir çox şerlərin nə münasibətlə yazılmasının izahı, o dövrün ədəbi prosesini izləmək, şairlərin həyat və yaradıcılığını ətraflı öyrənmək baxımından olduqca dəyərlidir. Təzkirə əsasən XIX əsr Qarabağ şairlərini əhatə edir. Təzkirədə toplanmış məlumatlar Qarabağ ədəbiyyat tarixinin öyrənilməsində mühüm elmi əhəmiyyət kəsb edir. Təzkirədə M.M.Nəvvab ancaq Azərbaycan şairlərini tam əhatə etmək məqsədini qarşıya qoymuşdur. Bu da M.M.Nəvvabda milli vətənpərvərlik hissinin güclü olması ilə və Azərbaycan şairlərinin əsərlərinin tədris və təbliğ edilmək məqsədini qarşıya qoyması ilə bağlıdır.

Məhəmmədağa Müctəhidzadənin «Riyazül-aşiqin» (7) təzkirəsi isə XIX əsr Azərbaycan ədəbi mühitini, onun inkişaf rəngarəngliyini öyrənmək baxımından ilk mənbə kimi olduqca maraqlı bir əsərdir. Təzkirə iki hissədə yazılmışdır. Birinci hissədə təzkirə yazılarkən dünyasını dəyişmiş şairlər haqqında, ikinci hissədə isə müəllifin müasiri və həyatda olan ədiblər haqqında məlumatlar, onların əsərlərindən nümunələr verilmişdir.

Ədəbiyyatşünaslıq zəngin və çoxsahəli bir elm sahəsidir. Onun ayrı-ayrı sahələrinin inkişafı təbii olaraq həmin sahəyə dair informasiya tələbatının yaranmasına səbəb olmuşdur. Çoxsaylı oxucuların tələbatını qismən də olsa ödəmək vəzifəsini qarşısına qoyan «Azərbaycan sovet ədəbiyyatşünaslığı (1920-1975-ci illər)» (2) adlı biblioqrafik vəsait Azərbaycan ədəbiyyatının nailiyyətlərini qeydə almaq sahəsində ilk təşəbbüsdür.

Ədəbiyyatşünaslığın müxtəlif sahələrinə, o cümlədən ədəbi əlaqələrə, ayrı-ayrı şair və yazıçılara həsr edilmiş biblioqrafik göstəricilər, cari biblioqrafik informasiya mənbələri müasir ədəbiyyatşünaslıq elminin tədqiqatçılarının, o cümlədən mütəxəssis oxucuların tələbatını ödəmirdi. Məhz bu boşluğu doldurmaq və çoxsaylı oxucuların tələbatını ödəmək baxımından «Azərbaycan sovet ədəbiyyatşünaslığı (1920-1975-ci illər)» adlı biblioqrafik vəsait olduqca qiymətli mənbədir. Göstəricidə Azərbaycan dilində 20 minə yaxın mənbənin biblioqrafik təsviri verilmişdir. Ədəbiyyat əhatəliyi üçün əsas götürülən



əlamətə görə universal xarakterə malik olan vəsait biblioqrafik mənbələrdən ibarətdir. Göstəricidə müəlliflərin, daxilində isə həmin müəllifin əsərlərinin əlifba prinsipinə riayət olunmuşdur.

Biblioqrafik göstəricidə diqqəti cəlb edən cəhətlərdən biri də müdafiə edilmiş namizədlik və doktorluq dissertasiyalarının biblioqrafik təsvirinin verilməsidir. Vəsaitdən istifadəni asanlaşdırmaq məqsədilə «Adlar göstəricisi» adlı köməkçi aparat da tərtib olunmuşdur.

«Azərbaycan sovet ədəbiyyatşünaslığı (1920-1975-ci illər)» adlı biblioqrafik vəsait Azərbaycan ədəbiyyatı və ədəbiyyatşünaslığına həsr edilmiş retrospektiv xarakterli toplu halında ilk zəngin biblioqrafik informasiya mənbəyidir.

Ədəbi biblioqrafik nəşrlərin tərkibindən danışarkən, Azərbaycan ədəbiyyatşünaslığının inkişafında mühüm xidmətləri olmuş şair və yazıçılara həsr edilmiş şəxsi biblioqrafik göstəricilərin yerini və rolunu xüsusi qeyd etmək lazımdır.

Bu sahədə Respublika Milli EA Mərkəzi Elmi Kitabxanasının fəaliyyəti xüsusilə diqqəti cəlb edir. Belə ki, Mərkəzi Elmi Kitabxana 1964-cü ildən «Azərbaycan elm və mədəniyyət xadimləri» seriyasından görkəmli elm, mədəniyyət və incəsənət xadimlərinə həsr olunmuş çox saylı şəxsi biblioqrafik göstəricilər hazırlayıb nəşr etdirir.

Şəxsi biblioqrafik göstəricilərin yaradılması prosesində biblioqrafiyalaşdırma obyekti kimi haqqında bəhs olunan şəxsin qələmindən çıxan bütün əsərləri, həmçinin tərcümələri və onun haqqında olan ədəbiyyat götürülür. Bu cür biblioqrafik vəsaitlərin ədəbiyyat əhatəliyi yalnız o şəxslə əlaqədar olur.

Şəxsi biblioqrafik vəsaitlər sistemi bütövlükdə geniş biblioqrafik informasiya potensialına malik olur və bu sistemə daxil olan sahə üzrə ədəbiyyatın biblioqrafik axtarışında mühüm rol oynayır.

«Akademik Kamal Talıbzadə» (5) adlı biblioqrafik göstərici və xalq şairi Bəxtiyar Vahabzadə (3) haqqında biblioqrafik göstərici bu qəbildəndir.

Müasir Azərbaycan ədəbi tənqid məktəbinin əsasını qoyan akademik Kamal Talıbzadəyə həsr edilmiş biblioqrafik göstəricidə 55 ildən artıq bir müddətdə elmi yaradıcılıqla məşğul olmuş alimin həyat və yaradıcılığına aid materiallar toplanmışdır.

Biblioqrafik vəsaiti tərtib edərkən filologiya elmləri namizədi Əmin Əfəndiyev bir neçə il axtarış aparmış, akademikin həyat və fəaliyyətini, onun haqqında yazılmış və deyilmiş fikirləri ətraflı öyrənmiş, habelə alimin şəxsi arxivindən istifadə etməklə sanballı bir

vəsait hazırlamışdır. Biblioqrafik göstəricidə materiallar xronoloji qaydada, Azərbaycan və rus dillərində qruplaşdırılmışdır.

Vəsaitdən istifadəni asanlaşdırmaq və vaxt itkisini aradan qaldırmaq məqsədilə «Əsərlərinin əlifba göstəricisi» və «Haqqında yazmış müəlliflərin əlifba göstəricisi» kimi köməkçi aparat da verilmişdir.

«Bəxtiyar Vahabzadə» adlı biblioqrafik göstərici üç hissədən ibarətdir. Birinci hissədə Heydər Əliyevin və Süleyman Dəmirəlin təbrikinin mətni, «Şair haqqında düşüncələr» adlı məqalə, şairin həyat və fəaliyyətinin əsas tarixləri, görkəmli ədəbiyyat və mədəniyyət xadimlərinin B. Vahabzadə haqqında fikirləri verilir.

İkinci hissədə isə şairin Azərbaycan və xarici dillərdə kitab halında çıxan əsərləri, ədəbi-tənqidi, publisistik məqalələri, xarici ölkə şairlərinin əsərlərindən tərcümələri əhatə olunur.

Üçüncü hissədə B. Vahabzadənin həyat və yaradıcılığı haqqında materiallar və köməkçi göstəricilər verilmişdir. Bölmələr, yarımbölmələr daxilində biblioqrafik təsvirlərin düzülüşündə xronoloji prinsipə riayət olunmuşdur.

B. Vahabzadəyə həsr olunmuş şəxsi biblioqrafik göstərici şairin yaradıcılığı ilə maraqlanan bütün oxucu qrupları üçün zəngin və sanballı biblioqrafik informasiya mənbəyidir.

Ədəbi biblioqrafik nəşrlərin tərkibindən danışarkən ədəbi biobiblioqrafik vəsaitlərin də adını qeyd etmək lazımdır. Belə vəsaitlərdə biblioqrafik informasiya soraq xarakterli biblioqrafik informasiya ilə sintez edilmiş formada verilir. Başqa sözlə desək, ədəbi xadimin həyatı haqqında informasiya ilə yanaşı, burada həmin xadimlərin yaradıcılığı haqqında da biblioqrafik informasiya verilir.

Ədəbi biobiblioqrafik vəsaitlərin ən zəngin nümunəsi 1995-ci ildə Azərbaycan Ensiklopediyası Nəşriyyat Poliqrafiya Birliyi ilə «Önər» nəşriyyatı tərəfindən buraxılmış «Azərbaycan yazıçıları» (1) adlı vəsaitdir. Vəsaitin tərtibçisi görkəmli ədəbiyyatşünas alim, jurnalist, filologiya elmləri doktoru, professor Teymur Əhmədovdur. Vəsaitin xarakterik cəhəti odur ki, burada həyatı və yaradıcılığı haqqında informasiya verilən bütün şəxslər Azərbaycan Yazıçılar Birliyinin üzvləridir. Qısa bioqrafik məlumatla yanaşı, orada müəlliflərin ayrı-ayrı əsərləri haqqında biblioqrafik xülasənin verilməsi həmin vəsaitin informasiya potensialını xeyli artırır. Bu informasiya mənbəyində materialların əks olunması seçmə xarakteri daşıyır və hər bir şəxsin yaradıcılığını tam dolğunluqla əks etdirmir.



Ədəbiyyatşünas alimlərin biblioqrafik informasiya təminatında ədəbi biblioqrafik nəşrlərin çox böyük əhəmiyyəti var. Bu mövzu geniş və əhatəli mövzu olduğuna görə bir məqalədə onu tam əhatə etmək mümkün deyil. Tədqiqatın davamı olaraq bu mövzuya bir daha qayıdılacaq və daha əhəmiyyətli ədəbi biblioqrafik nəşrlərin biblioqrafik təhlili veriləcəkdir.

Bu gün Azərbaycan ədəbiyyatının intensiv inkişafı Azərbaycan ədəbi biblioqrafiyasının da dinamik və sürətli inkişafını tələb edir. Ədəbiyyatşünaslıq elminin inkişafında onların yerini, mövqeyini dəqiq müəyyən etmək üçün müstəqil biblioqrafik vəsaitlərin yaradılması zərurəti ortaya çıxır.

### *ƏDƏBİYYAT*


*1. Azərbaycan yazıçıları: Ensiklopedik məlumat kitabı / Tərt. ed.: T. Əhmədov. – B.: Önər, 1995.-670 s.*

*2. Azərbaycan sovet ədəbiyyatşünaslığı (1920-1975): Biblioqrafiya.-B.: Elm, 1983.-940 s.*

*3. Bəxtiyar Vahabzadə: Biblioqrafik göstərici / Tərt. ed: İ. Əliyeva. – B.: Maarif, 1997.-199 s.*

*4. Xələfov Ə.T. XIX əsr Azərbaycan maarifpərvər şair və alimlərinin biblioqrafik fəaliyyəti haqqında // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. - B.: BUN, 1998. - №2. – S. 70-80.*

*5. Kamal Talıbzadə: Biblioqrafik göstərici/Tərt. ed: Ə. Əfəndiyev; Azərbaycan EA MEK. – B.: Elm, 2000. – 207 s. – («Azərbaycanın elm və mədəniyyət xadimləri» ser.)*

*6. Mir Möhsün Nəvvab. Təzkireyi-Nəvvab. – B.: Azərbaycan, 1995.-560 s.*

*7. Müctəhidzadə Məmmədağa. Riyazül-aşiqin. - B.: Azərbaycan, 1995. – 248 s.*


***С.ИСМАИЛОВА***

### *Литературно-библиографические источники, как важное средство информационно-библиографического обеспечения литературоведения*

**Резюме**

В этой статье обосновано важность в библиографическом обеспечении ученых-литературоведов таких литературно-библиографических источников, как тезкире, персональные библиографических указателей и библиографических пособий.

*Səadət ELDAROVA*
*aspirant*

# AZƏRBAYCAN NEFTİ ÜZRƏ MÜHÜM BİBLİOQRAFİK EHTİYAT MƏNBƏYİ

Azərbaycanda neft sənayesi xalq təsərrüfatının əsas sahələrindən biridir. Xüsusən də Azərbaycan neftinin dünya bazarına çıxarılması nəticəsində ölkə büdcəsinə daxil olan gəlir təkcə sənaye iqtisadiyyatının canlandırılmasını deyil, bütövlükdə təsərrüfat, elm, təhsil, mədəniyyətin və informasiya ehtiyat bazasının inkişafını da stimullaşdırır. Məhz buna görə də Azərbaycan neftinin inkişafı və istismarına dövlət daha çox diqqət yetirir.

Elm, texnika və sənaye sahələrinin, o cümlədən neft sənayesinin sürətli inkişafı, bununla bərabər, ədəbiyyat nəşrinin artması və oxucu auditoriyasının genişlənməsi Azərbaycanda texnikaya dair biblioqrafik informasiyaya ehtiyac əmələ gətirir. Ona görə də bu sahədə elmi-tədqiqat işi aparmaq, xüsusən də respublikamızda neft sənayesi kompleksinin biblioqrafik informasiya təminatının indiki vəziyyətini və gələcək vəzifələrini müəyyənləşdirmək müasir Azərbaycan biblioqrafiyaşünaslığının qarşısında duran mühüm vəzifələrdəndir. Təbii ki, bu problemlərin hamısını bir məqalədə əhatə etmək mümkün deyildir. Odur ki, biz bu məqalədə Azərbaycan nefti üzrə ədəbiyyatı əks etdirən mühüm biblioqrafik ehtiyatın elmi ümumiləşməsini verməyə səy göstərmişik.

Elmi-texniki tərəqqinin sürətli inkişafı, elmi işçilərin, mühəndislərin çoxalması elmi-texniki məlumat sənədlərinin müxtəlif növlü və tipli ədəbiyyatın görünməmiş dərəcədə artmasına səbəb olur. Elmi-tədqiqatların nəticələrinin, ixtiraların və kəşflərin xalq təsərrüfatında tətbiq olunmasını və istifadə edilməsini hər vasitə ilə sürətləndirmək bilavasitə müəssisələrdə mühəndis əməyinin təşkilini təkmilləşdirmək, elmlə istehsalatın yaradıcılıq əlaqələrini möhkəmləndirmək üçün alimlərin, mühəndislərin, texniklərin və fəhlələrin biblioqrafik təminatını yaxşılaşdırmaq lazımdır. Çünki müasir dövrdə elmi-texniki məlumatın rolu hədsiz dərəcədə yüksəlmişdir. Bu məlumatların öyrənilməsində, təbliğində və yayılmasında ən mühüm vasitələrdən



biri biblioqrafik göstəricilər hesab edilir. Bu vaxta qədər təbiət elmləri, kənd təsərrüffatı və texnikanın müxtəlif mövzuları və sahələri üzrə bir sıra mühüm vəsaitlər meydana gəlmişdir. Məsələn: "Gənclər texnika haqqında nə oxumalıdırlar" (tərt. ed. H.B.Həsənov) (1957), "Neft" (tərt. ed.M.Nəcəfova və R. Kazımov) (1960), "Kimya xalqın xidmətində"(təri. ed. M.Nəcəfova) (1960), "Azərbaycan neft sənayesi 40 ildə" (tərt. ed. T.A.Susayeva) (1960), "Neft daşları" (tərt. ed. C.M.Mehdiyev və T.A.Susayeva) (1962), "Azərbaycan sənayesi" (1964), "Neftçiyə kömək" (tərt. ed. B.E.Hüseynova) (1966), "Azərbaycan neft sənayesi" (tərt. ed. Ə.Əliyev) (1977), "Fəhlələrə elmi-texniki tərəqqi haqqında" (tərt. ed. B.Hüseynova) (1978), "Neftlə çirkləndirilmiş torpaqların rekutivasiyası" (1982) və s. Göstərilən ədəbiyyatın yeni tipli göstəricilərini və bir çox başqalarını da göstərə bilərik. Retrospektiv axtarışda Azərbaycan MEA MEK-in "Azərbaycan elm və mədəniyyət xadimləri" seriyasından çap etdirdiyi şəxsi göstəricilər də az əhəmiyyətli deyil. Belə ki, bu nəşrlər içərisində neft sənayesi sahəsində çalışan alim və mütəxəssislərimizin elmi və istehsalat yaradıcılığını işıqlandıran biblioqrafik göstəricilərə də rast gəlmək mümkündür.

Ümumiyyətlə, Azərbaycan neftinə dair biblioqrafik ehtiyatların yaradılması sahəsində əhəmiyyətli nailiyyətlər əldə olunmuşdur. Bu sahədə Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanasının fəaliyyəti daha təqdirəlayiqdir. Belə ki, MEK-in "Azərbaycanda neft" (1920-1970-ci illər)" mövzusunda çap etdirdiyi elmi-köməkçi xarakterli biblioqrafik göstəricini bu sahədə biblioqrafik ehtiyat bazası kimi qiymətləndirmək olar. Bu göstərici müəyyən problemlər üzrə ayrı-ayrı hissələrlə hazırlanır. I hissə "Neft yataqlarının geologiyası" 1985-ci ildə çapdan çıxmışdır. Vəsaitə 1920-1970-ci illərdə Azərbaycanda çapdan çıxan monoqrafiyalar, ETİ-lərin elmi əsərlər məcmuəsi, dövri mətbuatda Azərbaycan və rus dillərində çıxan materiallar daxil edilmişdir. Göstəricinin II hissəsində ("Neft quyularının qazılması", 1980) quyu qazılması probleminin inkişaf yolunu izləməyə kömək edən müxtəlif təlimatlar, qazma üsulları haqqında hesabatlar və tədqiqatlar öz əksini tapmışdır. III hissədə ("Neft, qaz və qaz kondensat yataqlarının işlənməsi və istismarı", 1982) toplanan ədəbiyyat oxucuya adı çəkilən problemin inkişaf yolunu izləməkdə kömək edir. IV hissə ("Neft sənayesinin inkişaf tarixi", 1986) respublikada neft sənayesinin tarixinə həsr olunmuşdur. Bu cilddə Azərbaycanda neft sənayesinin tarixi, neft sənayesində çalışan kadrlar, görkəmli neftçilər

və s. haqqında materiallar öz əksini tapmışdır. V hissədə ("Neft emalı və neft kimyası", 1990) neft emalı və neft kimyasını işıqlandıran ədəbiyyatın biblioqrafik təsviri verilmişdir. Sonuncu, birləşmiş VI hissəyə ("Neft haqqında ədəbiyyat", 1990) bu və ya digər səbəbdən əvvəlki hissələrdə öz əksini tapmayan bir çox əsərlər daxil edilmişdir.

Bu mövzu bibiloqrafik göstəricisinə Azərbaycan və rus dillərində ədəbiyyat daxil edilmişdir. Azərbaycan dilində olan əsərlərin rus dilinə tərcüməsi vəsaitin informasiya potensialını xeyli artırır. Vəsaitə daxil edilmiş materialların biblioqrafik təsviri verilərkən ilkin sənədlərə müraciət olunması da nəzər diqqəti cəlb edən mühüm xüsusiyyətlərdəndir. Lakin müvafiq ədəbiyyatın üzə çıxarılmasında tərtibçilərin bir sıra çətinliklərlə rastlaşmasını nəzərə alıb toplanmış materialın tamlığını qənaətbəxş hesab etmək olmaz. Ümumilikdə biblioqrafik göstəricidə 14.595 adda sənəd öz əksini tapmışdır (I hissə – 2601, II hissə – 2587, III hissə – 3561, IV hissə – 913, V hissə 3178, VI – hissə – 1755).

Biblioqrafik göstəricidən istifadəni asanlaşdırmaq üçün müəlliflərin əlifba göstəricisi və qəbul olunmuş ixtisarların siyahısı əlavə edilmişdir. Vəsait elmi işçilər, neft sənayesinin mühəndis-texniki işçiləri, aspirantlar, müəllimlər, ali məktəb və texnikum tələbələri üçün faydalı biblioqrafik informasiya mənbəyi ola bilər.

Müstəqillik dövrünə qədəm qoymuş hər bir dövlətin elmi-texniki siyasətinin strateji məqsədi dünya elminin nailiyyətlərini mövcud ehtiyatlar çərçivəsində düzgün istifadə etmək xəttidir. Bu siyasətin tərkib hissələrindən biri elm və texnikanın dünya informasiya sistemlərinə uyğunlaşdırılması, dünya informasiya bazarına çıxmağa şəraitin yaradılmasıdır. Hazırda bu aspektdə Azərbaycanda qanunvericilik səviyyəsində müəyyən işlər görülür.

XXI əsrdə sürəti daha da artmış elmi texniki inqilabın xarakterik cəhəti fiziki fəaliyyətlə yanaşı, intellektual, zehni fəaliyyətin də mexanikləşdirilməsi və avtomatlaşdırılmasıdır. Yaxşı olardı ki, "Azərbaycanda neft" mövzusunda biblioqrafik göstərici İNTERNET səhifələrində öz əksini tapsın. Göstəricidə verilmiş materialların əksəriyyətinin rus dilində olması, o cümlədən Azərbaycan dilində olan ədəbiyyatın da, paralel şəkildə tərcüməsinin verilməsi bu arzumuzu reallaşdırmaq imkanlarını daha da genişləndirər. Bu məsələnin həyata keçirilməsi istər elm və texnikanın özündə, istərsə də onların



informasiya təminatı sistemlərini infrastrukturunda ciddi keyfiyyət dəyişikliklərinə gətirib çıxaracaq.

*ƏDƏBİYYAT*


*1. Allahverdiyev B.V. Müasir dövrdə Azərbaycanda texniki biblioqrafiyanın vəziyyəti və inkişafı perspektivləri //Müasir mərhələdə Azərbaycanda biblioqrafiya işi məsələləri: Elmi əsərlərin toplusu. – B.: ADU, 1990. - S. 63-80.*

*2. Allahverdiyev B.V. Texnika sahəsinin oxucularına biblioqrafik xidmətin xüsusiyyətləri //Azərbaycan kitabxanalarında oxuculara biblioqrafik xidmət problemləri: Elmi əsərlərin mövzu məcmuəsi. – B.: ADU, 1989. - S. 32-38.*

*3. Azərbaycanda neft (1920-1970): I hissə: Neft yataqlarının geologiyası: biblioqrafik göstərici /Tərt. ed. İ.M.Teymurova, H.Ə.Zülalova, Z.V.Mustafayeva, Ç.N.Əhmədova, L.S.Markina. – B.: Elm, 1985 - 323 s.*

*4. II hissə: Azərbaycanda neft quyularının qazılması: biblioqrafik göstərici /Tərt. ed. N.M.Teymurova, H.Ə.Zülalova, Ç.N.Əhmədova, Z.V.Mustafayeva, L.S.Markina. – B.: 1980. - 383 s.*

*5. III hissə: Neft, qaz və qaz kondensat yataqlarının işlənməsi və istismarı: Biblioqrafik göstərici /Tərt. ed. N.M.Teymurova, H.Ə.Zülalova, Z.V.Mustafayeva, Ç.N.Əhmədova, L.S.Markina. – B.: 1982. - 441 s.*

*6. IV hissə: Azərbaycanda neft sənayesinin inkişaf tarixi: Biblioqrafik göstərici /Tərt. ed. N.M.Mustafayeva, H.Ə.Zülalova, Z.V.Mustafayeva, Ç.N.Əhmədova, – B.: 1986. - 118 s.*

*7. V hissə: Neft emalı və neft kimyası. /Tərt. ed N.M.Teymurova, H.Ə.Zülalova, Z.V.Mustafayeva, Ç.N.Əhmədova, L.S.Markina. – B.: Elm, 1990. - 394 s.*

*8. VI hissə: (birləşmiş): Neft haqqında ədəbiyyat: Biblioqrafik göstərici /Tərt. ed. N.M.Teymurova, H.Ə.Zülalova, Z.V.Mustafayeva, Ç.N.Əhmədova, L.Martina, Y.V.Sadıxov, L.H.Orucova. –B.: 1990. - 229 s.*

*9. Əliyev Z., Məmmədov Ə. Biblioqrafik işin kompüterləşdirilməsinin nəzəri və praktiki əhəmiyyəti //Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri və təcrübi jurnal. – B., 1998, №2 (3), S. 63-69.*

*С. ЭЛЬДАРОВА*

***Важный библиографический источник по азербайджанскому нефтю***

**Резюме**

Нефте-промышленность в Азербайджане составляет часть экономики страны. Основной доход в бюджет страны приходит от нефте-комплекса. Поэтому основной проблемой научных работников и специалистов в сфере нефтяной промышленности является обеспечение библиографической информации.

В статье в различных аспектах анализируются библиографический указатель под названием «Нефть в Азербайджане» .

На основе изучения и научного обобщение состояния библиографической обеспеченности нефте-промышленности приходим к выводу, что несмотря на определенные достижения в этой области, нельзя ее считать удовлетворительной, полноценно отвечающей требованием современного научно-технического прогресса.

*Səadət MÜTƏLLİMOVA*
*magistrant*

# BEYNƏLXALQ BİBLİOQRAFİK ƏMƏKDAŞLIĞIN YARANMASI TARİXİNDƏN

Beynəlxalq biblioqrafiya beynəlxalq biblioqrafik əmək-daşlığın əsasını təşkil etdiyinə görə ilk növbədə onun tərifini vermək məqsədəmüvafiq olardı. Beynəlxalq biblioqrafiya dedikdə, müxtəlif ölkələrin çap məhsulunun biblioqrafik qeydi nəzərdə tutulur (2, s.152). Milli biblioqrafiyanın yaranması ilə beynəlxalq biblioqrafiya xüsusi bir istiqamət kimi başa düşülmüşdür. Onu inkişaf etdirən biblioqraflardan biri İsveç alimi Konrad Gesner (1516-1565) olmuşdur. O, latın, qədim yunan və qədim yəhudi dillərində çıxan bütün əlyazma və çap kitablarını hesaba almağı qarşısına məqsəd qoymuş və təxminən 15 min əsərin təsvir olunduğu «Universal kitabxana» (1545-1555) adlı üç cildlik göstəricini çap etdirmişdir.

Beynəlxalq əhatəli biblioqrafik vəsaitlər ayrı-ayrı şəxslər və kollektivlər, dövlət müəssisələri və şəxsi biblioqrafik firmalar, milli və beynəlxalq təşkilatlar tərəfindən hazırlana bilər. Ancaq sözsüz ki, beynəlxalq biblioqrafiyanın gələcəyi beynəlxalq biblioqrafik əməkdaşlığın möhkəmləndirilməsi və inkişafından asılıdır. Çünki beynəlxalq biblioqrafik göstəricilərin yaradılması üçün bir çox ölkələrin biblioqraflarının sıx surətdə əməkdaşlığı vacibdir.

Biblioqrafiya sahəsində beynəlxalq əməkdaşlıq elm və incəsənətin bütün sahələrində beynəlxalq əlaqələrin əsasının qoyulduğu XIX yüzilliyin ikinci yarısında yaranmışdır. Ümumi səbəblərdən əlavə onun inkişafına dünya çap məhsulunun fasiləsiz olaraq artması, kitabxana işinin intensiv inkişafı da təsir göstərmişdir.

Qeyd etmək lazımdır ki, beynəlxalq göstəricilərin yaradılmasına təşəbbüs göstərənlər və tərtibçilər çox vaxt alimlərin özləri olurdu. XIX əsrdə beynəlxalq biblioqrafiyanın daha mühüm nəşri London Kral Cəmiyyəti tərəfindən demək olar ki,

altmış il ərzində çapdan buraxılan «Elmi məqalələrin kataloqu» (1867-1902; 1914-1925) sayılır (2, s.153). Kataloqa yüz il ərzində bir çox ölkələrin 1,5 min elmi-təbii jurnallarından məqalələrin təsviri daxil edilmişdir. Əgər «Elmi məqalələrin kataloqu» yalnız Kral Cəmiyyəti tərəfindən nəşr olunmuşdursa, onun davamı olan «Elmi ədəbiyyatın beynəlxalq kataloqu» (1902-1919) bir çox ölkələrin alimlərinin kollektiv əməyinin nəticəsi hesab olunur (2, s.153). Bu kataloq 1901-1914-cü illər ərzində 34 ölkənin jurnallarındakı məqalələrin və 17 sahə üzrə seriyalı kitabların təsvirini əhatə etmişdir.

XIX əsrin ikinci yarısında bir çox ölkələrdə milli biblioqrafik cəmiyyətlər yaranmışdır ki, onların da əsas iş formaları müşavirələrdən ibarət idi. Fransız biblioqrafik cəmiyyəti 1878, 1888 və 1889-cu illərdə bir çox xarici dövlətlərin nümayəndələrinin iştirak etdiyi beynəlxalq biblioqrafik konqreslər təşkil etmişdir (2, s.153). Ancaq sırf beynəlxalq xarakterli ilk müşavirə Belçika alimləri P.Otle və A.Lafontenin təşəbbüsü ilə 1895-ci ildə Brüsseldə çağırılmış biblioqrafiya üzrə konfrans sayılır (2, s.153). Bu konfransda P.Otle məruzə ilə çıxış edərək dünya ədəbiyyatının biblioqrafik kartotekasının tərtibi və idarə edilməsi üçün Belçikada daimi beynəlxalq təşkilatın yaradılmasının vacibliyini qeyd etmişdir. Elə həmin ildə Belçikanın dövlət vəsaiti hesabına beynəlxalq biblioqrafiyanın əsas iş mərkəzinə çevrilən Beynəlxalq Biblioqrafiya Bürosu təsis edildi. Beynəlxalq biblioqrafiya probleminin, o cümlədən təsnifat probleminin elmi cəhətdən öyrənilməsi üçün eyni zamanda Beynəlxalq Biblioqrafik institut da yaradıldı. P.Otle bu institutun baş katibi və Beynəlxalq Biblioqrafiya Bürosu şurasının üzvü oldu. Sonradan isə hər iki təşkilat Beynəlxalq Biblioqrafiya İnstitutunda birləşdirildi. 1931-ci ildən isə adı dəyişdirilərək Beynəlxalq Sənəd İnstitutu oldu. 1938-ci ildə (bəzi məlumatlara görə 1937-ci ildə) o, sənədlər üzrə Beynəlxalq Federasiyaya çevrilərək, Brüsseldən Haaqaya köçürüldü (4, s.87).

Beynəlxalq biblioqrafiya İnstitutunun əsas işi «Dünya biblioqrafik repertuarı» adlanan biblioqrafik kartotekanın yaradılma texnikası və metodlarının işlənilməsi ilə əlaqədar idi. Bu kartotekaya kitab çapından başlayaraq bütün dünyada çap olunan ədəbiyyat daxil edilmişdi. Beynəlxalq Biblioqrafiya İnstitutunun işində dünyanın bir çox ölkələrinin ekspert-biblioqrafları iştirak



edirdi. Onların sırasında həmin dövrdə artıq məşhur olan görkəmli rus biblioqrafı, professor, pedaqoji elmlər doktoru B.S.Bodnarski də var idi.

İnstitutun əsas şöbələri Parisdə, Londonda və Sürixdə yerləşirdi. Onların əsas işinə «Dünya biblioqrafik repertuarı» üçün tətbiqi elmlər üzrə milli nəşrlərin mükəmməl biblioqrafiyasının tərtibi daxil idi. Dünya repertuarının yaradılmasında əsas mənbələr: ilk növbədə institutun dünyanın bütün ölkələrinin kitabxanalarından və elmi cəmiyyətlərindən hədiyyə kimi aldıqları nəşrlərin özləri və ikincisi də milli və mümkün olan digər biblioqrafiyalar, həmçinin kitabxanaların çap kataloqları idi. Bütün ədəbiyyat Beynəlxalq Biblioqrafiya Bürosuna daxil olaraq beynəlxalq formatın kartoçkalarında təsvir olunurdular. Sözsüz ki, beynəlxalq biblioqrafiyanın yaradılması ədəbiyyatın vahid təsnifat sistemi olmadan mümkün deyildi. İlk olaraq ədəbiyyatın təsnifləşdirilməsi üçün P.Otlenin təklifi və I Beynəlxalq Biblioqrafik konqresin məsləhəti ilə Beynəlxalq Biblioqrafik İnstitut tərəfindən yenidən işlənilən Melvil Düinin Onluq təsnifatı qəbul edildi. 1873-cü ildə yaradılan bu təsnifat ABŞ-da, İngiltərədə və Avropa ölkələrinin bir çoxunda geniş yayılmışdı.

1895-ci ildə Beynəlxalq Biblioqrafiya Bürosu Brüsseldə onun yenidən işlənmiş variantını «Onluq təsnifat. Ümumi ixtisar edilmiş cədvəllər» sərlövhəsi altında nəşr etdi. 1905 və 1907-ci illərdə institut ixtisar edilmiş «Manuel» adı ilə məşhur olan «Dünya biblioqrafik repertuarının tərtibi üzrə rəhbərlik» sərlövhəsi altında Düinin təsnifatının genişlənmiş və yenidən işlənilən ikinci və üçüncü Brüssel nəşrlərini (fransız dilində) çapdan buraxır (4, s.88). Cədvələ 40 min əsas və 3 min köməkçi rubrika daxil edilmişdir. Cədvəlin ümumi həcmi 125 müəllif vərəqindən ibarət idi. Bütün bunlardan əlavə institut 1895-ci ildən iki aylıq «Beynəlxalq Biblioqrafik İnstitutun bülleteni»ni nəşr etməyə başlayır ki, burada da institut tərəfindən aparılan tədqiqatlar haqqında məqalə - hesabatları, sənədlərin bütün aktual problemləri üzrə materiallar dərc olunurdu. İnstitut həmçinin biblioqrafiyanın, kataloqlaşdırmanın, təsnifatın metodikası, texnikası və nəzəriyyəsi üzrə «Nəşrlər» monoqrafiyaların seriyalarını, eləcə də ayrı-ayrı ölkələrdə biblioqrafiyanın vəziyyətini əks etdirən icmalları nəşr etdirmişdir.

Beynəlxalq Biblioqrafik İnstitutun baş katibi vəzifəsində çalışan P.Otlenin fəaliyyətinin bu dövrünə 1910-cu ildə elmi sənədlər fondunun təşkilini aid etmək olar. Bura elmi əhəmiyyətlilik dərəcəsinə uyğun olan ixtiraların təsviri, çertyojlar, xəritələr, planlar, diaqramlar, prospektlər və digər materiallar, eləcə də əlyazmaları aid etmək olar. Bu fondun əsas hissəsində dosyelərdən ayrı-ayrı suallar üzrə seçilmiş sənədlər, məsələn: Beynəlxalq Assosiasiyanın nizamnamələri və üzvlərinin siyahısı, müxtəlif ölkələrin bəzi qanunlarının mətnləri, Belçikanın kitabxanaşünaslıq və biblioqrafiyası üzrə terminoloji materialları və s. saxlanılırdı. 1914-cü il artıq elmi sənədlər fondunda 600 mindən çox material var idi.

İnstitut tərəfindən alınan nəşrlər və sənədlərin qorunması üçün əhatə baxımından çox geniş olan kitabxana yaradılmışdı. İnstitutun nəzdində həmçinin sənədlər muzeyi təşkil olunmuşdu.

1910-cu ildə yenə də P.Otlenin başçılığı ilə Brüsseldə III Beynəlxalq Biblioqrafik Konqres keçirildi. Konqres bütünlükdə institut tərəfindən hazırlanmış və Brüssel dünya elmi və texniki nailiyyətlər sərgisinə aid edilmişdir (4, s.89).

III Beynəlxalq Konqres biblioqrafıyanın gələcək inkişafı üçün çox böyük əhəmiyyət kəsb edirdi. Burada Beynəlxalq Biblioqrafik İnstitutun nəzdində xüsusi biblioqrafik məktəbin təsis edilməsi və institut tərəfindən biblioqrafiya üzrə illiklərin nəşri barədə qərarlar qəbul edilmişdir. Konqres bütün ölkələrin biblioqraflarını toplu kataloqların yaradılması, nəşrlərin beynəlxalq mübadiləsi, biblioqrafik nəşrlərin birgə hazırlanması sahəsində beynəlxalq əməkdaşlığa çağırırdı.

Konqresdən sonra Beynəlxalq Biblioqrafik İnstitutun işi I Dünya müharibəsinin başlanmasına qədər P.Otlenin rəhbərliyi il bütün maddi çətinliklərə baxmayaraq davam etdirildi. Müharibə dövründə isə institutun fəaliyyəti dayandırıldı. 1924-cü ildə institutun tərkibində təsnifat üzrə işi davam etdirmək məqsədi ilə UOT üzrə Beynəlxalq komissiya təşkil edildi. 1927-ci ildə «Universal Onluq Təsnifat» adı alan yenidən işlənilmiş təsnifat sisteminin nəşrinə başlanıldı. Bu nəşr fransız, alman, ingilis, yapon, ispan, portuqal və başqa dillərdə çıxan bir çox nəşrlər üçün əsas oldu. 1933-cü ildən institut P.Otlenin təklifi ilə təsnifat sistemini yenidən işlədilər.



Göründüyü kimi, beynəlxalq biblioqrafik əməkdaşlığın və beynəlxalq biblioqrafiyanın yaradılmasında Beynəlxalq Biblioqrafik İnstitutun və onun yaradıcıları olan P.Otle və A.Lafontenin xidmətləri əvəzolunmazdır.

II Dünya müharibəsindən sonra biblioqrafiya sahəsində beynəlxalq əməkdaşlıq xeyli inkişaf etdi. Belə ki, dünya miqyasında çıxan çap məhsulları haqqında informasiyaya tələbat artdı. Əgər əvvəllər kitab və jurnalların çox hissəsi yalnız Avropanın və ABŞ-ın böyük ölkələrində nəşr olunurdusa, elm və texnikanın inkişafı ilə əlaqədar olaraq müstəqil dövlətlər, hətta dünyanın geridə qalmış ölkələrində belə nəşrlərin sayı birdən-birə artmışdır. Artıq beynəlxalq kitabxana-biblioqrafiya cəmiyyətləri öz qüvvələrini daha qlobal irformasiya sistemlərinin yaradılmasına sərf edirdilər. Bu sistemlərin hazırlanmasında YUNESKO-nun rolu çox böyük olmuşdur. YUNESKO fəaliyyətinin ilk dövrlərindən başlayaraq əsas diqqəti bütün ölkələrdə cari milli biblioqrafiyanın inkişafına yönəltmişdi. Bundan əlavə YUNESKO bir çox beynəlxalq təşkilatlara, onların işlərinin maliyyələşdirilməsinə də köməklik göstərirdi. Bunların içərisində Kitabxanaçılıq Assosiasiyalarının və İdarələrinin Beynəlxalq Federasiyası (İFLA), Sənədşünaslıq üzrə Beynəlxalq Federasiya (FİD), Elmi İttifaqların Beynəlxalq Şurası (MSNS), Arxivlərin Beynəlxalq Şurası (MSA) və s. YUNESKO bu təşkilatlara bir-birilə bağlı olan bir çox böyük beynəlxalq biblioqrafik proqramların həyata keçirilməsində köməklik göstərir ki, bunların içərisində 1970-ci ildə YUNESKO-nun təşəbbüsü ilə İFLA tərəfindən işlənib reallaşdırılan Beynəlxalq Biblioqrafik Uçot (UBU) proqramı; 1971-ci ildən FİD-in aktiv iştirakı, YUNESKO və MSNS təşəbbüsü ilə həyata keçirilən elmi və texniki informasiya sahəsində əməkdaşlığın beynəlxalq proqramı (YUNİSİST); 1974-cü ildən YUNESKO, FİD, İFLA və MSA tərəfindən yaradılan «Milli İnformasiya Sistemi» (NATİS) proqramı əsas yeri tutur (3, s.188).

Qeyd etmək lazımdır ki, Birləşmiş Millətlər Təşkilatının maarif, elm və mədəniyyət məsələləri üzrə təşkilatı - YUNESKO-ya hazırda 186 ölkə üzvdür. O cümlədən, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra 1992-ci il iyunun 3-dən BMT-nin bu iri ixtisaslaşdırılmış təşkilatının üzvüdür. Bunlardan əlavə 2000-ci il avqustun 13-19-da İsrailin paytaxtı Yerusəlimdə dünyanın 140-dan çox ölkəsinin təmsil olunduğu İFLA-nın 66-cı Baş

konfransında Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyası bu təşkilatın üzvlüyünə rəsmi şəkildə qəbul edilmişdir (1, s.125).

Göründüyü kimi Beynəlxalq biblioqrafik əməkdaşlıqda Azərbaycanın da iştirakı üçün artıq zəmin yaranmışdır. Ona görə də yaranmış imkanlardan isti-fadə etmək çox yaxşı olardı.

*ƏDƏBİYYAT*

*1. Baxşəliyev Z. Azərbaycan Kitabxana İşinin Assosiasiyası beynəlxalq təşkilatın - İFLA-nın üzvüdür // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal.- B.: BDU, 2000.- №2. S. 122-126.*

*2. Коршунов О.П. Библиографоведение. Общий курс. - М., 1990. - 231 с.*

*3. Кременецкая А.В. Основатель международного сотрудничества в области библиографии и документации (к 100 летию со дня рождения П.Отле) //Сов. библиография. 1968. - №6. - С. 87-94.*

*4. Гудовщикова И.В., Лютова К.В. Общая иностранная библиография. – М., 1978. - 224 с.*

***С. МУТАЛЛИМОВА***

## *Из истории международного библиографического сотрудничества*

### Резюме

В статье дается краткий обзор об истории и развитии международного сотрудничества в области библиографии. Большое внимание уделяется научно-технической деятельности Международного библиографического института, а также его основателя П.Отле.

Также дается краткий обзор о работе Организации Объединенных Наций по вопросам образования, науки и культуры (ЮНЕСКО), об международных межправительственных и неправительственных организациях как ИФЛА, ФИД, МСНС, МСА и др. в области библиографического сотрудничества.

# KİTABA BAĞLANAN ÖMÜR



*Azərbaycan kitabxana ictimaiyyəti arasında çox yaxşı tanınan, kitabxanaşünaslıq və bibliografiyaşünaslıq elminin inkişafında xüsusi yeri olan, respublikada kitabxana-informasiya sisteminin inkişafında bilavasitə xidmət göstərən şəxsiyyətlərdən birinin – Bakı Dövlət Universiteti kitabxanaşünaslıq kafedrasının dosenti, pedaqoji elmlər namizədi, sözün əsl mənasında gözəl ziyalı, pedaqoq, tədqiqatçı, prinsipial və dəyərli vətəndaş Rasim Əhməd oğlu Kazımovun 70 yaşı tamam olur.*

***Rasim Kazımov 18 may 1932–ci ildə Bakı şəhərində tanınmış ziyalı ailəsində anadan olmuşdur. Onun atası və qohumları keçən əsrin 30–cu illərində repressiya edilmiş, o, nənəsinin himayəsində böyümüşdür. Ata nəvazişi görməyən Rasim müəllimin bu gün malik olduğu yüksək elmi zəkası və ziyalı mədəniyyəti, prinsipial vətəndaşlıq mövqeyi, təşkilatçılığı, erudisiyası və digər insani keyfiyyətləri təsdiqləyir ki, bütün bunlar ona qan yaddaşı ilə ata və anadan keçmişdir.***

***Onun atası Əhməd Kazımov öz dövrünün tanınmış filosofu və vətənpərvər ziyalısı olmuşdur. O, Bakı Dövlət Universitetinin professoru və fəlsəfə kafedrasının müdiri vəzifəsini icra etmişdir.***

*R. Kazımov 1950-ci ildə 44 saylı orta məktəbi gümüş medalla bitirmiş və həmin il Moskva Kitabxanaçılıq İnstitutunun biblioqrafiya şöbəsinə daxil olmuşdur. Həmin institutu bitirdikdən sonra 1954-cü ildə R.Kazımov gənc mütəxəssis kimi Bakı Kitabxanaçılıq Texnikumuna müəllim göndərilmişdir. Yeri gəlmişkən, R.Kazımov Moskva Mədəniyyət İnstitutunun müvafiq fakültəsini bitirən ilk azərbaycanlı mütəxəssisdir.*

*1957-ci ildə Rasim müəllim M.F.Axundov adına Respublika Dövlət Kitabxanasının biblioqrafiya şöbəsinə müdir təyin edilmiş, qısa müddətdə elmi katib, sonra isə elmi işlər üzrə direktor müavini vəzifələrinə yüksəlmişdir.*

*Respublika kitabxanasında səmərəli elmi və təşkilati fəaliyyəti ilə yanaşı, R.Kazımov kitabxananın yeni binaya köçürülməsi işinə bilavasitə rəhbərlik etmiş, 2 milyon nüsxə fondun itkisiz və vaxtında başqa yerə köçürülməsi işini başa çatdırmışdır. Tale elə gətirmişdir ki, Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının yeni binaya köçürülməsi işi də R.Kazımova tapşırılmışdır.*

*R.Kazımovun elmi işə marağı onu 1962-ci ildə Elmlər Akademiyası Dil və Ədəbiyyat İnstitutunun aspiranturasına gətirib çıxarmış, o, 1970-ci ildə namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışdır.*

*Rasim müəllim təşkilatçılıq qabiliyyətinin, elmi potensialının, ixtisas biliklərinin aşkarlanmasında və inkişafında onun 1965-ci ildən 1976-cı ilə kimi Azərbaycan Respublikası MEA-nın Mərkəzi Elmi Kitabxanasına rəhbərlik etdiyi dövr mühüm bir mərhələ təşkil edir. Bu dövr respublikada akademiya elminin kitabxana-informasiya təminatı sisteminin formalaşması dövrü kimi də qiymətləndirilə bilər.*

*Məhz bu dövrə R.Kazımovun apardığı səmərəli təşkilati–metodik işlərin nəticəsində MEA-nın Mərkəzi Elmi Kitabxanası respublikada kitabxana-informasiya müəssisələri sistemində lazım olduğu yeri tutur. Bu illərdə kitabxana keçmiş ittifaq üzrə müvafiq kitabxanalar arasında keçirilən müsabiqələrin dəfələrlə qalibi olmuş, kitabxananın quruluşu və kollektivi formalaşmışdır.*

*Keçmiş SSRİ üzrə kitabxanaların mərkəzləşdirilməsi işinə rəsmən 1974-cü ildən başlanılsa da, MEK-in bu işə bir il əvvəl – 1973-cü ildə başlaması, mübaliğəsiz demək olar ki, yüksək ixtisaslı mütəxəssis kimi Rasim müəllimin simasını müəyyən etməyə, onun talant və bacarığının səviyyəsi haqqında fikir söyləməyə imkan verir.*

*Bu dövrdə MEK-ın elmi tədqiqat və elmi–informasiya fəaliyyəti əsaslı şəkildə yenidən təşkil olunmuş, «Azərbaycanın elm və mədəniyyət xadimləri» seriyası ilə görkəmli şəxsiyyətlər haqqında, habelə elmin və texnikanın müxtəlif sahələri üzrə sanballı biblioqrafik göstəricilər çap olunmağa başlamışdır.*



*R.Kazımovun təşkilatçılıq işi, elmi–tədqiqat sahəsindəki fəaliyyəti respublika kitabxana ictimaiyyətinin, o cümlədən Azərbaycanda kitabxanaşünaslıq və biblioqrafiya işi sahəsində elmi–tədqiqat və tədris işinin mərkəzi kimi formalaşmış Bakı Dövlət Universitetinin kitabxanaçılıq–informasiya fakültəsi kollektivinin, onun bilavasitə yaradıcısı, əməkdar elm xadimi, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor, kitabxanaşünaslıq kafedrasının müdiri Abuzər Xələfovun diqqətini cəlb etmiş, o, 1977-ci ildən fakültəyə dəvət olunmuşdur.*

*Rasim Kazımovun BDU-nun kitabxanaçılıq-informasiya fakültəsinə dəvət olunması fakültənin elmi potensialının, kadr hazırlığının keyfiyyətinin yüksəltməsində qısa zamanda öz bəhrəsini vermişdir. Artıq 25 ilə yaxındır ki, R.Kazımov kitabxanaşünaslıq kafedrasının dosenti vəzifəsində layaqətlə çalışır. O, universitetin, kollektivin, tələbələrin sevimlisinə çevrilmişdir. İftixar hissi ilə demək olar ki, R.Kazımov keçmiş ittifaqda kitabxanaçılıq üzrə aparıcı alimlərlə bir sırada duran mütəxəssisdir.*

*Rasim müəllim həm məhsuldar alim, həm tanınmış pedaqoq, həm də vətəndaş mövqeyi olan aydınlarımızdan biridir. 60-dan çox elmi əsər, həmçinin 12 kitab və kitabça onun qələminin məhsuludur. Bir alim kimi onun yaradıcılıq yolu çoxşaxəlidir. O, biblioqrafiyaya dair ilk dərs vəsaitinin (1955), kitab palatası haqqında ilk vəsaitin, bədii ədəbiyyat və ədəbiyyatşünaslığın biblioqrafiyası üzrə ilk dissertasiya işinin, kitabxana işinin iqtisadiyyatı üzrə ilk dərs vəsaitinin Azərbaycan Respublikasının müstəqilliyi şəraitində kitabxana işinin demokratikləşdirilməsinə dair ilk məqalənin və kitabxanaşünaslığın aktual problemləri üzrə onlarla elmi məqalələrin müəllifidir.*

*Hazırda dünya kitabxanaşünaslığında həllini gözləyən kitabxana işinin iqtisadiyyatı problemi dosent R.Kazımovun məqalələrində və dərs vəsaitlərində elmi–nəzəri cəhətdən əsaslandırılmış və bu istiqamətdə səmərəli elmi axtarışlarını yenə də davam etdirir.*

*Bu sahədə qazanılmış elmi nailiyyətlərin nəticəsidir ki, artıq bir neçə ildir kitabxanaçılıq–informasiya fakültəsində «Kitabxana işinin iqtisadiyyatı» fənni tədris edilir və bu kursun yaradılması da məhz dosent R.Kazımovun adı ilə bağlıdır.*

*Rasim müəllim təmtəraqdan çox uzaq, təvazökar bir insandır. Onun həyat fəlsəfəsinin mahiyyəti insanlarla münasibətdə səmimi olmaqdan, daim onlarla yaxınlıq etməkdən ibarətdir.*

***Rasim müəllimin ömür yolu həm də kitabxanaçılıq peşəsinin statusunun yüksəldilməsinə, gənc tədqiqatçıların yetişdirilməsinə, respublikamızda kitabxana işinin inkişaf konsepsiyasının elmi əsaslarla işlənməsinə yardımçı olmanın gözəl nümunəsidir. Son illər respublikamızda yaranan peşəkar kitabxanaçılar birliklərinin – Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin və Azərbaycanda Kitabxana İşinin İnkişafı Assosasiyasının nizamnaməsinin, «Kitabxana işi haqqında» Azərbaycan Respublikası Qanununun layihəsinin hazırlanmasında dosent R.Kazımovun xidmətləri xüsusi qeyd olunmalıdır.***

***R.Kazımovun eyni zamanda Azərbaycan Respublikasının kitabxanaçılıq və biblioqrafiyaşünaslıq elmlərinin nailiyyətlərinin dünya miqyasına rus dili vasitəsi ilə çıxmasında da misilsiz rolu vardır.***

***Rasim müəllimin intellektindən, kitabxanaşünaslıq üzrə universal biliyə malik olmasından və natiqliyindən danışarkən bu yaxınlarda respublika elmi ictimaiyyətinin geniş iştirak etdiyi auditoriya qarşısında Azərbaycan kitabxanaşünaslıq elminin və təhsilinin banisi, professor A.Xələfovun 70 illik yubileyində etdiyi məruzə onun kitabxanaşünaslıq elminin inkişaf mərhələləri haqqında son dərəcə aydın ümumiləşdirilmiş fikirlərə malik olmasını sübut edir.***

***Rasim Kazımovu bizə sevdirən təkcə onun universal biliyə malik olması deyil, həm də gözəl ailə başçısı olmasıdır. Rasim müəllimin şəxsi həyatının bəzəyi olan qızı Leyla xanımın iki övladı xoşbəxt böyüyür. «Mən çalışıram ki, nəvələrim mənim keçirdiyim nisgilli uşaqlıq illərini yaşamasınlar», - deyir Rasim müəllim.***

***Rasim Kazımov, onun gördüyü işlərin miqyası, yaradıcılıq laboratoriyası, insanlara yüksək münasibəti, ömür yolu haqqında düşünərkən həmişə nədənsə İ.H.Pestalotsi haqqında olan fikirlər yadımıza düşür və o fikri dəyişərək ürəkdən demək istəyirsən ki, «Özü üçün heç kim, başqaları üçün çox şey olan Rasim müəllim!»***

***Bu günlər Rasim müəllimi, demək olar ki, hər gün onlarla tələbəsi, keçmiş işçiləri, həmkarları, dostları təbrik edir, cansağlığı və uğurlar arzulayır. Biz də bu təbriklərə qoşulur, ürəkdən deyirik ki, Rasim müəllim, 70 yaşın mübarək!***

***Zöhrab BAXŞƏLİYEV,***
*kitabxanaşünaslıq kafedrasının dosenti,*
***Nadir İSMAYILOV***
*biblioqrafiyaşünaslıq kafedrasının dosenti*





# РАСИМ КЯЗИМОВ – 70

*Кязимов Расим Ахмед оглы видный библиотековед - библиограф Азербайджана, первый в Азербайджане выпускник Московского библиотечного института внес существенный вклад в развитие теории и практики библиотечного дела в Азербайджана.*

*За полувековой период своей деятельности Р.А.Кязимов занимал ответственные посты в Государственной библиотеке им М.Ф.Ахундова, в течение 15 лет возглавлял Центральную научную библиотеку национальной Академии Наук. За этот период библиотеке переросла в крупных библиотечно-информационный центр Азербайджана.*

*Последние 25 лет он успешно осуществляет педагогическую работу в БГУ.*

*Доцент Р.Кязимов пользуется заслуженным авторитетом среди библиотечной общественности республики.*

| | |
|---|---|
| *Nəşriyyatın direktoru:* | *Balakişi AĞAYEV* |
| *Mətbəənin müdiri:* | *Ələs QASIMOV* |
| *Bədii redaktor:* | *Mahir SÜLEYMANOV* |
| *Bilgisuyar tərtibçisi:* | *Dürdanə ABİYEVA* |
| *Bilgisayar yığıcısı:* | *Maisə RƏHİMOVA* |
| *Korrektoru:* | *Solmaz SADIQOVA* |

*Jurnal Azərbaycan Respublikası*
*Mətbuat və İnformasiya Nazirliyində*
*qeydə alınmışdır.*
*Şəhadətnamə № 575. 27 mart 1997.*

Yığılmağa verilmişdir. 05. 05. 2002.
Çapa imzalanmışdır: 10. 10. 2002.
Kağız formatı: 60x84 1/16.
Fiziki ç.v.8.
Sayı 200.
Qiyməti müqavilə ilə.

*Ünvan: 370148. Bakı şəhəri, Zahid Xəlilov küçəsi, 23.*
*Bakı Universiteti Nəşriyyatı.*
*Bakı Universiteti Nəşriyyatının mətbəəsi.*